AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ

AZERBAIJAN STATE PEDAGOGICAL UNIVERSITY

**ISSN 2664-407X**

# Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri

# Актуальные проблемы музыкальной науки, культуры и образования

# Actual problems of the science, culture and education of music

**www.adpu.edu.az**

**2024 №1 (15)**

**Redaksiya şurasının sədri**

C.M.Cəfərov tarix üzrə elmlər doktoru, professor

**Redaksiya şurasının sədr müavini**

A.D.Zamanov fizika-riyaziyyat elmləri doktoru, professor

**Redaksiya heyəti**

| | |
|---|---|
| Fərəh Əliyeva | sənətşünaslıq doktoru, professor |
| Fərhad Bədəlbəyli | Bakı Musiqi Akademiyasının rektoru, professor |
| Firəngiz Əlizadə | Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti, professor |
| Səyavuş Kərimi | Azərbaycan Milli Konservatoriyasının rektoru, xalq artisti, professor |
| Zemfira Səfərova | sənətşünaslıq doktoru, AMEA-nın müxbir üzvü, professor |
| Ceyran Mahmudova | ADMİU-nun rektoru, sənətşünaslıq doktoru, professor |
| Rəna Məmmədova | sənətşünaslıq doktoru, AMEA-nın müxbir üzvü, professor |
| Gülnaz Abdullazadə | fəlsəfə elmləri doktoru, professor |
| Rəna Abdullayeva | sənətşünaslıq doktoru, professor |
| Yuliy Əliyev | pedaqoji elmlər doktoru, professor (Rusiya) |
| İmruz Əfəndiyeva | sənətşünaslıq doktoru, professor |
| Çingiz Abdullayev | kulturologiya doktoru, professor |
| Vidadi Xəlilov | pedaqoji elmlər doktoru, professor |
| Vladimir Adişev | pedaqoji elmlər doktoru, professor (Rusiya) |
| Eduardas Balçitis | pedaqoji elmlər doktoru, professor (Litva) |
| Anatoliy Bolqarskiy | pedaqoji elmlər doktoru, professor (Ukrayna) |
| Anatoliy Qoremıçkin | pedaqoji elmlər doktoru, professor (Ukrayna) |
| Rauf Kadırov | pedaqoji elmlər doktoru, professor (Özbəkistan) |
| Yelena Nikolayeva | pedaqoji elmlər doktoru, professor (Rusiya) |

**Baş redaktor**

Jalə Qədimova pedaqoji elmlər doktoru, professor

**Baş redaktorun müavini**

Tamilla Kəngərli pedaqoji elmlər doktoru, professor

**Elmi redaktor**

Fərrux Rüstəmov pedaqoji elmlər doktoru, professor

**Məsul redaktorlar**

Həcər Hüseynova filologiya elmləri doktoru, professor
Ülviyyə Hacıyeva filologiya üzrə fəlsəfə doktoru, dosent

**Məsul katib**

Sevinc Mamoyeva

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**
**Elmi Şurasının 15 aprel 2016-cı il, 15 saylı qərarı ilə çap olunur.**
Təsisçi: **Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

Jurnal ildə iki dəfə çıxır.
Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №1
Bakı, 2024, 126 s.
Ünvan: AZ 1000, Azərbaycan Respublikası, Bakı, Üzeyir Hacıbəyli küçəsi 68
Адрес: AZ 1000, Азербайджанская Республика, Баку, улица Узеира Гаджибейли 68
Address: AZ 1000, Azerbaijan Republic, Baku, Uzeyir Hajibeyli street 68
Tel.: (99412) 493-00-32 Fax: (99412) 598-10-35
e-mail: n_s_q@mail.ru

## Sahələr üzrə redaksiya komissiyaları:

- **Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası üzrə:** pedaqogika elmləri doktoru, professor Tamilla Kəngərli (sədr), pedaqogika üzrə fəlsəfə doktoru Firəngiz Rzayeva, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nelli Abutidze, pedaqogika üzrə fəlsəfə doktoru Məlahət Məmmədova, pedaqogika üzrə fəlsəfə doktoru Kəmalə İsmayılova;

- **Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Musiqinin tədrisi metodikası) ixtisası üzrə:** psixologiya elmləri doktoru, professor Qızxanım Qəhrəmanova (sədr), pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mədinə Tuayeva, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Firəngiz Hidayətova, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova;

- **Musiqi sənəti ixtisası üzrə:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Nərminə Quliyeva (sədr), sənətşünaslıq doktoru, professor Nailə Rəhimbəyli, sənətşünaslıq doktoru, professor Ülkər Əliyeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaşzadə, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Zemfira Abdullayeva;

- **Kulturologiya ixtisası üzrə:** tarix üzrə elmlər doktoru Fuad Məmmədov (sədr), fəlsəfə elmləri doktoru, professor Mübariz Süleymanlı, fəlsəfə elmləri doktoru, professor Niyazi Mehdi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Laçın Həsənova;

- **Məktəbəqədər təlim, tərbiyə ixtisası üzrə:** pedaqogika elmləri doktoru, professor Şəhla Əliyeva (sədr), pedaqogika elmləri doktoru, professor Museib İlyasov, pedaqogika üzrə fəlsəfə doktoru Sədaqət Əliyeva, pedaqogika üzrə fəlsəfə doktoru Pərişan Həsənova, psixologiya üzrə fəlsəfə doktoru Qəribə Rəhimova.

**11 may 2016-cı il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır.**

**Qeydiyyat №: 4050**

# MÜNDƏRİCAT

## TƏLİM VƏ TƏRBİYƏNİN NƏZƏRİYYƏSİ VƏ METODİKASI (MUSİQİNİN TƏDRİSİ METODİKASI)

**MƏMMƏDOVA R.A.**
Xalq musiqisində təkamül proseslərinin öyrənilmə metodları haqqında .... 10
**RZAYEVA F.İ.**
Musiqi-pedaqoji repertuarın tərbiyəvi funksiyaları (Cövdət Hacıyevin silsilə mahiyyətli əsəri əsasında) .................................................... 20
**HİDAYƏTOVA F.Ş.**
Xor kollektivi sosial-mədəni mühit kimi .................................................. 28
**ƏLİYEVA M.T.**
Musiqinin tədrisində müasir pedaqoji texnologiyaların tətbiqi ................. 33
**AĞAYEV C.C.**
Xalq mahnılarının musiqi dərslərində istifadə imkanları ........................... 39

## ÜMUMİ PEDAQOGİKA, PEDAQOGİKANIN VƏ TƏHSİLİN TARİXİ

**QƏRİBOVA A.H.**
Musiqinin qavranılmasında ədəbiyyatın rolu və yeri ................................ 46
**İSMAYILOVA K.Q.**
Bədii təhsilin inkişafı ................................................................................ 51
**ƏLİXANOVA G.H.**
İnsanları qavrama və anlama probleminin bəzi məqamları ........................ 57
**MAHMUDOVA A.Y.**
Yeniyetməlik dövründə inkişafın psixoloji xüsusiyyətləri ........................ 64
**KƏRİMZADƏ B.K.**
Musiqi dinləmə qabiliyyəti və onun əsas komponentlərinin xüsusiyyətləri 70
**BƏŞİROV A.M.**
Musiqi assosiativ təfəkkürün inkişafı vasitəsi kimi ................................... 76
**QASIMOVA Q.İ.**
Mədəni tarixi prosesdə milli spesifikanın dəyişən funksiyaları ................. 82
**TƏBİBZADƏ G.İ.**
Kiçik məktəb yaş dövrünün psixoloji xüsusiyyətləri ................................. 90
**VƏLİYEVA N.Ə.**
Məktəblilərin musiqi dərslərində emosional hisslərin tərbiyəsi ................. 95

## MUSİQİ SƏNƏTİ

**RAMAZANOV R., ƏLIYEV Ə.**
Azərbaycan Respublikasının qanunvericiliyində musiqi əsərlərinin hüquqi mühafizəsinin bəzi aspektləri ........................................................ 101
**NƏSİROVA-ƏHMƏDOVA F.İ.**
Bəstəkar İlahə Qismətin "Rəngli lövhələr" adlı fortepiano məcmuəsi ....... 109

**Qaydalar**.................................................................................................... 120

# СОДЕРЖАНИЕ

## ТЕОРИЯ И МЕТОДИКА ОБУЧЕНИЯ И ВОСПИТАНИЯ (МЕТОДИКА ПРЕПОДАВАНИЯ МУЗЫКИ)

**МАМЕДОВА Р.А.**
О методах изучения эволюционных процессов в народной музыке ... 10
**РЗАЕВА Ф.И.**
Воспитательные функции музыкально-педагогического репертуара (на примере циклического произведения Джевдета Гаджиева) .......... 20
**ГИДАЯТОВА Ф.Ш.**
Хоровой коллектив как социокультурная среда .................................. 28
**АЛИЕВА М.Т.**
Применение современных педагогических технологий в преподавании музыки ...................................................................... 33
**АГАЕВ Дж.Дж.**
Возможности использования народных песен на уроках музыки ....... 39

## ОБЩАЯ ПЕДАГОГИКА, ИСТОРИЯ ПЕДАГОГИКИ И ОБРАЗОВАНИЯ

**ГАРИБОВА А.Г.**
Роль и место литературы в восприятии музыки ................................... 46
**ИСМАЙЛОВА К.Г.**
Развитие художественного образования .............................................. 51
**АЛИХАНОВА Г.Г.**
Некоторые моменты проблемы восприятия и понимания людей ....... 57
**МАХМУДОВА А.Я.**
Психологические особенности развития в подростковом возрасте .... 64
**КЕРИМЗАДЕ Б.К.**
Умение слушать музыку и характеристики ее основных компонентов ........................................................................................... 70
**БАШИРОВ А.М.**
Музыка как средство развития ассоциативного мышления ................ 76
**ГАСЫМОВА Г.И.**
Изменение функций национальной специфики в культурно-историческом процессе ...................................................................... 82

**ТАБИБЗАДЕ Г.И.**
Психологические особенности периода младшего школьного возраста ........................................................................................ 90
**ВЕЛИЕВА Н.А.**
Воспитание эмоциональных чувств школьников на уроках музыки... 95

**МУЗЫКАЛЬНОЕ ИСКУССТВО**
**РАМАЗАНОВ Р., АЛИЕВ А.**
Некоторые аспекты правовой охраны музыкальных произведений в законодательстве Азербайджанской Республики .............................. 101
**НАСИРОВА-АХМЕДОВА Ф.И.**
Фортепианный сборник композитора Илахи Гисмет «Rəngli lövhələr» («Красочные картинки») ........................................................ 109

**Правила оформления статей**…………………………………...…. 120

# CONTENTS

## THEORY AND METHODS OF TRAINING AND EDUCATION (METHODS FOR TEACHING OF MUSIC)

**MAMMADOVA R.A.**
About methods for studying evolutionary processes in folk music………. 10
**RZAYEVA F.I.**
Educational functions of the musical and pedaqogical repertoire (Usinq the example of the cyclic work of Dzhevdet Qadzhiev)................. 20
**HIDAYATOVA F.Sh.**
Choir collective as a socio-cultural environment………………………… 28
**ALIYEVA M.T.**
Application of modern pedagogical technologies in music teaching…….. 33
**AGAYEV J.J.**
Possibilities of using folk songs in music lessons...................................... 39

## GENERAL PEDAGOGICS, HISTORY OF PEDAGOGICS AND EDUCATION

**GARIBOVA A.H.**
The role and place of literature in the perception of music……………… 46
**ISMAYILOVA K.G.**
Development of artistic education............................................................ 51
**ALIKHANOVA G.K.**
Some moments of the problem of perception and understanding of people........................................................................................................ 57
**MAHMUDOVA A.Y.**
Psychological features of development in adolescence…………………… 64
**KERIMZADE B.K.**
The ability to listen to music and the characteristics of its main components................................................................................................ 70
**BASHIROV A.M.**
Music as a means of developing associative thinking…………………….. 76
**GASIMOVA G.I.**
The evolving roles of national distinctivencess within the cultural-historical evolution……………………………………………………... 82
**TABIBZADE G.I.**
Psychological characteristics of the primary school period....................... 90

**VELIYEVA N.A.**
Education of emotional feelings of schoolchildren on the music lessons.... 95

**ART OF MUSIC**

**RAMAZANOV R., ALIYEV A.**
Some aspects of legal protection of musical works in the legislation of the Republic of Azerbaijan........................................................................... 101

**NASIROVA-AHMEDOVA F.I.**
A piano collection by composer Ilaha Gismet “Rəngli lövhələr” (“Colorful Pictures”)……………………………………………………… 109

**Rules**…………………………………………………………………… 120

# *TƏLİM VƏ TƏRBİYƏNİN NƏZƏRİYYƏSİ VƏ METODİKASI (MUSİQİNİN TƏDRİSİ METODİKASI)*

**UOT 372.8:78**

**R.A.Məmmədova**
AMEA-nın müxbir üzvü,
sənətşünaslıq doktoru, professor
AMEA Memarlıq və İncəsənət İnstitutu
AZ1073, Bakı ş., H.Cavid pr., 115
*E-mail:* renasarabskaya@mail.ru

## XALQ MUSİQİSİNDƏ TƏKAMÜL PROSESLƏRİNİN ÖYRƏNİLMƏ METODLARI HAQQINDA

***Açar sözlər:*** *formula, semantika, lad, intonasiya, təkamül*

Məqalədə xalq musiqisində təkamül proseslərinin öyrənilməsinin bəzi metodlarına baxılır. Verilən icmal görkəmli folklorşünas K.Kvitkanın “sadədən mürəkkəbə” ideyasına əsaslanır.

Müxtəlif türk musiqi materialında meloformulanın fəaliyyətinin öyrənilməsi musiqi mədəniyyətlərinin “sadədən mürəkkəbə” təkamülü dinamikasının qanunauyğunluğunu təsdiq edir. Türk mədəniyyətlərinin təkamülünün öyrənilməsi etnogenetik reallıqlar əsasında mümkündür.

Azərbaycan etnomusiqişünasları Azərbaycan musiqisinin “yaş qatlarının” müəyyənləşdirilməsi haqqında fikirlərdə heç də həmişə yekdil deyillər. Bununla yanaşı, Azərbaycan musiqisinin inkişafı, strukturun mobil və stabil elementləri təkamül qaydasının dəyişikliyilə əlaqədardır.

Nəzərdən keçirdiyimiz material etnomusiqişünaslığın tarixinə aiddir. Bu material etnomusiqişünaslığın dəyərli təcrübəsi olaraq, müasir Azərbaycan etnomusiqişünaslığının işləmələri üçün zəruridir.

Məqalədə xalq musiqisinin təkamülünün mərhələlərinin öyrənilməsinin mühümlüyü qeyd olunur.

**Р.А.Мамедова**

## О МЕТОДАХ ИЗУЧЕНИЯ ЭВОЛЮЦИОННЫХ ПРОЦЕССОВ В НАРОДНОЙ МУЗЫКЕ

***Ключевые слова:*** *формула, семантика, лад, интонация, эволюция*

В статье рассматриваются некоторые методы изучения эволюционных процессов в народной музыке. Данный обзор опирается на идеи выдающегося фольклориста К.Квитки «от теории простого к сложному».

Изучение активности мелоформулы в различном турецком музыкальном материале подтверждает закономерность динамики эволюции музыкальных культур «от простого к сложному». Изучение эволюции тюркских культур возможно на основе этногенетических реалий.

Азербайджанские этномузыковеды не всегда сходятся во мнении в определении «возрастных пластов» азербайджанской музыки. Кроме того, развитие азербайджанской музыки связано с изменением порядка эволюции мобильных и устойчивых элементов структуры.

Рассматриваемый нами материал относится к истории этномузыковедения и как ценный материал необходим для разработки современного азербайджанского этномузыковедения.

В статье подчеркивается важность изучения этапов эволюции народной музыки.

**R.A.Mammadova**

## ABOUT METHODS FOR STUDYING EVOLUTIONARY PROCESSES IN FOLK MUSIC

***Key words:*** *formula, semantics, tuning, intonation, evolution*

The article discusses some methods for studying evolutionary processes in folk music. This review is based on the ideas of the outstanding folklorist K.Kvitka “from the theory of simple to complex”.

The study of the activity of the meloformula in various Turkish musical material confirms the regularity of the evolution dynamics of musical cultures "from simple to complex". The study of the evolution of Turkish cultures is possible on the basis of ethnogenetic realities.

Azerbaijani ethnomusicologists do not always agree on the definition of "age layers" of Azerbaijani music. In addition, the development of Azerbaijani music is related to the change of the order of evolution of mobile and stable elements of the structure.

The material we are considering belongs to the history of ethnomusicology. This material, as a valuable experience of ethnomusicology, is necessary for the work of modern Azerbaijani ethnomusicology.

The article emphasizes the importance of studying the stages of evolution of folk music.

Musiqidə təkamül proseslərinin öyrənilməsinə dair müxtəlif nəzəriyyələr və yanaşmalar mövcuddur. Şübhəsiz ki, musiqi sənətinin mənşəyinə və inkişafına aid müxtəlif baxışlar da mövcuddur. Bu aspektdə görkəmli folklorşünaslara mənsub "sadədən mürəkkəbə" nəzəriyyəsi dəfələrlə tənqidə məruz qalmışdır. Bu məqalədə nəzəriyyənin xeyrinə olan bəzi arqumentləri göstərəcəyik.

Müxtəlif türk musiqi materialında meloformulanın fəaliyyətinin öyrənilməsi musiqi mədəniyyətlərinin "sadədən mürəkkəbə" təkamülü dinamikasının qanunauyğunluğunu təsdiq edir. Türk mədəniyyətlərinin təkamülünün öyrənilməsi etnogenetik reallıqlar əsasında mümkündür.

Etnomusiqişünasların fikrincə, musiqi nümunəsinin "yaşını" musiqi inkişafının dərəcəsi, həmçinin, lad ifadəsinin funksional dəqiqliyi və müəyyənliyi göstərə bilər. Bu aspektdə biz intonasiyanın daha ilkin xüsusiyyətlərini aşkarlaya bilən təhlilin üsulları ilə həmrəyik.

Alimlərin fikrincə, "müxtəlif xalqların musiqisi özünün bütün milli xüsusiyyətləri ilə bir sıra ümumi qanunauyğunluqlara tabedir. Guman etmək olar ki, bütün xalqların musiqisində diatonik ladların intonasiya quruluşu üç əsas yolla gedir: dayaq tonların sekundalı oxunması, melodiyada sıçrayış (ilk növbədə tersiya və kvarta) və sıçrayışın melodik doldurulması" [4, s.282].

Musiqi dilinin təkamülü haqqında elmi ideyaların qısa şərhini nəzərinizə çatdırım.

XX əsrin əvvəlində alimlərin musiqi dilinin təkamülü haqqında ideyalarına əsaslanaraq, onların məhsuldarlığını qeyd edim. Mənim fikrimcə, onların dahiyanə kəşfləri Azərbaycan musiqişünaslığında açılmamış və praktiki olaraq istifadə olunmamışdır, belə ki, XXI əsrin əvvəlində elm onlara lazım diqqət göstərməmişdir. Musiqi şərqşünaslığı sahəsində görkəmli mütəxəssis T.Canizadənin fikrincə, "sovet dövrünün musiqi tarixi üzrə müasir tədqiqatların çatızmazlığı problemi mövcuddur" [1, s.190]. Sovet nəzəri musiqişünaslığının tarixi üzrə də əlavə edim.

Demək lazımdır ki, Azərbaycan etnomusiqişünasları Azərbaycan musiqisinin "yaş qatlarının" müəyyənləşdirilməsi haqqında fikirlərdə heç də həmişə yekdil deyillər. Bununla yanaşı, Azərbaycan musiqisinin inkişafı, strukturun mobil və stabil elementləri təkamül qaydasının dəyişikliyilə əlaqədardır. Buna müvafiq olaraq analitik sxem qurulur:

1. Kiçik həcmli ladlar;
2. Kvartalı lad dairəsi;
3. Kvintalı lad dairəsi;
4. Artırılmış sekundalı ladlar.

Qeyd edək ki, türkdilli xalqların musiqi mədəniyyətinin öyrənilməsində oliqatonika mühüm əhəmiyyət daşıyır. Məhz oliqaton strukturların fəaliyyəti qədim musiqi mədəniyyətinin nümunələrini təhlil etməyə və müvafiq olaraq, genoformula sıraları haqqında danışmağa imkan yaradır. Belə ki, K.Kvitka hesab edirdi ki,

"oliqaqton səs sıralarını ibtidai dairələrə aid etmək lazımdır" [2, s.295].

Musiqi strukturunun qədim substratı kimi oliqatonika, şübhəsiz, etniküstü xarakterə malik ola bilər. Bununla yanaşı, melogenezin məlum etnodiffersiasiyasını göstərən müəyyən reallıqları mövcuddur. Oliqatonika, şübhəsiz, müxtəlif təbiətə, müxtəlif səs yüksəkliyi spesifikasına və s. malikdir. Biz oliqatonikanın funksional əhəmiyyətli məzmunluğu ilə bağlı fikir söyləməyə imkan verən materiala əsaslanırıq. Oliqatonikanın məşhur müasir "ladakustik sahələr" (Y.M.Alkon) nəzəriyyəsini buraxıb, lakin onun əsas vektorlarını nəzərə almaqla biz aydın funksional parametrlərə malik Azərbaycan lad sisteminin kateqoriyalarına əsaslanacağıq. Lakin qeyd edək ki, söhbət "ladakustik sahələr" nəzəriyyəsi kontekstində oliqatonikanın mümkün ladfunksional əsaslarından gedir. Aşağıdakı sitatı təqdim edirəm: "Qeyd etmək vacibdir ki, "dah çox" və ya "daha az" ladakustik sahələr "dayaq" və "qeyri-dayaqlar" kimi lad funksiyalarını göstərir və lad cazibəsilə əlaqədardırlar" (Alkon, s. 82). Beləliklə, bildirmək lazımdır ki, kiçik həcmli səs sıralarına əsaslanan musiqi nümunələrində ladın əsası kimi səs yüksəkliyi sabitliyi durur.

Tədqiqatçıların fikrincə, lad semantikası oliqatonikanın səs mərkəzinin müəyyənləşdirilməsində həlledici rol oynayır. Əgər Azərbaycan ladlarının etosunu təhlilə daxil etsək, onda genoformula sırasının identifikasiyaları, şübhəsiz, daha aydın bilinər. Bu mənada, dinləyici qavrayışına qısa darhəcmli modellərin sabit təsiri sayəsində oliqaton strukturlar konsentrasiyasını onların suggestiya dərəcəsi də müəyyənləşdirən struktura malikdirlər. Bu mənada oliqaton melointonasiyaların müəyyən mənayaradan funksiyaları mövcuddur. Belə ki, oliqatonikanın "lad akustik sahələri" haqqında Y.M.Alkonun irəli sürdüyü ideyanı Azərbaycan lad sisteminin meloformulaları ilə identifikasiyası mümkündür.

Şübhəsiz, informasiya dəyərinə malik olan müddəaları istifadə etməkdən öncə, bu və ya digər mənbəyin determinantlarına seçimlə yanaşmaq lazımdır. Y.M.Lotman yazırdı ki, mənbələrə "sabit kimi istifadəsindən əvvəl deşifrəyə, özünəməxsus dekodlaşmaya ehtiyaçı olan" mətnlər kimi yanaşmaq lazımdır [3, s. 125].

XIX əsrin sonu – XX əsrin əvvəlləri Avropanın aparıcı etnomusiqişünaslarının musiqinin təzahürlərinin ilkin formaları haqqında ideyaları K.Kvitka özünün "İbtidai səssıraları" elmi əsərində təhlil etmişdir. K.Kvitka alimlərin çoxsaylı əsərlərini nümunə göstərir, bunların arasında Q.Riman. A.Gelmqolts, A.Famintsin, E.Xoribostel, Q.Adler, K.Zaks, Ç.Vid, T.Uilson, R.Vallaşek, K.Ştumf, L.Landri, Q.Porri, E.Eqqen, C.Roubosm, R.Lax, F.Torrefrank, Q.Qrey, M.Portman, A.Ellis və başqaları.

Bizim nəzərdən keçirdiyimiz material etnomusiqişünaslığın tarixinə aiddir. Bu material etnomusiqişünaslığın dəyərli təcrübəsi olaraq, müasir Azərbaycan etnomusiqişünaslığının işləmələri üçün zəruridir. Belə ki, slovakiyalı musiqişünas A.Elşekova özünün "Slovyan xalq musiqisində lad sistemlərinin qədim struktur

formaları" məqaləsində tam haqlı olaraq hesab edir ki, bi-, tri-, və tetraxord səs sıralarında qurulan melodiyalar slavyan musiqi mədəniyyətinin qədim mərhələsinin reliktləridir" [2, s. 277].

Oliqaton diatonik sıraları, xüsusən, tetraxordları K.Kvitka "müstəqil, həyat qabiliyyətli və qədim lad sistemi" hesab edirdi [2, s. 275]. Bundan əlavə, oliqaton strukturların təşkilində funksional əlaqələrin mühümlüyünü qeyd edirdi. Oliqatonikanın qəbuledilməz etinasızlığı haqqında K.Kvitka yazırdı:"Mən hesab edirəm ki, biz... ən kiçik tonal həcmli melodik tipləri ən qədim kimi tanımalıyıq" [2, s. 273]. K.Kvitkanın əsərlərinə olan şərhlərində B.L.Qoşovski qeyd edirdi ki, "musiqi təfəkkürünün bu mərhələsinin öyrənilməsinin bugünkü mövcud vəziyyətdə K.Kvitkanın qədim diatonik trixord lad sisteminni mövcudluğu haqqında təklifləri öz təsdiqini tapmışdır" [2, s. 275].

XIX əsrin sonu – XX əsrin əvvəlində alimlər hesab edirdi ki, tarixi təkamül sxemi kontekstinə mütləq ilkin folklor intonasiyanın melodik nümunələrini daxil etmək lazımdır. Şübhəsiz, müasir elmdə bu nəzəriyyənin müxalifləri də mövcuddur, lakin eyni zamanda, geniş materialda onu inkar edən elmi əsərlər də yoxdur. "Sadədən mürəkkəbə" konsepsiyasının əsas vektorunu nəzərə alacağıq – musiqi folklorunun ən ilkin nümunələri dar səs diapazonu ilə məhdudlaşırlar. Əlamətdar haldır ki, etnomusiqişünaslar oliqatonikanın musiqi nümunələrini nəzərdən keçirərkən onları tonal cəhətdən yetişmiş hesab edirdilər. Görkəmli etnomusiqişünasların əsərlərində bu və ya digər regionun musiqi folklorunun təhlili prosesində aşkarlanan sabit melodik tiplər dəfələrlə xarakterizə edilirdi. Diapazonu, diapazonun intervalını və tamamlayıcı dayağı göstərmək kifayət idi.

K.Kvitka hesab edirdi ki, musiqi folklorunun genetik sistemləşdirilməsi vacibdir. Daha sonra V.L.Qoşovskinin arxetip, İ.Zemnsovskinin formulluq nəzəriyyəsi aparıcı termini ilə musiqi slavyanşünaslığı kimi cərəyan meydana çıxdı.

K.Kvitkanın konsepsiyasının şərhi, XIX əsrin sonu-XX əsrin əvvəllərində Avropa və Rusiya aparıcı etnomusiqişünaslarının fikirlərinə müraciət, qədim lad sistemlərinin müasir tədqiqatlarına əsaslanma musiqi sənətinin əsrlər ərzində bir neçə vektor üzrə təkamül keçdiyini deməyə imkan verir. Belə ki, bir tərəfdən, ilkin impulsların özünüinkişafı, audentik ənənələrin formalaşması prosesi mövcud idi. Digər tərəfdən, intonasiyalı muisiqi materialı ilə qarşılıqlı təsir nəticəsində lokal mədəniyyətin zənginləşməsi baş verirdi.

Mənbələrin öyrənilməsi təsdiq etməyə imkan verir ki, təhlilin funksional-müqayisəli aspekti təkamülün musiqi-nəzəri orta əsrlər elminin yazılı mənbələrinin öyrənilməsi vasitəsilə baxılmasına və türkdilli mədəniyyətlərin bu və ya digər identifikasiyalarının izah edilməsinə imkan yaradır.

XX əsrin əvvəlində nəzəri və tarixi etnomusiqişünaslıq tarixində musiqinin qədim qatlarının öyrənilməsinin bəzi metodlarını nəzərdən keçirərkən, qeyd edək ki, K.Kvitkanın fikrincə, "tədqiqatçılar musiqi təkamülünün erkən mərhələlərinin

sirrini bilməyə cəhd edərkən aşağıdakı metodlardan istifadə.... edirlər:

1. qədim dövrlərdə musiqi-nəzəri ədəbiyyatı olan xalqların yazılı abidələrinin öyrənilməsi;

2. unkişafın ən aşağı pillələrində duran xalqların musiqisi və mədəni-inkişaf etmiş xalqların konservativ təbəqələrinin musiqisinin müqayisəli öyrənilməsi;

3. musiqi-filogenetik paralellərin tədqiqi;

4. mətnləri və funksiyaları onların qədim mənşəyə aid olduğunu bildirən mahnı havalarının öyrənilməsi” [2, s. 218].

Müvafiq olaraq Azərbaycan xalq musiqisinin təkamülünün öyrənilməsinin zəruri materialı bunlardır:

1. mərasim musiqi mədəniyyəti;

2. uşaq, ana folkloru;

3. onto- və filogenez məlumatlarının istifadəsi;

4. dar diapazonun dəyişilməsinin üstünlüyü ilə musiqi nümunələrinə əsaslanma;

5. Azərbaycan tarixinin orta əsrlər dövrünün musiqi elmi üzrə yazılı mənbələri.

Diqqət yetirək ki, janr sistemi – Azərbaycan musiqisinin təkamülü deyil, bu, Azərbaycan xalq musiqisində fəaliyyət göstərən özündə müəyyən mərhələli aspekt daşıyan janr morfoloji sistemidir. Beləliklə, bir tərəfdən, erkən folklor intonasiyanı əks etdirən mərasim musiqisi və digər tərəfdən, şifahi ənənəli professional musiqi.

K.Kvitkanın əsərlərinə müraciət onların təkcə etnomusiqişünaslıq tarixində əhəmiyyətilə şərtlənmir. Azərbaycan etnomusiqişünaslığında K.Kvitkanın əsərləri təhlil edilmirdi və Azərbaycan musiqişünaslarının əsərlərində metodoloji əsasların təməli deyildi. K.Kvitkanın “İbtidai səs sıraları” adlı təkcə bir əsərini şərh edərək V.L.Qoşovski yazırdı: “Musiqişünaslıq ədəbiyyatında tarı bərabəri olmayan Kvitkanın əsəri Sovet İttifaqı hüdudlarından kənarda naməlum qaldı, sovet musiqişünaslarının çoxu isə ona qarşı tam etinasızlıq göstərdi. Buna baxmayaraq, “İbtidai səs sıraları” – qədim lad sistemlərinin tədqiqatı sahəsində həm metodologiya, həm də materialın tənqidi əhatəsi nöqteyi-nəzərindən dönüş nöqtəsidir. Bu – Avropa ölkələrində elmi fikrin inkişafını 30 ildən qabaq təxmin edən dünya elminin görkəmli nailiyyətidir” [2, s. 276].

K.Kvitkanın fikrincə, Qərbi Avropa musiqi elmində aşağıdakı təkamül zənciri müəyyən edilmişdi:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| c - f | | c-d-f | | c-d-f-g | | c-d-f-g-a |
| birinci | - | ikinci | - | üçüncü | - | dördüncü |
| mərhələ | - | mərhələ | - | mərhələ | - | mərhələ |

V.L.Qoşovski nümunə gətirir: “Oliqaton, diatonik sıraları, xüsusən, trixordları K.Kvitka “müstəqil, həyat qabiliyyətli və qədim lad sistemi” hesab

edirdi [2, s. 275]. Bundan əlavə, K.Kvitka trixordların təşkilində funksional əlaqələrin əhəmiyyətini qeyd edirdi. Verilən kontekstdə bu vacibdir, belə ki, genoformula sıralarının təhlili funksional-müqayisəli aspektə əsaslanır.

Əlbəttə, bu və ya digər oxşarlığa və ya fərqliliyə aydınlıq gətirmək olduqca çətindir. Bununla yanaşı, bir tərəfdən, mərhələli təkamülün öyrənilməsi, digər tərəfdən, orta əsrlər musiqi-nəzəri elmin yazılı mənbələrinin öyrənilməsi türkdilli mədəniyyətlərin bu və ya digər identifikasiyalarını izah etməyə kömək edər.

Xalq musiqisinin təkamülü konsepsiyasını tədqiq edən K.Kvitka müxtəlif tədqiqat "versiyaları" irəli sürür. Belə, T.Uilson "tarixdən öncəki incəsənət" əsərində paleolit fleyta nümunələri əsasında - h –c- cis- d- dis səssırasını ortaya çıxartdı. Lakin bunun ətrafındakı müzakirələr kifayət qədər maraqlı idi. Belə ki, Ç.K.Vidin fikrincə, fleytalar üzərindəki dəliklər yalnız öz dekorativ əhəmiyyəti ilə şərtləndirilirdi K.Kvitka da buna meyl edərək hesab edirdi ki, "İbtidai usta öz alətində məhz hansı intervalları əldə edəcəyi üçün narahat olmurdu; ona müxtəlif səslərin mövcudluğu zövq verirdi və o, konsonantlıq prinsiplərinə diqqət yetirirdi" [2, s.221]. K.Ştumf da eyni fikirdə idi. Bu aspektdə K.Kvitka L.Landrinin fərziyyəsini göstərir, burada ilkin səslər instrumental musiqi kontekstində aşağıdakı kimi paylaşırdı:

Birinci sıra a – d - A
İkinci sıra a -e - c - A
Üçüncü sıra a - f - d -H - A
"Birinci ilə ikincini kombinasiya etdikdə -
(4) a - e - d - c -A
İkinci ilə üçüncünü birləşdirsək -
(5) a - f - e - d - c - H - A alarıq" [2, s.222].
Olimp tetraxordu a - f - e

"Landri metodu ilə alınan anqemiton-pentaton qamma tipini belə təsəvvür etmək olar: A-c –d – e – g –a, bu, Ukrayna xalq musiqisində digər tiplərdən daha çox yayılmışdır və xorvatların xalq musiqisində daha parlaq əksini tapmışdır" [2, s. 223].

Musiqi təfəkkürü üzrə nəticələrin antik yunan musiqisinin xüsusiyyətlərinə əsaslanan Q.Perrinin fikrincə, "Kvarta ən qədim və universal intervaldır" [2, s.223]. P.Landrinin ardınca K.Kvitka anqemiton – pentaton sistemin "şübhəsiz, qədim sistem olduğu, lakin ən primitiv olmadığı" ilə razılaşır [2, s.223].

Bu qamma belə idi:
a - c - d - e - g - a

K.Kvitkanın istinad etdiyi müəlliflər həm də musiqinin akustik xüsusiyyətlərini öyrənən fiziklər idi. Onlardan çoxu qədim yunan musiqi nəzəriyyəsinə əsaslanırdılar. Lakin burada da təkamül nöqteyi-nəzəri üstünlük təşkil edirdi. Məsələn, Olimp tetraxordunun formalaşması haqqında aşağıdakılar məlumdur. Birincisi, qədim yunan ladları enən istiqamətdə qurulurdu; ikincisi,

müvafiq olaraq aparıcı ton tonikaya üst aparıcı ton funksiyası daşıyırdı. Üçüncüsü, əsas və başlanğıc interval kvarta hesab edilirdi. Beləliklə, a – e tetraxordunda f aparıcı tonu zaman keçdikcə formul əhəmiyyəti kəsb etdi və Olimp tetraxordu a –f – e səslərinin ardıcıllığı kimi yarandı. Qərbi Avropa alimlərinin ideyaları K.Kvitka tərəfindən ardıcıl surətdə baxılırdı.

Belə ki, Con Roubosm iddia edirdi ki, ladın təkamülü sekundadan tersiyaya qədər diapazonun tədricən əhatə olunması ilə – oliqatonikaya əsaslanır. Polineziyanın səs aləmini təsdiq edərək Q.Qrey hesab edirdi ki, oliqatonika musiqi başlanğıcının təkamülünün ilkin mərhələlərinə məxsusdur. Oskar Fleyşer a – h – c oliqatonikasını professional hind müğənnilərinin *atxar-vedusunda* bildirirdi. a – h – c oliqaton ardıcıllığı etnomusiqişünaslar müxtəlif xalqlarda və kontinentlərdə qeydə alırdılar [2, s.25].

Göründüyü kimi, kiçik tersiya səs sırasının coğrafiyası Britaniya Kolumbiyasından (Kanada), Seylondan, Hindistandan tutmuş monqol xalqlarının finn-utrlorınadək bütün dünya xalqlarını əhatə edir.

XIX əsrin sonu – XX əsrin əvvəllərində tədqiqatların əsası ilkin folklor oxumadan başqa tarixin qədim, orta əsrlər dövrünün alətlərinin öyrənilməsi olan etnomusiqişünaslığa artan marağa görə hesab edirdilər ki, temperasiyalı quruluşda fiksasiya edilən, tonometrik ölçülərə müraciət olunmayan səs sıralarına əsaslanmaq qanunauyğundur və məqsədrönlüdür.

F.Torrefrankın ideyaları K.Kvitkanın ideyalarına yaxın idi: "... ibtidai insan çoxlu musiqi səslərini fərqləndirə bilmirdi... öz musiqi inkişafının ilkin mərhələsində insanlar bir-birindən böyük olmayan məsafədə yerləşən yalnız iki səslə məhdudlaşırdılar, belə ki, onlara bütöv tonun intervalını təyin etmək asan idi. Böyük intervalları onlar kiçik pilləli gedişlərlə və ya sürüşən səslə əldə edirdilər" [2, s.227].

K.Kvitka F.Torrefrankın inkişafın sonrakı pilləsi haqqında fikirlərini göstərir, o, bunları kvinta intervalının meydana gəlməsi ilə əlaqələndirir. XIX-XX əsrlərin mütəxəssisləri arasında pentatonikaya dair müzakirələr məlum idi, bunlar mövqenlərin aydınlığı, arqumentasiyaların dəqiqliyi, fikir müxtəlifliyi ilə fərqlənirdi. Musiqi sisteminin təkamülü problemləri təkcə akustikləri deyil, filosofları da maraqlandırırdı. Belə ki, məşhur sosioliq Maks Veber "Musiqinin rasional və sosioloji əsasları" əsərində hesab edirdi ki, pentatonika həm də xurafat və ya rasional səbəblərə görə ondan imtina edilməsi faktı üzrə spesifikdir. Alim öz həmkarlarından fərqli olaraq hesab edirdi ki, pentatonika - hər şeydən öncə, rasional təfəkkürün məhsuludur və qədim ladlara aid edilə bilməz. 1922-ci ildə musiqi sənətinin əsaslarını öyrənən alman alimi A.Ellis müxtəlif xalqların musiqisinin müqayisəli təhlilini nəzərə alaraq hesab edirdi ki, strukturun pentatonikası o demək deyil ki, bu və ya digər xalqın musiqisində yarımtonlar yoxdur.

İnterval determinantlarının universallıqlarını tədqiq edərək K.Kvitka qeyd

edirdi: “Etiraf etməliyik ki, eksperimental fonetikanın topladığı material yüksələn intonasiyalarda kvinta intervalının universal üstünlüyünü göstərir. Kadensiyalarda kvartanın üstünlüyünün təsdiqinə gəlincə, onun müdafiəsi üçün indi də kifayət qədər arqument tapmaq olar” [2, s.239].

Kurt Zaks bizim eradan əvvəl birinci minilliyin başlanğıcına aid resursdan mixiyazı cədvəlini deşifrələmişdir. “Görülmüş iş nəticəsində o, belə bir nəticəyə gəlir ki, qeyd edilən zaman Assuriya-Babilistanda pentatonika təkcə tam formalaşmamışdır, həm də diatonikanın, hətta xromatizmin mutasiyası üçün istifadə olunaraq xeyli irəliləmişdir” [2, s. 244].

Kurt Zaksın əsərlərində lad sistemi kimi pentatonikanın ilkinliyi baxışını təsdiqləyən müxtəlif mənbələr verilirdi. Lakin K.Kvitka hesab edirdi ki, “yarımtonsuz pentatonika mərhələsinin müasir diatonikadan əvvəl gəlməsi vəziyyəti təkcə universal həcmdə deyil, həm də K.Zaksın tarixilə xüsusi məşğul olduğu qədim Şərq sivilizasiya xalqlarında da təsdiqini tapmamış qaldı” [2, s.245]. A.İdelsonun Babilistan və Yəmən yahudələrinin müasir sinaqoq havalarının qeydlərində K.Zaks həmçinin, pentatonika əsaslarını görürdü.

Pentatonikanın ilkinliyi, qədimliyi barədə K.Kvitkanın Qərbi Avropa alimləri ilə mübahisəsi qısa formada aşağıda göstərilir. Qədim yunan musiqisinin pentatonika xarakterinə dair Q.Rimanın fərziyyəsini və K.Zaksın arqumentlərini yada salım: “... lakin bu, kifayət deyil ki, pentatonikanı yunanların müstəsna vı ya ən qədim sistemi kimi tanıyaq. Sonra K.Kvitka aşağıdakı məlumatı verir: “... qədim xristian melodiyasında pentatonika elementləri Peter Vaqner tərəfindən tənqidə məruz qalmışdır. Sonuncu hesab edir ki, yeddi pilləli diatonika qədim xristian musiqisini daha qədim beşpilləli sistemin zənginləşməsi yolu ilə deyil, daha zəngin xromatizmin ixtisarı yolu ilə mənimsəmişdir” [2, s. 219].

Musiqi mədəniyyəti təkamülünün müxtəlif aspektləri şübhəsiz, maraq doğurur. Belə ki, psixoloq K.Büler belə bir nəzəriyyəyə tərəfdar idi ki, musiqi məsələlərində tarixi-təkamül nöqteyi-nəzərindən “uşaqlarımızın mənəvi inkişafı olan ən yaxşı xəzinəmizin tarixdən əvvəlki tədqiqatlarından imtina etmək vaxtından tez olardı. Biz artıq indi görürük ki, uşaqlarımızın dilində və şəkillərdə xarici təsirdən asılı olmayaraq, mənəvi tərəqqinin müəyyən qanunları görünür, yəqin ki, bunları da bəşəriyyətin tarixəqədərki inkişafı bənzər şəkildə yönəldirdi” [2, s.229]. Alim bu fikri musiqi sənətinin inkişafına da ekstradisiya edirdi.

Tədqiqatçıların coğrafi diapazonları maraqlıdır. 1917-ci ildə X.Verner 2-dən 4 yaşınadək olan uşaqların oxumasını yazmışdır, o, bildirirdi ki, motivlər ton və ya bütöv ton həcmində idi. “E.Felger hind dini-fəlsəfi əsər Bxavadgita melodiyasında e – g - a yarımtonsuz səs sırasını görüb bildirdi ki, bu səs sırası müxtəlif xalqların reçitativ havalarına məxsusdur, alman uşaq mahnısında da (“*Backe, backe Kuchen*”) və ərəb mahnısında da rast gəlinir [2, s.230]. Bununla yanaşı, K.Kvitkanın bu metoda aid fikri kifayət qədər qəti idi. O, yazırdı: “qədim abidələrdə və ya mədəni cəhətdən geri qalmış xalqların müasir musiqisində bizim

tapdığımız hallara, əgər uşaq mahnılarında rast gəlinirsə, onları onto-filogenezdə təzahür edən inkişafın ümumi qanunu xeyrinə arqument hesab etmək vacib deyil. Otno-filogenetik paralelizmdən digər qaydalı vəziyyəti – uşaq mühiti konservatizmini fərqləndirmək lazımdır, bu - yaşlı insanlar arasında mövcudluğu dayanmış çox şey musiqi sahəsində qorunub saxlanılır. Bu mühitdə nə isə köhnənin qorunub saxlanılması o demək deyil ki, bu "köhnə" ən "qədimdir" [2, s. 230].

Şərhimizi tamamlayaraq qeyd edək ki, təkamül proseslərinin əsasında adaptasiya mexanizmi durur. Əgər adaptasiya mexanizmlərindən biri kimi meqaformulanı əsas olaraq qəbul etsək, onda demək olar ki, türk xalqlarının musiqisində təkamüllü inkişaf çoxsaylı regional və etnogenetik dəyişikliklərə cavab verən hər hansı tənzimləyiciyə malik idi. Bu zaman genetik yaddaş dərin köklü xüsusiyyətləri qoruyub saxlayır, regional meyllər isə türk dünyası kontekstində əsas musiqi tiplərinin variantları qismində iştirak edir. Türkdilli xalqların musiqi tarixi təkcə türk dünyasının musiqi mədəniyyətinin milli özünəməxsusluğunu deyil, həm də onu vahid bütövdə birləşdirən mövcud universallıqları göstərir. Bu zaman nəzərə almalıyıq ki, musiqi sistemi - bu və ya digər musiqi mədəniyyətinin spesifikasını işarələyən kodlaşdırılmış elementlərin məcmusudur.

## ƏDƏBİYYAT

1. Джанизаде Т. Азербайджанский мугам и наследие исламской цивилизации в эпоху страны Советов // Azərbaycan etnomusiqişünaslığı 1921-2021 illər. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illik yubileyi münasibətilə. Bakı: "OL" MMC mətbəəsi, 2021, s.186-202.
2. Квитка К.В. Избранные труды в двух томах. Т 1. Москва: Советский композитор, 1971. 384 с.
3. Лотман Ю.М. К вопросу об источниковедческом значении высказываний иностранцев о России. В кн.: Сравнительное изучение литератур. Ленинград: Наука, 1979.
4. Махмудова Г.Р. Генезис и эволюция остинатности в азербайджанской музыке. Баку: Нурлан, 2006. 434 с.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 28.04.2024**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.06.2024**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.06.2024**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2024, **s.20-27**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2024, **с. 20-27**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2024, **p. 20-27**

**UOT 372.8:78**

**F.İ.Rzayeva**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail:* firangiz-rzayeva@mail.ru

# MUSİQİ-PEDAQOJİ REPERTUARIN TƏRBİYƏVİ FUNKSİYALARI
## (Cövdət Hacıyevin silsilə mahiyyətli əsəri əsasında)

***Açar sözlər:*** *musiqi mədəniyyəti, musiqi-pedaqoji repertuar, fortepiano ifaçılığı, musiqi müəllimi*

Məqalədə qeyd olunur ki, bədii əsərlərin təsiri şəxsiyyətin mənəvi maraqlarının əks olunmasında özünü aydın nümayiş etdirir və təfəkkürün müəyyən obrazlılığında təsdiq olunur. Bu halda musiqi sənətinə xüsusi yer ayrılır. Musiqi-pedaqoji repertuar tərbiyəedici funksiya əldə edir, şəxsiyyətin mənəvi maraqlarının formalaşmasına təsir edir. Müasir musiqi təhsili prosesində milli repertuar böyük əhəmiyyət kəsb edir. Nümunə olaraq bəstəkar C.Hacıyevin silsilə mahiyyətli "Musiqi lövhələri" əsərindən miniatürlar təqdim olunur. Pedaqoji repertuar gələcək musiqi müəlliminin yaradıcı maraqlarının istiqamətlənməsinə təsir edir, şəxsiyyətin daxili mənəvi, milli və dünyəvi mədəniyyətlər ilə əlaqələrini təsdiq edir.

Pedaqoji repertuar gələcək musiqi müəlliminin yaradıcı maraqlarının istiqamətlənməsinə təsir edərək (həm professional ifaçı, həm də musiqi müəlliminin) şəxsiyyətin daxili mənəvi əlaqələrini milli və dünyəvi mədəniyyətlərlə əlaqəsini təsdiq edir. Musiqi-pedaqoji repertuarın formalaşmasının qanunauyğunluqlarının tərbiyəedici funksiyalarının həyata keçirilməsinin öyrənilməsi elmi nöqteyi-nəzərdən əsaslanmış metodiki göstərişlərin verilməsinə imkan yaradacaq.

**Ф.И.Рзаева**

# ВОСПИТАТЕЛЬНЫЕ ФУНКЦИИ МУЗЫКАЛЬНО-ПЕДАГОГИЧЕСКОГО РЕПЕРТУАРА
## (на примере циклического произведения Джевдета Гаджиева)

***Ключевые слова:*** *музыкальная культура, музыкально-педагогический репертуар, фортепианное исполнительство, педагог музыки*

В статье отмечается значительное влияние художественных произведений на развитие духовных интересов личности и утверждается определённым образным строем мышления. Музыкальному искусству здесь принадлежит особая роль. Музыкально-педагогический репертуар приобретает воспитательные функции, влияя на процесс формирования духовных интересов личности. В процессе современного музыкального образования национальный репертуар имеет большое значение. Как пример представляются миниатюры из циклического произведения Джевдета Гаджиева «Musiqi lövhələri”. Педагогический репертуар воздействует на творческие интересы будущего педагога музыки. А также утверждает личностные духовные связи с национальными и мировыми культурами.

Педагогический репертуар влияет на направленность творческих интересов будущего учителя музыки (как профессионального исполнителя, так и учителя музыки) и подтверждает связь внутренних духовных связей личности с национальной и мировой культурой. Изучение реализации воспитательной функции закономерностей формирования музыкально-педагогического репертуара позволит дать методические указания, основанные на научной точке зрения.

**F.I.Rzayeva**

## EDUCATIONAL FUNCTIONS OF THE MUSICAL AND PEDAQOGICAL REPERTOIRE
## (Usinq the example of the cyclic work of Dzhevdet Qadzhiev)

***Key words:*** *musical culture, musical and pedagogical repertoire, piano performance, music teacher*

The article notes the significant influence the works of art on the development of the spiritual interests of the individual and affirms a certain figurative system of thinking. Musical art has a special role here. The musical and pedagogical repertoire acquires educational functions, influencing the process of formation of the spiritual interests of the individual. In the process of modern music education, the national repertoire is of a great importance. As an example, miniatures from the cyclic work of Dzhevdet Qadzhiev “Musiqi lövhələri” are presented. The pedagogical repertoire influences the creative interests of the future music teacher. It also affirms personal spiritual connections with national and world cultures.

Pedagogical repertoire affects the direction of the creative interests of the future music teacher (both a professional performer and a music teacher) and confirms the connection of the inner spiritual relations of the personality with

national and world cultures. The study of the implementation of the educational functions of the regularities of the formation of the musical-pedagogical repertoire will enable the provision of methodical instructions based on a scientific point of view.

Müasir dövrdə gənc nəslin şəxsiyyət olaraq formalaşması prosesinin incəsənət ilə sıx əlaqədə olması məlum faktdır. İlk növbədə, incəsənətin imkanları haqqında danışarkən, qeyd etməliyik ki, bədii əsərlərin təsiri şəxsiyyətin mənəvi maraqlarının əks olunmasında özünü aydın nümayiş etdirir və təfəkkürün müəyyən obrazlılığında təsdiq olunur. Sonunucu ancaq şəxsiyyətin estetik mövqeyinin formalaşması ilə deyil, eyni zamanda, insanın etik, əxlaqi görüşləri ilə də əlaqəlidir. Bu problemə daha geniş yanaşdıqda isə onun sosial-siyasi, ideoloji dünyagörüşü ilə əlaqəli olduğunu qeyd edə bilərik. İncəsənət bu halda həyatın tədqiqi, daha geniş vasitəçilik etmiş formada öyrənilməsi kimi çıxış edir. Lakin bu halda incəsənət ilə əlaqədə təqdim olunan tərbiyəvi effekt heç də azalmır, əksinə daha əhəmiyyətli dərəcədə bədii xasiyyətnamələrin obrazlılığı sayəsində güclənir.

Bu halda musiqi sənətinə xüsusi yer ayrılır. Bu hal, ən əvvəl, onun müasir cəmiyyətdə yayılmasının geniş əhatəliliyi ilə əlaqəlidir. Müasir zamanda musiqi mədəniyyətinin yayılması bir sıra yaradılmış kommunikativ strukturlar vasitəsi ilə baş verir.Onlar cəmində musiqi-ictimai kanallar sistemini yaradır. Bu sistemdə musiqi təhsilinə xüsusi sosial rol ayrılır. İlk növbədə, onu təhsilli – tərbiyəvi və ya pedaqoji kimi xarakterizə etmək lazımdır.

Gələcək musiqi müəllimlərinin tərbiyəsi prosesində bütöv bədii oriyentasiya istehsalı böyük əhəmiyyət kəsb edir. Bu əsasən, ancaq, məktəblilərin fəaliyyətinə aid olan, onların potensial musiqi dinləyicisi olaraq tərbiyəsində deyil, eyni zamanda peşəkar musiqiçinin formalaşması prosesində də böyük əhəmiyyət kəsb edir. İlk növbədə, musiqi təhsili çərçivəsində keçirilən konkret repertuar siyasətindən asılıdır.

Musiqi təhsili sistemi musiqi sənətinin yayılmasının funksiyalarının yerinə yetirilməsi ilə bilavasitə bağlıdır və onun fəaliyyətinin müasir cəmiyyətdə maarifçi istiqaməti ilə təzahür edir. Beləliklə, musiqi – pedaqoji repertuar tərbiyəedici funksiya əldə edir və çox, və ya az dərəcədə fəallığı ilə şəxsiyyətin mənəvi maraqlarının formalaşmasına, onun daxili əlaqələrinin milli və dünyəvi musiqi mədəniyyəti ilə təsdiq olunmasına təsir edir.

Musiqi-pedaqoji repertuarın öyrənilməsi fortepiano ifaçılığı metgodikası kursunun mühüm bölümünü təşkil edir. Tədris repertuarının vacibliyi, ondan baş çıxarmaq, bədii və metodik zənginliyini müəyyən etmək, digər əsərin ifaçılıq mürəkkəbliyini müəyyən etmək musiqi müəlliminin zəruri, mühüm keyfiyyətlərindəndir.

Müasir musiqi təhsili prosesində milli repertuar böyük əhəmiyyət kəsb edir. Bu da, öz növbəsində, prosesi intensifləşdirmək və onu daha effektiv etməyə imkan yaradlr.

Qeyd etdiyimiz istiqamətdə solfecio fənni tədrisində milli material əsasında musiqi eşitmə qabiliyyətinin tərbiyəsi yardım edir. Milli repertuarın istifadə olunması onun öyrənilməsini aktual edir.

Yuxarıda qeyd olunan fikirlərə əsaslanaraq, məqalədə bəstəkar Cövdət Hacıyevin fortepiano yaradıcılığında əhəmiyyətli yer tutan və gənclərə həsr etdiyi "Musiqi lövhələri" adlı silsiləsi nəzərdən keçirilir.

Milli fortepiano musiqisinin təkamülü və inkişafı yolu Azərbaycanın ən dəyərli simalarının, bəstəkarlarının isimləri ilə bağlıdır. Onlar sırasında görkəmli azərbaycan bəstəkarı Cövdət Hacıyevin bu sahədə olan yaradıcılıq fəaliyyətini də qeyd etməliyik. Əgər görkəmli azərbaycan bəsətəkarı Qara Qarayevin yaradıcılığında fortepiano aləti onun daim diqqət mərkəzində olurdusa (demək olar ki, hər onillikdə Q.Qarayevin yaradıcılıq tərcümeyi-halında fortepiano repertuarından olan əsərlərin meydana gəlməsi ilə qeyd olunur), əksinə, Cövdət Hacıyev bu musiqiyə yaradıcılığının müəyyən dövrlərində müraciət etmişdir. Bu da bəstəkarın daha iri musiqi formalarına, ən əvvəl, simfoniyalara olan professional marağı ilə əlaqəli idi. Lakin iri həcmli, fundamental lövhələrə canatan yaradıcı olaraq Cövdət Hacıyev, eyni zamanda, fortepiano musiqisi janrlarına böyük məsuliyyət və ciddiliklə yanaşır, ifaçıların konsert, pedaqoji repertuarına daxil olan dəyərli, əhəmiyyətli fortepiano əsərləri yaratmışdır.

Cövdət Hacıyevin bəstəkarlıq fəaliyyətinin ilk nümunələri 30-cı illərin ortalarında yaranaraq fortepiano yaradıcılığı ilə əlaqəlidir. Bu fortepiano "Fantazıyası" və professor L.Rudolfun sinfində oxuduğu illərdə yazdığı "Prelyudiyalar" silsiləsidir. Məlumdur ki, sonralar C.Hacıyev təhsilini Moskva Konservatoriyasında A.Aleksandrovun, daha sonra isə görkəmli bəstəkar D.Şostakoviçin sinfində davam etdirmişdir.Erkən əsərlərinin ifaçılıq təcrübəsində geniş tətbiqini tapmamasına baxmayaraq, onlar gələcəkdə əsas fortepiano əsərlərinin yaranmasında ilk "addım" oldular. Bunlardan Ballada, Sonata, Skertso və gənc ifaçılar üçün nəzərdə tutulan "Musiqi lövhələri" adlanan fortepiano silsiləsini qeyd edə bilərik. Repertuarda olan böyüklər üçün yaranmış əsərlər 50-ci illər dövründə bəstələniblər. Azərbaycan professional musiqi mədəniyyəti o dövr üçün praktik olaraq musiqi sənətinin bütün sahə və janrlarında əhəmiyyətli nailiyyətlər əldə etmişdi.Azərbaycan musiqi yaradıcılığının sürətli yüksəlişi prosesində Cövdət Hacıyevin kamil dövrünün fortepiano əsərləri heç də az rol oynamamışlar.

Bəstəkarın Ballada əsəri respublikada bu janrda yazılan ilk əsərdir. Nəqledici, epik janr çərçivəsində, obrazların dərin emosional məzmunluluğunu açıqlayır. Balladada bəstəkar həcmcə kişik olan ifadə vasitələrini, ona xas olan monumental–dramatik obrazlarla birləşdirmişdir.

Buna muğam intonasi yalarına, sıx fortepiano fakturasına əsaslanan reçitativliyin geniş istifadə olunması kömək edir. Tədqiqatçılar Balladanı "niyyətinə görə gələcək Dördüncü simfoniyada eskiz kimi" hesab edirlər. Lakin fortepiano pyesini ancaq simfonik əsəri yazmaqdan əvvəl yaradıcı "axtarış" kimi qəbul etmək, zənnimizcə, düzgün olmazdı. Bəstəkarın Ballada əsəri öz məzmununa görə orijinal əsərdir. Burada bəstəkar tərəfindən fortepiano texnikasının ifadə vasitələrini mükəmməl bilməsi nümayiş olunur: tempodinamika ilə faktura yazısının incəlikləri ilə registr kontrastları və onların qarşı – qarşıya qoyulması.

Cövdət Hacıyevin Ballada əsəri həm ifaçılar, həm də dinləyicilərdə böyük məşhurluq qazanmışdır. Əsər azərbaycan fortepiano musiqisinin ən parlaq nümunələrindən biri sayılır. Ballada fortepiano yazılışı vasitələrinin müxtəlifliyi ilə seçilir. Əsərdə xırda barmaq və ornamental texnika, oktava – akkord yazılışının möhtəşəmliyi əllərin çarpazlaşması üsulu ilə uzlaşır. Pyesdə xalq çalğı alətləri musiqisinin və muğamın reçitativ deklamasiyalılığının improvizasiyalılığı ilə əlaqə hiss olunur. Eyni zamanda, melodik nəfəsalmanın dolğunluğu, ballada janrına xas olan formanın azad traktovkası və metrin zəngin müxtəlifliyi xarakter cizgiləri təşkil edir. Buradan da əsərin bədii məzmununun ifaçılıq sahəsində olan əks olunması xüsusi çətinliklər yaradır. Professor O.Abasquliyevin gəldiyi nəticəyə görə, pianoçular artıq dərəcədə "rubato"dan istifadə edirlər. "Zənnimizcə, tələb olunan azadlıq,ifadəlilik melodiyanın özündə yerləşdirilib və artıq dərəcəli rubato ancaq təəssüratın tamlığına ziyan gətirə bilər. Bu halda nəqletmənin epik xarakterini daim yadda saxlamaq vacibdir" [2].

Bəstəkar Dördüncü simfoniyanın yaranması ilə əlaqədar olan yaradıcı fəaliyyətinə və məşqulluğuna baxmayaraq, fortepiano musiqisi sahəsində işləməyi davam etdirir. C.Hacıyev simfoniya üzərində işləməyi qurtardıqdan sonra, demək olar ki, dərhal fortepiano janrına müraciət edir və iki əsər: bir hissəli Sonata və Skertsonu yaradır. Hər iki əsəri xarakterin dinamikliyi, iki obraz, emosional təzadları fərqləndirir. Ayrı-ayrı anlarda (xüsusilə Skertsoda) Prokofyev fortepiano üslubunun təsiri nəzərə çarpır. Yazılışda tokkata üsullarından istifadə olunması, ştrixlərin vurğulanması, motorluğun üstünlük təşkil etməsi buna sübutdur. Eyni zamanda, folklor əsası ilə bağlılıq daim hiss olunur və bu əlaqə müasir ifadə dilinin xarakter cizgiləri ilə üzvi surətdə bir-birinə təsir göstərir. Maraqlıdır ki, bu əsərlər əvvəldə çox hissəli silsilə forması çərçivəsində ümumi bədii ideya altında birləşmişdilər [4]. Zəngin və müxtəlif obrazlı məzmunun olması, onunla əlaqədar geniş inkişaf xətti müstəqil əsərlərin yaranmasına imkan yaratdı. Qeyd etdklərimiz əsərlərin forma və məzmununluğuna heç bir təsir göstərməmişdir. Hətta bəstəkarın Sonata və Skertso əsərləri bu janrlarda yaranan ən parlaq əsərlərdən oldular.

Bəstəkarın yaradıcılığının kamil dövründə müraciət etdiyi fortepiano musiqisi sahələrindən birini – uşaqlara, gənc ifaçıların repertuarında olan əsərlər

təşkil edir. Cövdət Hacıyev digər Azərbaycanın görkəmli bəstəkarları olan Qara Qarayev, Fikrət Əmirov, Tofiq Quliyev kimi gənc nəslin musiqi əsərləri vasitəsilə musiqi zövqlərinin formalaşmasına böyük əhəmiyyət verir və dəyərli silsilə mahiyyətli əsərlər vasitəsilə onların musiqiyə olan maraqlarını formalaşdırırdı.

1976 ildə "Musiqi lövhələri" adlı uşaq fortepiano silsiləsi çapdan çıxır. Silsilə təzadlı obrazların ənənəvi əvəzlənməsi qaydasında qurularaq, fortepiano səslənməsinə "orkestrlik" bəxş edən faktura sahəsində ifadə vasitələrinin zənginliyi ilə fərqlənir. Həmçinin silsilədə milli musiqinin şifahi ənənələri olan, ən əvvəl, musiqini intonasiya cəhətdən zənginləşdirən muğam elementlərindən geniş istifadə olunur. Silsilə səkkiz pyesdən ibarətdir. Əsər ilk dəfə 1977-ci ildə səslənmişdir. Qeyd etməliyik ki, Cövdət Hacıyevin "Musiqi lövhələri" uşaq fortepiano silsiləsinin ilk ifaçısı Z.Adəgözəlzadə olmuşdur.

Pyeslər gah geniş, gah da lakonik şəkildə, lakin daim çox ifadəli, əyani olan xarakter şəkillərdən ibarətdir. Silsilənin adı musiqiyə xas olan konkretliliyə uyğundur. Bəstəkar bütün pyeslərdə naturalistik səs imitatorluğuna getmir, əyaniliyə üstünlük verərək məqsədinə musiqili, təmiz bədii vasitələrlə nail olur.C.Hacıyevin fortepiano üçün pyeslər silsiləsi ümumi bədii-emosional əhval-ruhiyyə ilə birləşmiş səkkiz pyesdən ibarətdir. Müxtəlif obrazlılıq, ümumilikdə uşaq həyatı pyeslərin psixoloji aləmini əks etdirir. Uşaqların məişəti və onun təsəvvürləri bəstəkar təfəkküründə onların psixologiyası üçün adi oyun janrına tabe edilir. Silsilənin ümumiliyi miniatyurların tonallıq cəhətdən planlaşmasında da nəzərdə tutulub. Yəni "lövhələrin" major tonallıqları minorla əvəzlənərək kvinta dairəsi üzrə diyezli tonallıqlara tərəf istiqamətlənir. Bu prinsipə F.Şopenin (op.28), D.Şostakoviçin (op.34) prelyudiyalarında rast gəlirik. Cövdət Hacıyevin silsiləsində uşaqlarda musiqi zövqünün tərbiyə olunmasında mühüm olan bədii nailiyyətlərlə pedaqoji tələblərə cavab verən və musiqi təfəkkürünün inkişafına aparan keyfiyyətlər üzvi surətdə birləşirlər.

Folklor lado – intonasion əsasa istinad edərək, C.Hacıyev bir tərəfdən milli musiqinin xüsusiyyətlərinə diqqətlə, ehtiyyatla yanaşır, digər tərəfdən, yaradıcı cəhətdən zənginləşdirir, milli lad təşkilinin təbiətini və imkanıarını inkişaf etdirir.

Pyeslərin ritm cəhətdən milli musiqi ilə əlaqəsi danılmazdır. Silsilənin ritmik rəngarəngliyinə baxmayaraq, əsas ritm, azərbaycan musiqisi üçün xarakter olan 6/8 ölçüsünə verilir. Burada müxtəlif ritmik kombinasiyalara imkan yaradılır.

Cövdət Hacıyevin fortepiano pyeslərinin melodikası özünün inkişafında yüksək bədii təkmilləşməyə nail olub. Ona dərin daxili dinamika xasdır. Melodik üslubun əsasını xalq – milli çıxışı təşkil edir. Mahnıvari başlanğıc bəstəkarın musiqisinə melodik ifadəolunmanın dolğunluğunu, nəfəsalmanın genişliyini bəxş edir.

Silsilə şən, bir qədər dəcəl "Gəzinti" pyesi ilə başlayır. Bu pyesdə bəstəkar uşaq addımlarını təqlid edən səslənmə təəssüratı yaratmağa çalışır. Bu ritm bütün pyes boyu, müəyyən mənada ostinat xüsusiyyətini alır. Pyes qeyri-adi enerjili,

səmimi, yumoristik və şən səhnə kimi təqdim edilir. Aşıq musiqisinin elementləri (milli lad mənşəyli sekundalar, kvarta-kvinta düzümləri) musiqiyə xüsusi rəngarənglik bəxş edir. Musiqi müəlliminin pyesin adını bildirmədən uşaqlara səsləndirdikdə, onların qarşısına sual qoyması məqsədə uyğun olardı: " Bu əsəri dinləyərkən təsəvvürünüzdə hansı səhnə canlanır?" Ola bilər ki, uşaqlar ilk eşitmə zamanı əsərin xarakterinə uyğun ad tapa bilmədilər. Bu zaman müəllim musiqinin müəyyən xırdalıqlarını təhlil edərək, onu yenidən səsləndirib qarşılarına qoyduğu sualın cavabına düzgün nail olmalıdır.

"Nağıl" – "Əfsanə" pyesi özünün ağır, sakit tempi, Sisiliana ritmi ilə əvvəlki miniatüra təzad yaradır. Sağ əldə verilmiş ostinat hərəkət pyesə nağıl süstlüyü əhval – ruhiyyəsini bəxş edir. Bu fonda səslənən həzin melodiya nəqledənin sakit obrazını yaradır. Milli melodizm, lad  rəngarəngliyi yalnız yeddinci xanədə meydana çıxır. Pyesi janr əlaqələri əsasında, metrik quruluşu, təmkinli hərəkət sürəti ilə Barkarolaya da bənzətmək olar.

Silsilə dərin düşüncələri, həyat haqqında fikirlərini təsvir edən "Epiloq" miniatürü ilə tamalanır. Mərd və ciddi düşüncələr dünyası bu dəfə də muğam üçün səciyyəvi xüsusiyyətlərlə ifadə olunmuşdur. "Epiloq" bu musiqi lövhələrinin çoxcəhətli olması ilə yanaşı, finala istiqamətləndirilmiş birlik və məqsədyönlü inkişaf xətti ilə seçilən bütöv, tam bir əsər əminliyi yaradır. Final müəllifin sanki hər hansı bir ahıl yaşlı insanın uşaqlıq illəri haqqında düşüncələri, xatirələri  kimi qəbul olunur.

Bəstəkar Cövdət Hacıyevin fortepiano əsərləri  bütövlükdə yaradıcılıq üs lubunun təşəkkülü və inkişafı prosesi ilə formalaşıb. Bəstəkarın bütün əsərlərində yaradıcı üslubun birliyi nəzərə çarpır. Burada onun simfonist bəstəkara xarakter olan cizgiləri əks olunub: "dərin ümumiləşdirilmiş düşüncələrə aid olan obrazlar dairəsi, musiqi dili və ifadənin tipik cizgiləri". Eyni zamanda, Cövdət Hacıyev fortepiano yaradıcılığının və alətin xüsusiyyətlərini mükəmməl bilən bir bəstəkar olaraq, fortepiano  repertuarının  qiymətli  bədii  əsərlərini  yaratmışdır.Əsərlər parlaq bənzərsizliyi, obraz-emosional dolğunluğu və məzmun dərinliyi ilə fərqlənirlər.

Beləliklə, son olaraq, bu nəticəyə gələ bilərik ki, musiqi-pedaqoji repetuarın tərbiyəvi əhəmiyyəti   müasir şəxsiyyətin formalaşmasında incəsənətin ümumi rolunun əks olunmasıdır. Qeyd etdiyimiz funksiyaların həyata keçməsi klassik, müasir və milli musiqi əsərlərinin istifadı olunması ilə sıx əlaqəlidir. Pedaqoji repertuar gələcək musiqi müəlliminin yaradıcı maraqlarının istiqamətlənməsinə təsir edərək (həm professional ifaçı, həm də musiqi müəlliminin) şəxsiyyətin daxili mənəvi əlaqələrini milli və dünyavi mədəniyyətlərlə əlaqəsini  təsdiq  edir. Musiqi-pedaqoji repertuarın formalaşmasının qanunauyğunluqlarının  tərbiyərdici funksiyalarının həyata keçirilməsinin öyrənilməsi elmi nöqteyi-nəzərdən əsaslanmış  metodiki  göstərişlərin verilməsinə imkan yaradacaq.

## ƏDƏBİYYAT

1. Qasımova S., İmanova Ü., Abdullayeva Z. Azərbaycan musiqi ədəbiyyatı. Bakı: Elm və təhsil, 2014, 487 s.
2. Абаскулиев О. Методико-исполнительская разработка вопросов интерпретации фортепианных произведений Дж.Гаджиева. Баку: Минвуз Аз.ССР, 1980, 18 с.
3. Кенгерлинская Т.Ф. Музыкальная педагогика. Баку, 2004, 307 с.
4. Сеидов Т. Азербайджанская фортепианная культура XX века. Баку: Азерб.гос.изд., 2006, 271 с.
5. Таги-заде А. Джевдет Гаджиев. – Баку, Ишыг, 1979, 33 с.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 28.04.2024**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.06.2024**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.06.2024**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2024, **s.28-32**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2024, **c.28-32**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2024, **p. 28-32**

**UOT 784.673+37.036**

**F.Ş.Hidayətova**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Haçıbəyli küçəsi, 68
*E-mail:*firangizhidayatova@gmail.com

# XOR KOLLEKTİVİ SOSİAL-MƏDƏNİ MÜHİT KİMİ

***Açar sözlər:*** *xor kollektivi, uşaq psixologiyası, sosial adaptasiya, instrumental müşayiət, sosial mədəniyyət*

Bildiyimiz kimi, xor ifaçı qrup yaradıcılığı ilə məqsəd və vəzifələrlə birləşir və təşkil olunur. Kollektiv prinsipin əsas prinsipi bütün xor iştirakçıları üçün məcburidir və xorun işinin istənilən mərhələsində qorunmalıdır. Xor müşayətlə və ya müşayətsiz oxuna bilər. Müşayiətsiz ifaya kapella oxuma deyilir. İnstrumental müşayiət demək olar ki, hər hansı bir aləti, bir və ya bir neçəsini və ya bütün orkestri əhatə edə bilər. Bir qayda olaraq, xor məşqləri zamanı xor və orkestr üçün yazılmış əsərin öyrənilməsi prosesində orkestr müvəqqəti olaraq fortepiano ilə əvəz olunur; Kapella xor əsərlərini öyrənərkən pianodan köməkçi alət kimi də istifadə olunur.

**Ф.Ш.Гидаятова**

# ХОРОВОЙ КОЛЛЕКТИВ КАК СОЦИОКУЛЬТУРНАЯ СРЕДА

***Ключевые слова:*** *хоровой коллектив, психология детей, социальная адаптация, инструментальное сопровождение, социокультура*

В этом контексте хор – вокально-исполнительский коллектив, объединённый и организованный творческими целями и задачами. Основной принцип коллективного начала обязателен для всех участников хора и должен выдержан на любом этапе работы хора. Хор может петь в сопровождении инструментов или без них. Пение без сопровождения называется пением а cappella. Инструментальное сопровождение может включать в себя практически любой инструмент, один или несколько, или целый оркестр. Как правило, на репетициях хора в процессе разучивания произведения, написанного для хора с оркестром, оркестр временно заменяется фортепиано; также фортепиано используется как вспомогательный инструмент при разучивании хоровых произведений а cappella.

**F.Sh.Hidayatova**

## CHOIR COLLECTIVE AS A SOCIAL AND CULTURAL ENVIRONMENT

***Key words:*** *choir collective, child psychology, social adaptation, instrumental accompaniment, social culture*

In this context, the choral and performing group is united and organized by creative goals and objectives. The basic principle of the collective principle is mandatory for all choir participants and must be maintained at any stage of the choir's work. The choir can sing with or without instruments. Singing without accompaniment is called a cappella singing. Instrumental accompaniment can include almost any instrument, one or more, or an entire orchestra. As a rule, during choir rehearsals, in the process of learning a piece written for a choir and orchestra, the orchestra is temporarily replaced by the piano; The piano is also used as an auxiliary instrument when learning a cappella choral works.

Müasir dövrün tələblərinə görə kollektiv şəkildə təşkil olunmuş bütün işlər innovativ təkliflərə istinadən çox böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının təhsil sisteminin inkşafı üçün alınan bütün tədbirlər gələcəyimiz olan uşaqların həyatında əhəmiyyətli olan məktəbəqədər və orta təhsil dövründə uşaqların psixologiyasının formalaşmasında böyük rol oynayır.

Bir az nəzəriyyəni gözdən keçirək:

- Xor neçə nəfərdən ibarət olmalıdır?
- Orta qarışıq xor kollektivində minimum neçə nəfər olmalıdır?
- Məktəbli xorunda neçə nəfər olmalıdır?
- Kollektiv xorda oxuyan uşaqlarda nə kimi evvektiv nəticələr görmək olar?

Bu suallara yaxınlaşmaq üçün mütləq nəzəriyyədən başlamalıyıq. İstənilən yaş dövründə nəzərdə tutulmuş hər hansı bir nəticə almaq istəsək əvvəlcə onları müəyyən bir say üzrə qruplaşdırmalıyıq.

Adından göründüyü kimi, xorun tipi dedikdə, ifaçı qrupun xanəndə səslərinin tərkib qruplarına görə xüsusiyyətləri nəzərdə tutulur. Məlumdur ki, oxuyan səslər üç qrupa – qadın, kişi və uşaq səslərinə bölünür. Beləliklə, bir qrupun səslərini birləşdirən xor həmcins adlanır, qadın (və ya uşaq) və kişi səslərinin birləşməsinə malik olan və ya bütün qrupların oxuyan səsləri olan xor qarışıq adlanır [1].

İfaçılıq təcrübəsinə nəzər salsaq, görərik ki, dörd növ xor geniş yayılmışdır: qadın, kişi, uşaq, qarışıq.

Qarışıq xor (xorun ən çox yayılmış növü) – qadın və kişi səslərindən ibarətdir. Qadın səsi soprano və alt hissələrini, kişi səsi isə tenor və basların hissələrini təşkil edir. Hər hissə daxilində adətən birinci (yuxarı) və ikinci (aşağı) səslərə bölünür: sopranolar I və II, altos I və II, tenorlar I və II, bas I və II;

Səs fərqinə görə oğlan və gənc kişi xoru – qarışıq olan kimi eyni dörd əsas hissədən ibarətdir, lakin soprano partiyasını trebl müğənniləri adlanan oğlanlar, alto partiyasını isə alçaq oğlan səsləri ifa edir; belə xorda, eləcə də qarışıqda tenor və bas partiyaları kişilər ifa edir;

Uşaq xoru – iki hissədən ibarətdir: sopranolar (üçlər) və altoslar, bəzən üçdən - I və II sopranolar (üçlər) və altoslar; digər variantlar da mümkündür.

Bir xorda müğənnilərin minimum sayı 3 nəfərdir.

Oxuma üslubu baxımından bunlar da nəzərə alınmalıdır.

Məsələn, akademik xorlar – akademik tərzdə oxunmalıdır. Akademik oxuma üslubu peşəkar musiqi mədəniyyəti və opera və kamera janrlarında çoxəsrlik təcrübənin ənənələri ilə inkişaf etdirilən musiqi yaradıcılığı və ifaçılıq prinsip və meyarlarına əsaslanır [2];

Hər bir ölkənin özünəmaxsus mədəniyyəti olduğu kimi musiqi mədəniyyəti o ölkənin cəmiyyətinin formalaşmasında çox böyük əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, xalq xorları – xalq üslubunda oxuyanlardır. Rus xalq xorlarının janr xüsusiyyətləri bunlardır: məişət xalq ifaçılığının yerli və ya regional ənənəsinə arxalanma; səslərin təbii registr səsindən istifadə; xor polifoniyasının əsası kimi mahnının subvokal polifonik oxunması.

Bəs xor kollektivi üçün necə əsərlər yazılmalıdır?

Messa – xor üçün (o cümlədən, müğənni solistlər üçün) çoxhissəli əsərdir. İnstrumental müşayiətdən istifadə olunur, bəzən müşayiətsiz olur. Katolik kilsədə sübh və ya günorta ibadəti zamanı ifa olunmaq üçün nəzərdə tutulan latın mətnləri əsasında bəstələnir [3].

Motet (lat. motetus, motus — söz) – XII–XIV əsrlərdə yaranmış çoxsəsli mahnı, eyni vaxtda müxtəlif məzmunlu, müstəqil melodiyaların uzlaşmasından ibarətdir; sonralar A kapella ifa olunan çoxsəsli əsər növü.

Oratoriya (lat. oratorium – nitq, bəlağət) — xor, solist, orkestr üçün yazılmış böyük həcmli musiqi əsəri; epik-dramatik xarakterə və inkişaflı süjetə malikdir.

Kantata (it. cantata, cantare – oxumaq) – 1. solist müğənnilər, orkestr, həmçinin xor üçün yazılmış, bitmiş nömrələrdən ibarət olan və konsert planında ifa olunması nəzərdə tutulan əsər; 2. XVII əsrin əvvəllərində (İtaliyada) sonatadan fərqli olaraq, oxumaq üçün müşayiətli əsərdir.

İfa tərzinə görə kantata oratoriyaya bənzəyir; tədricən kantata və oratoriyanın müəyyənləşdirən fərqlər yox olmuşdur; böyük həcmli kantata oratoriyaya yaxınlaşır və adətən daha bütöv və inkişaflı süjetə malik olan lirik elementlərlə seçilir.

Opera (it. opera – hadisə, əsər) – orkestrin müşayiətilə səhnədə ifa olunan musiqili dramdır.

A kapella (it. a capella – "kapella üslubunda" deməkdir) — xorun müşayiətsiz oxunması. Orta çağlarda katolik kilsəsində musiqiçilər üçün ayrılan yer. Əvvəllər kilsə musiqiçiləri yalnız müğənnilərdən ibarət olduğu üçün kapella sözü xoru bildirirdi, sonralar isə kilsə musiqisində alətlərdən istifadə olunması və kübar musiqinin inkişafı ilə əlaqədar olaraq hər hansı bir yerdə (kilsədə və ya sarayda) xidmət edən musiqiçilər qrupu Kapella adlandırılmağa başladı.

Baxılan bütün nəzəri məqamlar yaşından asılı olmayaraq qrup halında seçilmişdirsə deməkki kollektiv şəkildə yaradılmış xor daha əhəmiyyətli səs tonallığı yaratmağa kömək edir [4].

Səslərin tənzimlənməsi üçün isə ən böyük məsuliyyət təbiki dirijor tərəfindən tənzimlənir.

Ama bu idarəetmənin, bu seçimin, bu qruplaşmanın kollektiv xorun təşkilində böyük əhəmiyyət kəsb etməsi effektivliyi tənzimləyir və deməkki uşaqların da cəmiyyətdə hər hansı nailiyyət əldə edilməsinə mütləq kömək edəcəkdir.

Kollektiv xorun vacib  nəticəsi uşaqlarda cəmiyyətdə müəyyən bir yer tutmaq, Dövlət əhəmiyyətli tədbirlərdə etik davranış qaydalarına alışmaq, yüksək səhnə və musiqi mədəniyyəti aşılayır [5].

Yuxarıda qeyd etdiyim bütün məqamlar uşaqların və gənclərin cəmiyyətdə formalaşmasına xidmət edir və ali təbəqədə özünəməxsus yer almaq üçün başlanğıc mərhələ ola bilər.

**Məqalənin aktuallığı.** Qeyd etdiyimiz bütün məqamlar uşaqların və gənclərin cəmiyyətdə formalaşmasına xidmət edir və ali təbəqədə özünəməxsus yer almaq üçün başlanğıc mərhələ ola bilər.

## ƏDƏBİYYAT

1. Садовников В. И. Орфоэпия в пении. — М., 1958. — 80 с.
2. Ильин В. Очерки истории русской хоровой культуры. — М.: Советский композитор, 1985. 229 с.
3. Никольская-Береговская К.Ф. Русская вокально-хоровая школа: От древности до XXI в.— М.: Владос, 2003. ISBN 5-691-01077-8
4. Чесноков П.Г. Хор и управление им. Пособие для хоровых дирижёров. Изд. 3-е.— М., 1961. 240 с.

5. Mirzəyeva M. Xorşünaslıq: dərslik. Bakı, 2007, 123 s.
6. Əliyeva M. Mektebli xoru ilə işin əsasları - metodiki dərs vəsaiti. Bakı, ADPU 2020, 42 s.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 28.04.2024**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.06.2024**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.06.2024**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mədinə Tuayeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2024, **s. 33-38**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2024, **с. 33-38**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2024, **p. 33-38**

**UOT 78.06**

**M.T.Əliyeva**
pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail:* m.aliyeva60@gmail.com
ORCİD İD: 0000-0002-2005-6090

# MUSİQİNİN TƏDRİSİNDƏ MÜASİR PEDAQOJİ TEXNOLOGİYALARIN TƏTBİQİ

***Açar sözlər:*** *müasir pedaqoji təlim texnologiyaları, layihələr metodikası, inkişafedici texnologiyalar*

Bu gün bir sıra müasir pedaqoji təlim texnologiyaları işlənib hazırlanmışdır ki, bunlar bir birindən müxtəlif məqsəd, məzmun və metodiki xüsusiyyətləri ilə fərqlənir. Təhsilin məzmunu yeni prosessual bacarıqlarla, qabiliyyətlərin inkişafı, informasiyanın emalı, problemlərin yaradıcı həlli və s. ilə zənginləşir. Pedaqoji prosesin vacib amili kimi şəxsiyyətyönümlü müəllim-şagird münasibətləri çıxış edir. Məqalə məhz bu məsələlərin araşdırılmasına həsr edilmişdir. Məqalədə evristik texnologiya və ona daxil olan bir sıra metodların, eləcə də tətqiqat və layihələr metodlarının musiqi dərslərində tətbiqi yolları araşdırılır. Burada belə nəticəyə gəlinir ki, musiqi təhsilinin inkişafedici xarakter alması üçün belə etmək lazımdır ki, musiqi dərslərində şagirdlərin fəaliyyəti məzmununa görə bədii, formasına görə isə təlimedici olsun. Bu isə o zaman mümkün olar ki, musiqi təhsili müasir texnologiyalarla aparılsın.

**М.Т.Алиева**

# ПРИМЕНЕНИЕ СОВРЕМЕННЫХ ПЕДАГОГИЧЕСКИХ ТЕХНОЛОГИЙ В ПРЕПОДАВАНИИ МУЗЫКИ

***Ключевые слова:*** *современные педагогические технологии обучения, проектная методика, развивающие технологии*

Сегодня разработаны различные современные педагогические технологии, которые отличаются друг от друга целями, содержанием и методическими особенностями. Содержание образования обогащается новыми процессуальными умениями, развитием способности обрабатывать

информацию, умением находить творческие решения проблем и т.д. Статья посвящена исследованию именно этих вопросов. В статье рассматриваются пути использования на уроках музыки эвристической технологии и входящих в нее методов, а также исследовательского метода и метода проектирования. Здесь делается вывод, что для того, чтобы музыкальное образование приняло развивающий характер, необходимо сделать деятельность учащихся на уроках музыки по содержанию художественной, а по форме обучающей. А это возможно лишь тогда, когда музыкальное образование ведется с использованием современных технологий.

**M.T.Aliyeva**

## APPLICATION OF MODERN PEDAGOGICAL TECHNOLOGIES IN MUSIC TEACHING

***Key words:*** *musical education, conducting training, national personnel*

Today, various modern pedagogical technologies have been developed, which differ from each other in goals, content and methodological features. The content of education is enriched with new procedural skills, the development of the ability to process information, the ability to find creative solutions to problems, etc. The article is devoted to the study of precisely these issues. The article discusses ways to use heuristic technology and its methods, as well as the research method and design method in music lessons. It is concluded here that in order for music education to take on a developmental character, it is necessary to make the activities of students in music lessons artistic in content and educational in form. And this is only possible when music education is conducted using modern technologies.

Azərbaycan Respublikası Bolonya prosesinə qatıldıqdan sonra təhsil sistemində bir sıra mühüm dəyişikliklər baş verdi. Bu dəyişikliklər həm də təlim üsullarının, yəni texnologiyaların dəyişməsini tələb etdi. Musiqi təhsilinin məzmununun yeniləşməsi müxtəlif yollarla aparıla bilər. Lakin real dəyişikliklər müəllimin pedaqoji prosesi nə dərəcədə yeniliklərlə təşkil edəcəyindən asılıdır. Bu gün, demək olar, hər bir müəllim bilir ki, istənilən təhsilin inkişafedici xarakter alması üçün vacibdir ki, şagirdlər bilik, bacarıq və vərdişləri geniş təlim fəaliyyətində mənimsəsinlər. Müasir pedaqogikada şəxsiyyətin bütün keyfiyyət qruplarını bir-birilə əlaqəlidir və mürəkkəb dinamik inkişaf edən vahid bir struktur kimi çıxış edir.

Bu gün bir sıra yeni pedaqoji təlim texnologiyaları işlənib hazırlanmışdır ki, bunlar bir birindən müxtəlif məqsəd, məzmun və metodiki xüsusiyyətləri ilə fərqlənir. Müasir pedaqoji texnologiya dedikdə köhnə izahedici-illüstrativ təlim tipinin əvəzinə gələn yeni tipli aktiv-fəaliyyətli təlim növü başa düşülür. Təhsilin məzmunu yeni prosessual bacarıqlarla, qabiliyyətlərin inkişafı, informasiyanın emalı, problemlərin yaradıcı həlli və s. ilə zənginləşir. Pedaqoji prosesin vacib amili kimi şəxsiyyətyönümlü müəllim-şagird münasibətləri çıxış edir. İctimai bilik səviyyəsinə uyğun pedaqoji texnologiyaların yaradılmasında elmin rolu artmağa başlayır. Bu gün bütün təlim texnologiyalarının geniş spektrini öyrənmədən pedaqoji cəhətdən savadlı mütəxəssis olmaq mümkün deyil.

Şəxsiyyətin mütərəqqili inkişafı – fərdin zamanla fiziki və psixi təkmilləşməsi prosesidir ki, bunu onun müxtəlif xassələrinin və parametrlərinin azdan çoxalmaya, sadədən mürəkkəbə, alçaqdan yüksəkliyə doğru keçid kimi müəyyənləşdirmək olar. Müasir pedaqoji texnologiyalar fərdin inkişaf, səviyyə və xüsusiyyətlərinin qanunauyğunluqlarını nəzərə alır və istifadə edir. Müasir pedaqoji texnologiyalar vasitəsilə təlimdə qabaqlayıcı pedaqoji təsir öyrənənlərin irsi qabiliyyətlərini stimullaşdırır, istiqamətləndirir və sürətləndirir. Bu təlimdə öyrənən tamlıqla fəaliyyətin bütün mərhələlərində subyekt kimi çıxış edir. Və hər bir mərhələ şəxsiyyətin inkişafına özünün spesifik töhfəsini verir.

Müasir pedaqoji texnologiyalara müxtəlif  təlimlər aiddir ki, bunların sırasında evristik təlim ən səmərəli olanlardan biridir. Bu texnologiya vasitəsilə tələbələrdə azadlıq, müstəqillik, məqsədyönlük, qeyrət, şərəf, təşəbbüskarlıq, yaradıcılıq, orijinallıq, iradə, zəhmətkeşlik, nizam-intizam, fəallıq, ustalıq, məsuliyyət kimi keyfiyyətlər tərbiyə olunur.

Müəllimlər müasir texnologiyalardan istifadə etməklə dərsləri daha maraqlı edən, şagirdləri sağlam mühakimələr irəli sürməyə, sonradan real həyata tətbiq edəcəkləri məzmunu başa düşməyə yardım edən mühüm vasitələrə çevirə bilərlər. Deməli, bunlar təhsilin məzmununun daha yaxşı mənimsənilməsi və müstəqil cavab vermək məqsədilə şagirdlərin tələb olunan təfəkkür prosesini inkişaf etdirilməsi üçün çox faydalıdır.

Məktəblilərə nəyi öyrətmək barəsində hər bir fənn üçün çox saylı proqramlar, dərsliklər və tövsiyələr nəşr olunur. Lakin bunu necə etmək, hansı metodlar vasitəsilə uşaqların qabiliyyət və bacarıqlarını inkişaf etdirmək – bunlar barəsində helə ki ədəbiyyat qıtlığı hiss olunur. Lakin təlim metodu – daha qüclü vasitədir, nəinki təlimin məzmunu. Məktəb məzunlarından soruşsaq ki, siz nəyi daha yaxşı yadda saxlamısınız: sizə nəyi öyrədiblər ya necə bunu ediblər? Məhz fəaliyyətin metodları, üsulları daha universal, ümumbəşəri xarakterə malikdir, çünki onları müxtəlif təhsil sahələrinə köçürmək mümkündür. Tətbiq olunan metod həmişə bilavasitə şagirdin hərəkətlərinə

aiddir, lakin öyrənilən fənnin məzmunu onun real həyatından çox uzaqlarda qala bilər.

Müasir musiqi dərslərində, əsasən də yuxarı siniflərdə uğurla tətbiq oluna bilən tədqiqat metodudur ki, o, uşaqların təbiətdən gələn ətraf dünyanı öyrənmək, tədqiq etmək tələbatına əsaslanır. Tədqiqat əsnasında *lahiyə* formasını istifadə etmək olar. İlk dəfə bunu C.Dyui təklif etmişdir. Lahiyə müəyyən bir tədrisi-idrakı priyomların cəmini nəzərdə tutur ki, bunların vasitəsilə şagirdin müstəqil fəaliyyəti nəticəsində bu və ya digər problemin həlli mümkün olur. Lahiyə fəaliyyətin təşkili musiqi dərslərinin səmərəliliyini artırmağa imkan yaradır. Bu gün lahiyə metodikasına malik olmayan müəllim yüksək ixtisasçı kimi qəbul oluna bilməz.

Lahiyələr metodunun istifadəsi zamanı aşagıdakı tələblərə riayyət olunmalıdır:

1) tədqiqat yaradıcılığı baxımındın əhəmiyyətli problemin mövcudluğu;

2) gözlənilən nəticələrin praktiki və nəzəri əhəmiyyətinin olması;

3) şagirdlərin müstəqil iş fəaliyyəti;

4) lahiyənin məzmun hissəsinin strukturlaşdırılması (mərhələ ilə nəticələrin göstərilməsi);

5) tədgiqat metodlarının istifadəsi.

Yerinə yetirilmiş lahiyələrin nəticələrinin mütləq prezentasiyası olmalı, yəni onlar hər hansı bir şəkildə tərtibat olunmalı (videofilm, albom, kompüter qəzeti, məruzə və s.). Prezentasiyalar şəkil, rəsm, plakat, musiqi müşayiəti və ya kompüter texnologiyaları vasitəsilə (Power Point proqramı) həyata keşirilir.

Musiqi dərslərində istifadə oluna biləcək təxmini prezentasiya mövzuları:

1. “Azərbaycan və xarici bəstəkarlarının yaradıcılığında heyvanlar və quşlar aləminin təsviri”. Burada uşaqlar öyrəndikləri mahnı, dinlədikləri musiqi əsərləri əsasında öz təəssüratlarını sözlə ifadə etməyi, müqayisə aparmağı öyrənirlər.

2. “İlin fəsilləri mövzusu müxtəlif bəstəkarların yaradıcılığında”. Burada Çaykovski, Vivaldı, Şopen, Qarayev və digər bəstəkarların ilin fəsilləri ilə bağlı əsərləri müqayisəli təhlil olunur.

3. “Ədəbiyyat və musiqinin qarşılıqlı əlaqəsi”. Uşaqlar belə suallar üzərində düşünürlər: Musqi və ədəbiyat arasında nə kimi bağlılıq var? Əgər ədəbiyyat olmasaydı musiqi nə cür olardı? Əgər poeziya və ədəbiyyat olmasaydı musiqi nələri itirərdi? Bu zaman uşaqlar müxtəlif mənbələrlə işləməyi və informasiyanın böyük axınından əsası ayırd etməyi öyrənirlər.

4. “Rəqs və ritm”. Uşaqlar ritm və rəqs, hərəkət arasında əlaqəni axtarıb-tapırlar.

5. “Azərbaycan musiqi folkloru”. Folklorumuz barəsində biliklərin toplanması.

6. “Musiqinin təsir gücü nədədir?” Burada şagirdlərdə musiqinin “sehirli” gücü barəsində hekayə, nağıl uydurma bacarığı inkişaf olur. Uşaqlar öz güclərini müəllif, rəssam-tərtibatçı, lahiyə rəhbəri kimi sınayırlar.

7. “Musiqi tapmacaları ölkəsində”. Burada müxtəlif formada keçirilən musiqi tapmacalarında (krossvord, şarada, rebus və s.) keçilən materialın möhkəmləndirilməsi baş verir: musiqi terminləri, bəstəkarların adları, əsərlərin adları, musiqi janrları.

8. “Musiqi teatr, kino və televiziyada”. Burada uşaqlar müxtəlif uşaq kino filmlərdən və cizgi filmlərindən tanınmış mahnılardan popurri yaratmağı öyrənirlər. Əgər musiqi olmasaydı, filmlər necə olardı? Televiziya necə olardı? – sualların cavablarını axtarıb tapırlar.

9. “Musiqi alətləri”. Alətlər barəsində şəkillər, slaydların göstərilməsi ilə qısa məlumatın verilməsini nəzərdə tutur. Burada hər bir slaydda alətin rəsmi verildikdə həm də onun səslənməsini səsli fayl şəklində vermək olar.

Musiqi təhsilinin məzmununun yeniləşməsi müxtəlif yollarla aparıla bilər. Lakin real dəyişikliklər müəllimin pedaqoji prosesi nə dərəcədə yeniliklərlə təşkil edəcəyindən asılıdır. Bu gün, demək olar, hər bir müəllim bilir ki, istənilən təhsilin inkişafedici xarakter alması üçün vacibdir ki, şagirdlər bilik, bacarıq və vərdişləri geniş təlim fəaliyyətində mənimsəsinlər.

Ənənəvi musiqi pedaqogikası musiqi dərslərində müxtəlif fəaliyyət növləri anlayışına hər şeydən əvvəl xorla oxumanı, sadə musiqi alətlərində çalğını, musiqinin nəzəri əsaslarının öyrənilməsini (not təlimi), improvizasiyanı, musiqini dinləməni daxil edir. Son illər aparılan tədqiqatlar göstərir ki, bütün adları çəkilən fəaliyyət növlərinin musiqi dərslərində formal olaraq mövcudluğu, zahirən şagirdlərin daima məşqulluğu – helə demək deyil ki, məktəblilər tam dolğun musiqili-bədii fəaliyyəti həyata keçirirlər.

Məlumdur ki, təlim fəaliyyətini digərlərindən (xüsusilə də təlim işindən) fərqləndirən ən köklü mühüm cəhət – onun dərk etmə təfəkkürün vasitəsilə həyata keçirilməsidir və bunun nəticəsində materialda belə dəyişikliklər baş verməlidir ki, onun vacib daxili əlaqələri və münasibətləri aşkarlanmış olsun. Onların aşkarlanması şagirdə biliyin yaranmasını izləmək, sanki həqiqəti özü tərəfindən ixtira etməyə imkan verir. Materialın bu cür yaradıcı transformasiyası real və təfəkküri eksperiment prosesi kimi baş verir ki, bunun nəticəsində şagirdlərdə musiqinin məğzinə, dərinliklərinə varmağa imkan yaranır. Lakin bəstəci, ifaçı, dinləyicinin fəaliyyətini haqlı olaraq musiqi fəaliyyətinin növləri kimi hesab etmək olar. Bu üçlü fəaliyyət növü musiqinin özünün mövcudluğu üçün üç labüd şərti əks etdirir və qavrama prosesilə sıx əlaqədə olub, dəyişilməz kimi çıxış edirlər. Hər şey dəyişə bilər – səslənmənin şəraiti, alətlər, janrlar, formalar, ifadəlilik vasitələri və s. – lakin yuxarıda göstərdiyimiz üçlü fəaliyyət heç zaman yox olmur, çünki bu fəaliyyət növləri musiqinin mövcud olması formasının özüdür.

Beləliklə, təlim fəaliyyəti musiqi tərbiyəsinin formalarından fərqli olan bir kateqoriyadır ki, o, ümumi didaktikaya aiddir. Burada sual yarana bilər ki, musiqi dərslərində bu nə qədər lazımlıdır? Axı burada biz ən başlıcası bədii-musiqili fəaliyyətdən danışmalıyıq ki, bunda fantaziya, təxəyyül, intuisiya, musiqini qavrama bir mənəvi akt kimi ehtiva olunur. Bəs onda "dərk etmə təfəkkürü", "təfəkkürlü eksperiment", "biliyin təbiətinə varma", "refleksiya" nəyə lazımdır?

**Nəticə.** Təlim fəaliyyəti musiqi dərslərində ona görə lazımdır ki, o öz məğzinə görə bədii fəaliyyətlə təzadlıq təşkil etmir: həm təlim fəaliyyəti, həm də bədii fəaliyyət eyni dərəcədə təlim işindən fərqlənir və heç də öyrənmə, mənimsəmə, anlama kimi məhfumlarla eyni şey deyil. Çünki musiqi biliklərini öyrənmək və mənimsəmək hazır halda da olur və bunu ənənəvi üsullarla, yəni yadda saxlamaqla, təkrar etməklə, möhkəmlətməklə və s. həyata keçirmək olur. Lakin bu halda musiqi hadisəsinin öyrənilməsi, onun bəzi tərəflərinin müqayisəsi, onun əhəmiyyətli əsaslarının, səslənən materialın daxilində səbəb-nəticə əlaqələrinin aşkar edilməsi yolu ilə baş verməyəcəkdir. Bir sözlə, musiqi təhsilinin doğrudan da inkişafedici xarakter alması üçün elə etmək lazımdır ki, musiqi dərslərində şagirdlərin fəaliyyəti məzmununa görə bədii, formasına görə isə təlimedici olsun. Bu isə o zaman mümkün olar ki, musiqi təhsili müasir texnologiyalarla aparılsın.

## ƏDƏBİYYAT


1. Xəlilov V., Zeynalov Z., Mehdiyeva R.. "Təlim prosesində yeni pedaqoji və İKT texnologiyalardan istifadənin elmi əsasları və təlimin keyfiyyətinə onların təsiri", Bakı, 2012, 92 s.
2. Rəcəbov O., Hidayətova F. "Ümumtəhsil məktəblərində musiqi tədrisi və tərbiyəsi metodikası", Bakı, 2013, 258 s.
3. Селевко Г.К. "Современные образовательные технологии", Москва, 2004, 256 с.
4. Пахомова Н.Ю. Метод учебных проектов в образовательном учреждении: Пособие для учителей и студентов педагогических вузов. Москва, 2005, 112 с.


**Məqalənin redaksiyaya daxil olma tarixi: 28.04.2024**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.06.2024**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.06.2024**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mədinə Tuayeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 372.878**

**C.C.Ağayev**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail:* cagayev171@gmail.com

# XALQ MAHNILARININ MUSİQİ DƏRSLƏRİNDƏ İSTİFADƏ İMKANLARI

***Açar sözlər:*** *xalq mahnıları, meldoiya, intonasiya, tərbiyə, musiqi zövqü*

Məqalə tədrisdə xalq mahnılarının istifadə imkanlarının təhlilinə həsr edilmişdir. Məqalənin məqsədini şagirdlərə musiqi vasitəsilə tərbiyəni aşılamaq, onlarda milli-mənəvi dəyərlərin formalaşmasına, yaradıcı ruhda yetişmələri işinə kömək etmək, eləcə də xalq mahnılarının tədrisinin əhəmiyyətini açıqlamak təşkil edir.
Azərbaycan xalq musiqisinin böyük bir hissəsini təşkil edən xalq mahnılarının düzgün tədrisi ümumtəhsil məktəblərinin musiqi müəllimləri üçün olduqca vacib məsələdir. Şagirdlərə xalq musiqisi daha yaxın və doğmadır, buna görə onlar onu daha tez qavraya və mənimsəyə bilirlər. Uşaqlara xalq musiqisinin, o cümlədən xalq mahnılarının öyrədilməsi, onlarda nəinki yüksək-bədii musiqi zövqünü inkişaf etdirir, həmçinin onların bir şəxsiyyət kimi formalaşmasına, mənəvi keyfiyyətlərin və vətənpərvərlik hisslərinin tərbiyəsinə xidmət göstərir. Buna görə də xalq mahnılarının müxtəlif, həm ənənəvi, həm də qabaqcıl metodlar ilə tədrisdə istifadəsi yollarının öyrənilməsi və göstərilməsi vacibdir.

**Дж.Дж.Агаев**

# ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ НАРОДНЫХ ПЕСЕН НА УРОКАХ МУЗЫКИ

***Ключевые слова:*** *народные песни, мелодия, интонация, воспитание, музыкальный вкус*

Статья посвящена анализу возможностей использования народных песен в обучении. Цель статьи – воспитать учащихся посредством музыки, помочь им развить национальные и нравственные ценности, вырасти в творческом духе, а также раскрыть важность обучения народным песням.

Правильное преподавание народных песен, составляющих большую часть азербайджанской народной музыки, является очень важным вопросом для учителей музыки средних школ. Народная музыка ближе и роднее учащимся, и поэтому они быстрее ее воспринимают и усваивают. Обучение детей народной музыке, в том числе народным песням, не только развивает у них высокохудожественный музыкальный вкус, но и служит формированию их личности, воспитанию нравственных качеств и патриотизма. Поэтому важно изучать и показывать пути использования народных песен в обучении различными – как традиционными, так и передовыми методами.

**J.J.Agayev**

**POSSIBILITIES OF USING FOLK SONGS IN MUSIC LESSONS**

***Key words:*** *folk songs, melody, intonation, education, musical taste*

The article is devoted to the analysis of the possibilities of using folk songs in teaching. The purpose of the article is to educate students through music, help them develop national and moral values, grow in a creative spirit, and also reveal the importance of teaching folk songs.

The correct teaching of folk songs, which make up the majority of Azerbaijani folk music, is a very important issue for secondary school music teachers. Folk music is closer and more familiar to students, and therefore they perceive and assimilate it faster. Teaching children folk music, including folk songs, not only develops their highly artistic musical taste, but also serves to shape their personality, foster moral qualities and patriotism. Therefore, it is important to study and show ways of using folk songs in teaching in various ways - both traditional and advanced methods.

Xalq mahnıları Azərbaycan xalq musiqisinin böyük bir hissəsini təşkil edir. Bu irs müxtəlif tarixi şəraitlərdə öz şəklini bu və ya digər şəkillərdə dəyişmiş və inkişaf etmişdir. Xalq mahnıları çox qədim zamanlarda yaranmışdır və şifahi xalq ədəbiyyatının bir növüdür. Bu mahnılar uzun müddət Azərbaycan xalqı arasında ağızdan-ağıza gəzən, kollektiv yaradıcılıq məhsulu olan, müəllifləri məlum olmayan mahnılardır. Xalq mahnıları qədimlikdən, tarixdən xəbər verməklə yanaşı, Azərbaycan xalqının ruhundan süzülən mədəniyyətin bir parçasıdır.

Xalq mahnıları gözəllik, azadlıq, vətənpərvərlik ideyalarını təbliğ edir. Məhəbbətin tərənnümünə həsr olunmuş "Ahu kimi", Üçtelli durna","Bülbüllər oxur", "Gül açdı" və s. kimi mahnılarda sevgi duyğuları təbiət ilə əlaqələndirilir. İctimai-siyasi məzmunlu "Sona bülbüllər", "Qadan alım", "Çal papaq" və s.kimi mahnılarda sevgisinə qovuşa bilməyən aşiqin daxili böhranları, zorla vətənindən

didərgin salınan, əsir düşənləri ah-naləsi ifadə olunur. "Apardı sellər Saranı", "Samovara od salmışam", "Laçın", "Qalanın dibində" və s.bu kimi mahnılar isə həcmi, poetik quruluşu və kompozisiyasına görə bir-birindən fərqlənirlər.

Məlumdur ki, ümumtəhsil məktəblərimizdə tədris olunan «Musiqi» fənninin əsas vəzifəsi şagirdlərin musiqi tərbiyəsinə yönəlir. Musiqi dərslərində şagirdlər həm klassik musiqi ilə, həm də Azərbaycan xalq musiqi nümunələri ilə tanış olur və müəyyən biliklər əldə edirlər.

Ölkəmizdə bəstəkar və xalq musiqi nümunələri geniş yayılsa da, təəssüf ki, indiki zamanda insanlar arasında, xüsusən də yetişməkdə olan gənc nəslin nümayəndələri arasında bayağı mahnıları dinləyən bir kütlə də var.

Təcrübə göstərir ki, uşaqlar məktəbə daxil olarkən onlarda müxtəlif musiqi zövqləri olur. Bunun üçün musiqi dərslərində müəllim zəngin materiallardan istifadə etməklə şagirdlərin musiqi zövqünü formalaşdırmalıdır. Çünki yalnız bu dərs prosesində mümkün olar. Dərs zamanı şagirdlərdə musiqi zövqünün formalaşdırılması musiqi dinləmə və mahnı oxuma mərhələsində həyata keçirilir. Xalq mahnıları müxtəlif siniflərdə tədris olunur.

Belə ki, II sinif musiqi dərsliyində «Bənövşə», «Quzum», «Çal-oyna», III sinifdə «Sarı bülbül», IV sinifdə « Bağçada gül», «Qalanın dibində bir quş olaydım», «El yallı», V sinifdə «Şuşanın dağları», «Beşik Nəğməsi», «Qaçaq Nəbi», VI sinifdə «Sarı gəlin», «Sarı bülbül, « Laçın, «Ay bəri bax», «Hüsnü bağında», VII sinifdə « Qaçaq Nəbi», VIII sinifdə «Hüsnü bağında», «Küçələrə su səpmişəm», «Evləri var xana-xana», «Şuşanın dağları», «Gəldim», «Bugün ayın üçüdür», IX sinifdə «Çayımızın adı var», «Babanın yolu daşdı», «Bülbüllər oxur» , «Əlində sazın qurbanı», «Laçın» xalq mahnılarının dinlənilməsi və oxunması nəzərdə tutulur. Lakin müəllim təkcə dərslikdə verilən xalq mahnıları ilə kifayətlənməməli, mövzuya uyğun olaraq dərslikdə verilməyən mahnılardan da yeri gəldikcə istifadə etməlidir(təbii ki, müəllimin yaradıcılığı ön plana çəkilir). Öz təcrübəmizdən irəli gələrək, bir neçə sinifdə xalq mahnılarının tədrisinə nəzər salaq:

V sinif musiqi dərsliyində «Mahnının yaranmasında poeziyanın rolu» mövzusunda məqsədəuyğun olaraq, mahnı janrına geniş yer ayrılır. Bu mövzuda müəllim əvvəlcə şagirdlərə belə sual verə bilər:

– Hansı mahnıları tanıyırsınız?

Şagirdlər eşidib, bildikləri mahnıların adlarını söyləyir. Bəzi şagirdlər isə şer adını çəkir. Bu zaman müəllim şagirdlərə izah edir ki, şerdən fərqli olaraq mahnılarda musiqinin-melodiyanın olması mütləqdir. Əgər melodiya yoxdursa demək ki, o mahnı hesab edilə bilməz. Mahnı janrının yaranmasında söz və melodiyanın əlaqəsini izah etdikdən sonra, müəllim lövhədə mahnıları 3 qrupa ayıraraq yazır: 1) Xalq mahnıları; 2) Aşıq mahnıları; 3) Bəstəkar mahnıları. Beyin həmləsi iş üsulundan istifadə edərək , şagirdlərə sual verilir:

– Uşaqlar, əgər aşıq mahnıları aşıq şerindən və aşıq melodiyasından,

bəstəkar mahnıları şair şerindən və bəstəkar melodiyasından yaranırsa, bəs yaxşı xalq mahnıları necə yarana bilər? Şagirdlərdən bir neçəsi bu suala cavab verir:

– Xalq mahnıları xalq şerindən və xalq melodiyasından yaranır, ona görə də belə adlanır. Müəllim mövzuya davam edir. Uşaqlar, xalq mahnıları da bir və ya bir neçə şəxs tərəfindən yaradılmışdır, lakin bəstəkar və aşıq mahnılarından fərqli olaraq, onların kim tərəfindən yaradıldığı məlum olmadığı üçün , keçmişdən günümüzə qədər gəlib çıxmış və öz dəyərini saxlamış bu cür mahnıları biz xalq mahnısı adlandırırıq.

Mövzuya uyğun olaraq  şagirdlər «Şuşanın dağları» xalq mahnısını əvvəll xanəndə - Xan Şuşinskinin ifasında dinləyib, sonra isə oxumağa başlayırlar. Bu zaman sinif 3 qrupa ayrılır, hər bəndi bir qrup, nəqarəti isə ümumilikdə hamı oxuyur, mahnının ritminə uyğun olaraq əl çalırlar.  Mahnının bu cür oxunması şagirdlər tərəfindən daha maraqla qarşılanır,çünki bu zaman sanki bir oyun keçirilir və bir qrup digər qrupdan daha yaxşı oxumağa cəhd göstərir. Dərsin sonunda ev tapşırığı kimi uşaqlara, «Xan Şuşinski»nin ifasında səslənən xalq mahnılarını dinləmək tapşırılır.

VI  sinfin musiqi dərsliyində mövzuya uyğun «Sarı gəlin», «Sarı bülbül» və «Ay bəri bax» Azərbaycan xalq mahnılarının tədrisi nəzərdə tutulmuşdur.

Məsələn, «Bəstəkarların yaradıcılığında milli xüsusiyyətlər» mövzusunda müəllim bəstəkarların öz irihəcmli əsərlərində xalq musiqisindən, o cümlədən xalq mahnılarından istifadəsinə dair şagirdlərə məlumat verir. Qeyd edilir ki, bəstəkar Oqtay Rəcəbov "Soprano və Kamera orkestri üçün Konsert» əsərində «Sarı gəlin» xalq mahnısından istifadə etmişdir.

Daha sonra müəllim «Sarı gəlin» (mis. 1) xalq mahnısının birinci bəndini oxuyur, şagirdlər isə dərslikdən mahnının sözlərini izləyərək, müəllimi dinləyir. İkinci bəndi artıq şagirdlər müəllimlə bir yerdə oxumağa başlayırlar. Təbii ki, xüsusilə bu xalq mahnısının müəllimin özü tərəfindən ifası daha maraqla qarşılanır.

**Misal 1.** Azərbaycan xalq mahnısı "Sarı gəlin"



Digər «Klassik Azərbaycan muğamı - Segah» mövzusunda isə «Sarı bülbül» xalq mahnısının oxunması məqsədəuyğundur.

Dərsin əvvəlində motivasiya olaraq «Segah» muğamından bir hissə səsləndirilir. Muğam səslənərkən, müəllim «Segah» barədə qısa məlumatı şagirdlərə çatdırır və «Segah» ladının intonasiyalarına əsaslanan xalq mahnılarının adını çəkir («Sarıbülbül», «Evləri var xana-xana», «Qaçaq Nəbi», «Ay bəri bax»). Mövzuya uyğun olaraq müəllim adlarını söylədiyi mahnılardan hər hansı birini tədris edə bilər. Məsələn ¾ xanə ölçüsünə malik, asta tempdə olan «Sarıbülbül» xalq mahnısı əvvəlcə Səxavət Məmmədovun ifasında səsləndirilir. Mahnı səslənən zaman müəllim mahnıda sözlərlə melodiyanın bir-birini necə izləməsini aydınlaşdırır və mahmının tarixi haqqında qısa məlumat verir. Bundan sonra isə şagirdlər mahnını müəllimin köməyi ilə(müəllim uyğun ölçüdə dirijorluq edir) oxuyurlar.

"Xalq rəqsləri və balet" adlı mövzuda bəstəkar Əfrasiyab Bədəlbəylinin «Qız qalası» baletində istifadə etdiyi xalq rəqsləri və «Ay bəri bax» xalq mahnısı barədə qısa məlumat verilir. Müəllim qeyd edir ki, bəstəkar bu baletdə «Ay bəri bax» xalq mahnısından mahnı-rəqs janrı kimi istifadə etmişdir. Mahnını dinlədikdən sonra şagirdlər iki qrupa- oğlanlar və qızlar qrupuna ayrılır. Hər bəndin birinci və üçüncü misrasını oğlanlar, üçüncü və dördüncü misrasını isə qızlar oxuyur. Nəqarəti isə hər iki qrup bir yerdə oxuyur. Bu zaman mahnı sual-cavab oyun formasında ifa edilir və daha maraqla şagirdlər tərəfindən qarşılanır.

VII sinfin dərsliyində «Qaçaq Nəbi», «Qubanın ağ alması», «Şuşanın dağları» xalq mahnılarının mövzuya uyğun olaraq tədirisi nəzərdə tutulub.

«Musiqi obrazının xarakteri» mövzusunda dərsin gedişində motivasiya olaraq «Qaçaq Nəbi» xalq mahnısı dinlənilir. Bu zaman müəllim şagirdlərə belə bir sualla müraciət edir:

– Dinlədiyimiz bu xalq mahnısını xalqımız kim üçün səsləndirmişdir?

Şagirdlər cavab verir: – Bu mahnını xalqımız Qaçaq Nəbiyə həsr etmişdir.

Müəllim: – Qaçaq Nəbi kimdir?

Şagirdlər: – Qaçaq Nəbi xalq qəhrəmanıdır.

Müəllim: – Başqa hansı xalq qəhrəmanlarının adlarının bilirsiniz?

Şagirdlər: – Qaçaq Nəbidən başqa Koroğlu, Qatır Məmməd və s. xalq qəhrəmanları vardır.

Mahnını dinlədikdən sonra aydın olur ki, xalq bu mahnıda Qaçaq Nəbinin qəhrəmanlığından söz açmışdır. Mahnıda birinci bəndin sözləri Nəbinin dilindən, ikinci və üçüncü bəndin sözləri isə xalqın dilindən səsləndirilir. Müəllim həmçinin qeyd edir ki, 6/8 xanə ölçüsünə malik bu xalq mahnısı «Segah» ladının intonasiyalarına əsaslanır(misal 2.2). Mahnı şagirdlər tərəfindən də müəllimin köməyi ilə ifa olunur.

**Misal 1.2** Azərbaycan xalq mahnısı “Qaçaq Nəbi”




«Azərbaycan mahnılarında məkan obrazı» mövzusunda isə vətənin müxtəlif bölgələrinə həsr edilmiş xalq mahnılarının tədrisi məqsədəuyğundur. Dərsin gedişində motivasiya kimi Xan Şusinskinin ifasında « Şuşanın dağları» xalq mahnısı səsləndirilir.

VIII sinif musiqi dərsliyində «Rəşid Behbudov və Xalq musiqisi» mövzusundan istifadə edə bilərik. Şagirdlərə sinfə əvvəlki dərsdə olduğu kimi “Evləri var xana-xana” Azərbaycan xalq mahnısının təranələri altında daxil olurlar. Müəllim şagirdlərə başa salır ki, bu xalq mahnısını Bülbüldən sonra Rəşid tamamilə başqa tərzdə ifa etmişdir. Yəni bir mahnını bir neçə müğənni müxtəlif dövrlərdə oxuyaraq bu günə kimi gətirib çıxartmışlar. Daha sonra Fikrət Əmirovun “Sevil” operasından “Balaşın arıya”sı və “Gözəlim sənsən” Azərbaycan xalq mahnısını da Rəşid Behbudovun ifasında dinlədə bilərik. Aparılan müzakirələrdən sonra şagirdlər belə qənaətə gəlir ki, xalq musiqisini ifa edən müğənnilər, eyni zamanda professional bəstəkar musiqilərinin də ifaçısı ola bilər.

## ƏDƏBİYYAT


1. Qədimova J., Bağırova T.. Etnomusiqişünaslıq. “Elm və Təhsil” nəşriyyatı, Bakı ,2009, 378 s.
2. Abdullayeva Z.K. Azərbaycan xalq musiqi yaradıcılığı. Bakı, 2011, 143 s.
3. Qədimova J. Musiqinin tədrisi metodikası. Bakı, 2007, 323 s.
4. Rəcəbov O., Kazımov N., Ələkbərov Ə., Hidayətova F. Azərbaycan xalq musiqisi və musiqi müəllimi hazırlığı. Bakı: Mütərcim, 2012, 244 s.
5. Rəcəbov O., Kazımov N., İmanova O. “Musiqi” 5 sinif / Dərslik (78 səh.) və Müəllimlər üçün metodik vəsait. Bakı: “Təhsil”, 2012, 79 s.
6. Rəcəbov O., Kazımov N., İmanova O. “Musiqi” 6 sinif / Dərslik (92 səh.) və Müəllimlər üçün metodik vəsait. Bakı: “Təhsil”, 2013, 96 s.

7. Rəcəbov O., Kazımov N., Nuruqızı S.. "Musiqi" 7 sinif / Dərslik, Bakı, 2022, 95 s.
8. Rəcəbov O., Kazımov N., Hidayətova F. "Musiqi" 8 sinif / Müəllimlər üçün metodik vəsait, Bakı, 2019, 95 s.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 28.04.2024**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.06.2024**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.06.2024**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2024, **s. 46-50**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2024, **с. 46-50**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2024, **p. 46-50**

# ÜMUMİ PEDAQOGİKA, PEDAQOGİKANIN VƏ TƏHSİLİN TARİXİ

**UOT 78.06**

**A.H.Qəribova**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail:* qaribova.arifa@gmail.com
ORCİD ORQ: 0000-0001-8059-5566

## MUSİQİNİN QAVRANILMASINDA ƏDƏBİYYATIN ROLU VƏ YERİ

***Açar sözlər:*** *musiqi tərbiyəsi, ədəbiyyat, sinkretizm, sözün və musiqinin sintezi*

Məqalədə bədii sözün musiqinin düzgün qavranılmasına təsiri təhlil olunur. Burada qeyd olunur ki, insan dünyanı söz, səs, rəng, hərəkət, düşüncə və hisslər vasitəsilə qavrayır və vasitələr eyni olanda belə, qavrayışlar müxtəlif, fərdi olur. Fərdlərin fərqli yanaşması, qavrayışı nəticə etibarilə, ümumi dünyagörüşün formalaşmasına səbəb olur. Hər bir sənət özünəməxsus vasitə ilə dünyanın rəsmini çəkir: ədəbiyyat sözlə, musiqi səs, rəsm rənglə və s. Lakin hər bir sənət növü "çəkdiyi rəsm"in tamamlanması üçün digər sənət növünün köməyinə əl atır, dialoqa girir.

Dünya ədəbi-nəzəri fikrində söz və musiqinin qarşılıqlı əlaqəsinin fəlsəfi-estetik, pedaqoji aspektlərdən öyrənilməsinə onlarla tədqiqat işi həsr olunub. Bu iki sənətin qarşılıqlı əlaqələrindən bəhs edən nəzəri materiallarla tanış olarkən müşahidə edirik ki, məsələ daha çox musiqişünaslığın deyil, ədəbiyyatşünaslığın tədqiq obyektinə çevrilib.

**А.Г.Гарибова**

## РОЛЬ И МЕСТО ЛИТЕРАТУРЫ В ВОСПРИЯТИИ МУЗЫКИ

***Ключевые слова:*** *музыкальное воспитание, литература, синкретизм, синтез музыки и слова*

В статье анализируется влияние художественного слова на правильное восприятие музыки. Здесь отмечается, что человек воспринимает мир через

слова, звуки, цвета, движения, мысли и чувства, и даже при одних и тех же средствах восприятия различны и индивидуальны. В результате разный подход и восприятие индивидов приводит к формированию общего мировоззрения. Каждое искусство рисует картину мира своими средствами: литература словами, музыка звуком, живопись цветом и т. д. Однако каждый вид искусства использует помощь других видов искусства для завершения своей «картины» и вступает в диалог.

Изучению взаимодействия слова и музыки в мировой литературно-теоретической перспективе с философско-эстетического, педагогического аспектов посвящены десятки научных работ. Исследуя теоретические материалы, в которых говорится о взаимоотношениях этих двух искусств, мы замечаем, что данный вопрос стал объектом изучения литературоведения, а не музыкознания.

**A.H.Garibova**

## THE ROLE AND PLACE OF LITERATURE IN THE PERCEPTION OF MUSIC

***Key words:*** *musical education, literature, syncretism, synthesis of music and words*

The article analyzes the influence of artistic expression on the correct perception of music. It is noted here that a person perceives the world through words, sounds, colors, movements, thoughts and feelings, and even with the same means of perception are different and individual. As a result, the different approaches and perceptions of individuals lead to the formation of a common worldview. Each art paints a picture of the world with its own means: literature with words, music with sound, painting with color, etc. However, each type of art uses the help of other types of art to complete its “picture” and enters into dialogue.

Dozens of research works have been devoted to the study of the interaction between words and music in the world literary-theoretical view from the philosophical-aesthetic, pedagogical aspects. When we get acquainted with the theoretical materials that talk about the mutual relations of these two arts, we notice that the issue has become the object of study of literary studies rather than musicology.

Son illər ölkəmizdə böyüməkdə olan gənc nəslin musiqi tərbiyəsinə xüsusi diqqət verilir. Musiqi dərslərində məktəblilərin musiqi mədəniyyətinin inkişafı onlarda mənəvi-estetik hislərin formalaşmasına səbəb olur. Lakin “İncəsənət vasitəsilə tərbiyə təkcə dar estetik məqsədi həll etmir: o, şəxsiyyətin mənəvi və yaradıcılıq qabiliyyətlərini stimullaşdıran yüksək dərəcəli təsir qüvvəsidir” [3,

s.6]. Məktəblilərin musiqi yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməklə, müəllim onlarda incəsənət əsərlərini düzgün qavramaq, başa düşmək və qiymətləndirmək kimi keyfiyyətlər yaradır.

Hər bir xalqın əsrlər boyu yaratdığı müxtəlif forma və janrlar, musiqi nümunələri mövcuddur. Bu mənada Azərbaycan xalq mahnıları, rəqsləri, aşıq musiqisi nümunələri ilə bərabər, eyni zamanda qərinələrdən gəlib bizə çatmış muğamlara sahibdir. Musiqi əsərlərinin düzgün qavranılması – əsas məsələlərdən biridir. Bu prosesdə sözlə musiqinin vəhdəti böyük əhəmiyyət kəsb edir.

İnsan doğulduğu andan bəşəriyyətin bütün tarixi boyu və minilliklər boyu müxtəlif üsul və metodlarla tərbiyə olunur. Tərbiyənin ən erkən və ən təsirli yolu, fikrimizcə, musiqi ilə sözün sintezi yolu ilə həyata keçirilir. "Çünki söz mədəniyyətlərin təməl əsasıdır, insanları bir-birilə əlaqələndirən, ünsiyyət yolu ilə birləşdirəndir" [4, s. 9].

Müxtəlif sənət növlərinin nümayəndələrinin bədii yaradıcılığında ümumi üslub, oxşar estetik impulslar, ümumi vəzifələr – bütün bunlar onların sistemdə birləşməsinə təkan verir. "Dövrün bədii məzmununu incəsənətin bütün növləri açır və bu zaman qarşılıqlı zənginləşmə prosesi qaçılmazdır" [2, s. 8]. Musiqinin bədii sözilə bir-birinə qarışması, bəzən hətta birləşməsi bu iki sənət növünün mahiyyətindən irəli gəlir. Q.Neyqauz bu barədə belə yazır: "Musiqiçi sənətkardırsa, musiqinin poeziyasını necə hiss edirsə, şeir musiqisini də elə hiss edir. Onun üçün poeziya ahəngi, demək olar ki, saf səslərin ahəngindən, musiqi nitqinin ahəngindən daha gözəl və sirli bir hadisədir" [1, s.146].

Yeni musiqi proqramında müxtəlif incəsənət növləri arasındakı əlaqələr öz əksini tapmışdır. Proqrama daxil edilmiş "Ədəbiyyat olmasaydı, musiqinin vəziyyəti necə olardı?" və "Musiqi olmasaydı, ədəbiyyatın vəziyyəti necə olardı?" kimi mövzular müxtəlif incəsənət növlərinin bir-birilə sıx əlaqədar olduğunu müəyyənləşdirir.

İnsan dünyanı söz, səs, rəng, hərəkət, düşüncə və hisslər vasitəsilə qavrayır və vasitələr eyni olanda belə, qavrayışlar müxtəlif, fərdi olur. Fərdlərin fərqli yanaşması, qavrayışı nəticə etibarilə, ümumi dünyagörüşün formalaşmasına səbəb olur. Beləliklə, hər bir sənət özünəməxsus vasitə ilə dünyanın rəsmini çəkir: ədəbiyyat sözlə, musiqi səs, rəsm rənglə və s. Lakin hər bir sənət növü "çəkdiyi rəsmin" tamamlanması üçün digər sənət növünün köməyinə əl atır, dialoqa girir. Müxtəlif sənət sahələri əlaqəyə girərək mədəniyyətin metaməkanını yaradır, universal dil vasitəsilə təqdim olunmağa can atır.

Yeni dövrün geniş yayılmış tendensiyalarından biri – bütün sənət növlərinin söz sənətinin analoqu olaraq dəyərləndirilməsi, sənətlər sistemində onun ən əhəmiyyətli rola malik olmasıdır. Hətta daha irəli gedərək bütün sənət növlərini "metafizik morfologiya" kimi qəbullanma da xarakterikdir: sözü fonetik formadan dəyişməyə məruz qoyan yazı ədəbiyyatın sənətlər sistemindəki yerini "ədəbiyyat və incəsənət" bölgüsü şəklində müəyyənləşdirdi. Düşüncənin adekvat forması olan

ədəbiyyat bütün digər sənət növlərinə təsir etməyə başladı.

Morfoloji palitranın iki parlaq rəngi olan ədəbiyyat və musiqi sinkretizmdən konseptual sintezə qədər uzun yol keçmiş sənət növləridir. Genetik olaraq söz və musiqi sənəti bir-biri ilə bağlıdır: ilkin formada səs kimi mövcud olan söz sonradan yazıya çevrilib. Bu iki sənətin əlaqələrindən bəhs edərkən musiqiyə ədəbi gözlə dəyər vermək və ədəbi əsəri musiqi qulağıyla dinləmək vacib sayılır.

Ədəbiyyat və musiqinin qarşılıqlı əlaqəsi əsasən iki şəkildə təzahür edir:

1. Sintez yolu ilə (bu halda bədii mətndə hər hansı musiqi əsərinin, yaxud alətin adı çəkilər, haqqında bəhs olunar və s.)

2. İntermediallıq vasitəsilə (bu zaman bədii mətnin musiqinin prinsiplərindən təsirlənərək meydana gəlməsindən və ya əksinə proses-dən bəhs olunur.)

Qarşılıqlı əlaqənin bu iki növünü digər sənət növlərinə də aid etmək mümkündür.

İntermediallıq – bədii obrazlar və üslubi fəndlərin qarşılıqlı münasibətləri vasitəsilə ərsəyə gələn mədəniyyətlərin dialoqunun xüsusi formasıdır. Dar mənada intermediallıq – bədii əsərdə incəsənətin müxtəlif sahələrinin ədəbi kodları ilə qarşılıqlı əlaqəyə əsaslanan mətndaxili əlaqələrin xüsusi tipidir. Nisbətən geniş mənada isə mədəniyyətlər sistemində ədəbi məkan yaradılmasıdır. Lap sadə şəkildə ifadə etsək, bunu bütün incəsənət sahələrinin içində ədəbiyyatı aramaq və tapmaq hesab edə bilərik.

Ədəbiyyatla musiqinin qarşılıqlı əlaqəsinin kökləri ta qədim dövrlərə qədər gedib çıxsa da, romantizmin çiçəkləndiyi dövrdə ona xüsusi münasibət önə çıxdı. Digər sənətlərə məxsus xüsusiyyətləri mənimsəməyə çalışaraq hər bir sənət özünü tapır. Ədəbiyyat və musiqi əlaqələri haqqındakı çoxillik mübahisə və müzakirələr onun ətrafındakı diskussiyaların səngiməsinə səbəb olmur, əksinə, mütəxəssislər bu məsələyə hər dəfə yeni – fərqli aspektdən yanaşırlar.

Dünya ədəbi-nəzəri fikrində söz və musiqinin qarşılıqlı əlaqəsinin fəlsəfi-estetik, pedaqoji aspektlərdən öyrənilməsinə onlarla tədqiqat işi həsr olunub. Bu iki sənətin qarşılıqlı əlaqələrindən bəhs edən nəzəri materiallarla tanış olarkən müşahidə etdirik ki, məsələ daha çox musiqişünaslığın deyil, ədəbiyyatşünaslığın tədqiq obyektinə çevrilib.

Səs və sözün tandemi hər şeydən öncə, mahnıların və digər janrlarda musiqili sənət əsərlərinin meydana gəlməsinə səbəb olur. Ədəbiyyatın, xüsusən, poeziyanın musiqililiyi və musiqidə ədəbiyyatdan istifadə halları olmasaydı, bu sənət növlərinin janrları tamamlanmamış qalardı. Musiqi janrlarının bir çoxu – əsasında bədii mətn olan janrlardır (opera, balet, müzikl, romans, kantata, mahnı və s.).

Musiqi sözdə düşüncələrin formalaşmasıdırsa, söz musiqidə emosiya və hisslərin ən yüksək həddinə çata bilməsidir. Bəlkə də, musiqini "ədəbiyyatın səsli halı" adlandırsaq, haqlı olarıq. Bu orqanik əlaqə qanunauyğunluqdur, çünki musiqi və səslənən söz arasında xeyli ortaq cəhətlər var: intonasiya, temp, ritm, tembr,

diapazon, emosionallıq, melodiyalılıq və s.

Qədim yunan mifologiyasında musiqi və lirik poeziyanın ilahəsi olan Yevterpa əlində iki nəfəsli musiqi aləti ilə təsvir olunur. Çünki qədimdə şeirlər musiqinin müşayiəti ilə ifa olunurdu. Antik dövrdə və orta əsrlərdə daha çox karnavalların, tamaşa və şəbihlərin bir hissəsi olan musiqi XVI əsrin sonlarınadək Avropada ibadət prosesinə xidmət edirdi. Burada səs sözə fərqli mahiyyət qazandırmaq üçün vasitə idi.

XX əsrin əvvəllərində Azərbaycan üçün yeni olan qəzəl-romans janrının yaradıcısı dahi Ü.Hacıbəyli bu əsərlərdə nitqi, şeriyyatı yüksək sənətkarlıqla işləyərək musiqi dilinə çevirmiş, deklamasiya ilə kantilena tipli melodiyanın sintezini yaratmışdır.

Ümumiyyətlə, isə musiqi və sözün sintezindən yaranan əsərlərdə müəlliflərin sözü və səsi duymaq qabiliyyəti önəmli rol oynayır. Bəzən sözü musiqiyə zorla "oturdurlar", həmin əsər ortaya şikəst doğulmuş bir canlı orqanizm kimi çıxır – ya səs axsıyır, ya söz. Bəzən isə zəif mətn elə gözəl melodiya ilə sintez olunur ki, sözlərin mahiyyətcə boşluğu diqqətdən yayınır.

Beləliklə, musiqi əsərlərinin mahiyyətcə qavranılmasında, şagirdlərin mənəvi aləminin zənginləşməsində, onlarda incə hiss və duyğuların yaranmasında, daxili hissiyyatların biruzə verilməsində musiqinin ədəbiyyatla vəhdəti müstəsna rol oynayır.

## ƏDƏBİYYAT


1. Qədimova J. Musiqi pedaqogikası: tarixilik və müasirlik / Dərs vəsaiti. Bakı: "MBM", 2012, 224 səh.
2. Васина-Гроссман В. Музыка и поэтическое слово. Москва: «Музыка», 1978, 368 с.
3. Курбаналиева С. Музыкальный мир Низами Гянджеви / Монография. Киев: «Автограф», 2009, 264 с.
4. Багирова Т.А. Синкретизм искусств в воспитании индивидуума и социума / Monoqrafiya. Bakı: "Elm", 2005, 265 səh.
5. Нейгауз Г. Размышления, воспоминания, дневники, избранные статьи / Москва: «Советский композитор», 2010, 527 с.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 28.04.2024**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.06.2024**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.06.2024**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Firəngiz Hidayətova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 37.013**

**K.Q.İsmayılova**
pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail:* kamalaismayilova@yandex.ru

# BƏDİİ TƏHSİLİN İNKİŞAFI

***Açar sözlər:*** *Azərbaycan, təhsil, mədəni mühit, mədəniyyət, musiqi, bədii təhsil, mənəvi dəyərlər*

Azərbaycan müasir dövrdə dünyaya fəal şəkildə inteqrasiya edir. Milli mədəniyyətimizin qədimliyini, zənginliyini nəzərə alaraq, kontekst əhəmiyyətə malik bütün problemlər xüsusi aktuallıq kəsb edir. Bu mənada ən mühüm humanitar problemlərdən biri azərbaycançılıq adlanan anlayışın öyrənilməsi, xarakteriustikası, əsaslandırılması problemidir. Burada ən mühüm məsələ milli-spesifik xarakteristikalardan ibarətdir. Müasir sosial, bədii, mədəni prinsiplərlə səsləşən musiqi tərbiyəsi musiqi-pedaqoji prosesin vacib tərkib hissəsidir. Müasir dövrdə musiqi-pedaqoji prosesdə yaradıcı göstərişlərin formalaşmasına şərait yaratmaq, onu istiqamətləndirmək aktual problemlərindən biridir. Müasir musiqi problematikasına retrospektiv baxış onu deməyə imkan verir ki, musiqi-pedaqoji proses çərçivəsində tarixi-nəzəri müsiqişünaslığın problemlərinin öyrənilməsi bu gün son dərəcə vacibdir. Söhbət Azərbaycan musiqi mədəniyyətinin milli genofonduna olan marağın tərbiyə olunmasından gedir.

Ümumilikdə insan fəaliyyətini, davranış hərəkətlərini, mədəniyyətin bütün növlərini (əsasən məişət mədəniyyətini) mədəni mühit sferasına daxil etmək olar. Müasir mədəni mühitin müsbət tərəfə inkişafı bədii təhsildən daha çox asılıdır. Bədii təhsilin keyfiyyətinin yüksəldilməsi bilavasitə müasir mədəni mühitin yaxşılaşmasına gətirib çıxarır, o cümlədən Azərbaycanda müasir mədəni mühitin müsbət tərəfə inkişafı, mədəni-mənəvi dəyərlərin, mədəni irsin qorunub gələcək nəsillərə düzgün çatdırmaq missiyası bu gün bədii təhsilin yüksək inkişafı qarşıda duran vacib məsələlərdən biridir.

**К.Г.Исмайлова**

## РАЗВИТИЕ ХУДОЖЕСТВЕННОГО ОБРАЗОВАНИЯ

***Ключевые слова:*** *Азербайджан, образование, культурная среда, культура, музыка, художественное образование, моральные ценности*

В настоящее время Азербайджан активно интегрируется в мир. Учитывая древность и богатство нашей национальной культуры, все проблемы контекстуального значения приобретают особую актуальность. В этом смысле одной из важнейших гуманитарных проблем является проблема изучения, характеристики и обоснования понятия азербайджанства. Важнейшим вопросом здесь являются национальные особенности. Музыкальное образование, перекликающееся с современными социальными, художественными и культурными принципами, является важной составляющей музыкально-педагогического процесса. Создание условий для формирования творческих установок в музыкально-педагогическом процессе в современное время, его режиссура являются одной из актуальных задач. Ретроспективный взгляд на проблемы современной музыки позволяет сказать, что изучение проблем историко-теоретического музыкознания в рамках музыкально-педагогического процесса сегодня чрезвычайно важно. Речь идет о воспитании интереса к национальному генофонду азербайджанской музыкальной культуры.

В целом к сфере культурной среды можно отнести деятельность человека, поведенческие действия, все виды культуры (преимущественно бытовой культуры). Позитивное развитие современной культурной среды в большей степени зависит от художественного образования. Повышение качества художественного образования напрямую ведет к улучшению современной культурной среды, в том числе к позитивному развитию современной культурной среды в Азербайджане, миссией сохранения культурных и духовных ценностей и культурного наследия и правильной передачи их будущим поколениям является одна из важных проблем, стоящих сегодня перед высоким развитием художественного образования.

**K.G.Ismayilova**

## DEVELOPMENT OF ARTISTIC EDUCATION

***Key words:*** *Azerbaijan, education, cultural environment, culture, music, artistic education, moral values*

Azerbaijan is actively integrating into the world in modern times. Taking into account the antiquity and richness of our national culture, all the problems of contextual importance are of special relevance. In this sense, one of the most important humanitarian problems is the problem of studying, characterizing and justifying the concept called Azerbaijaniness. The most important issue here is national-specific characteristics. Musical education that resonates with modern social, artistic and cultural principles is an important component of the music-pedagogical process. Creating conditions for the formation of creative instructions

in the music-pedagogical process in modern times, directing it is one of the urgent problems. A retrospective look at the problems of modern music allows us to say that the study of problems of historical and theoretical musicology within the framework of the music pedagogical process is extremely important today. It is about cultivating interest in the national gene pool of Azerbaijani musical culture.

In general, human activity, behavioral actions, all types of culture (mainly household culture) can be included in the sphere of cultural environment. The positive development of the modern cultural environment depends more on artistic education. Improving the quality of artistic education directly leads to the improvement of the modern cultural environment, including the positive development of the modern cultural environment in Azerbaijan, the mission of preserving cultural and spiritual values and cultural heritage and correctly conveying them to future generations is one of the important issues facing the high development of artistic education today.

Əsrlər boyu insan cəmiyyəti musiqiyə mənəvi ehtiyac duyub. Ümumiyyətlə, dünya musiqi mədəniyyəti tarixi cəmiyyətin musiqi və musiqiçilərə münasibətinin müxtəlif modellərini tanıyır. Bir neçə onillik öncə klassik musiqi mədəniyyəti və təhsilinin nüfuzu danılmaz idi. Musiqi təhsili və mədəniyyətinin önəm və vacibliyini heç kimə sübut etməyə ehtiyac yox idi. Fərqli olaraq, indi mədəniyyət və incəsənət müasir cəmiyyətin qəbul etdiyi dəyərlər sırasında deyil.

Hələ ibtidai icma quruluşunda musiqi gündəlik həyatın tərkib, mərasim hissəsi idi. Musiqi ilə hamı məşğul olurdu, yalnız «dinləyici auditoriyası» yox idi. Musiqidə professionallaşma səhnə və digər incəsənət sahələri ilə əlaqədə yaranır. Burada dövlət xadimlərinin rolu daha qabarıqdır. Belə ki, musiqi və incəsənətin inkişaf səviyyəsi onların müvəffəqiyyət və qüdrətinin təsdiqi idi.

Mədəniyyət sahəsində təhsil, treninqlər və tədqiqatlardan bəhs edərkən, öncə belə bir cəhəti vurğulamaq istəyirəm ki, mədəniyyət və incəsənət sahəsində təhsilin Azərbaycanda çox əsrlik tarixi var.

Müasir dövrdə hər bir insan musiqi ilə digər incəsənət növlərinə nisbətən daha çox təmasda olur. Aparılmış tədqiqatlara görə, insan hər gün orta hesabla iki saat müxtəlif növ musiqinin təsirinə məruz qalır. Kütləvi informasiya vasitələri, televiziyanın efir vaxtının demək olar ki, əsas hissəsinin şou proqramlar vasitəsilə populyar, yüngül musiqinin təbliğ etdiyi bir vaxtda peşəkar musiqiçilərin fəaliyyətsiz qalması, biganəliyi ümumilikdə musiqi mədəniyyətinin tənəzzülünə gətirib çıxarır. Elit hesab olunan klassik musiqi, opera sənəti keyfiyyət baxımından çox zaman mübahisə doğuran populyar musiqiyə nisbətən xeyli az auditoriya toplayır və bu audtoriyanın da əksəriyyətini musiqiçilər özləri, qalan hissəsini isə əcnəbilər təşkil edir. Çox güman ki,

əcnəbilər bizim musiqiçilərin səviyyəsini lazımınca qiymətləndirirlər. Təəssüf ki, bu marağı biz onlarla bölüşmürük. Belə bir şəraitdə kütlənin musiqi tərbiyəsi, musiqi duyumunun formalaşması məhz peşəkarlar tərəfindən həyata keçirilməlidir. Bu işin əsas hissəsi musiqiçilərin, media yayım vasitələrinin üzərinə düşür. Bu baxımdan dinləyici auditoriyasına seçim imkanı verilməlidir. Əfsuslar olsun ki, bir çox ölkələrdən fərqli olaraq, bizdə hələ də klassik və caz musiqisi, ədəbi proqramlar yönümündə fəaliyyət göstərən radiostansiya yoxdur.

Musiqi mədəniyyətinin yayılması və mənimsənilməsi kortəbii olduğu kimi, mütəşəkkil qaydada da həyata keçirilə bilər. Nəzəriyyədə mədəniyyətin kortəbii mənimsənilməsi (dil, norma, dəyər, sənət əsərlərinin qavrayıb dərketmə qabiliyyəti) adətən kobud ifadə etsək, mədəniyyətin yeridilməsi adlanır. Bu proseslər çox dinamik şəkildə ailədə (ailə tərbiyəsi), yaşadığı mühitdə, həmyaşıdlarla ünsiyyətdə inkişaf edir. Mədəniyyətin mütəşəkkil qaydada yayılması isə mədəni prosesləri inkişaf etdirən müəssisələr tərəfindən həyata keçirilir.

Müasir praqmatik həyatda musiqi mədəniyyəti yaşamaq hüququnu sübut etmək məcburiyyətindədir. Həqiqət ondan ibarətdir ki, musiqi mədəniyyətinin aparıcı qüvvələri, yəni musiqiçi və müəllimlərdən başqa bunu heç kim öhdəsinə götürməyəcək. Yalnız musiqiçilər cəmiyyətin şüurunda musiqi təhsili və mədəniyyətinin ümumbəşər dəyəri barədə təsəvvürləri yenidən bərpa edə bilər.

Ümumiyyətlə, kütlənin zövqünün formalaşdırılmasının mümkün və vacib olduğu artıq hamı üçün bəllidir. Bununla biznes və elmin marketinq, reklam, psixologiya, sosiologiya kimi sahələri məşğul olur. Müasir dövrdə biznesin ən yeni texnologiyalarının musiqi mədəniyyəti və təhsilinin inkişafı istiqamətində çalışması zərurəti yaranıb. Məhz ona görə müasir musiqi mədəniyyəti və təhsili sahəsində musiqi menecmenti ixtisası üzrə peşəkarların hazırlanmasına böyük ehtiyac duyulur. «Management» sözünün hərfi mənası idarəetmə, müdiriyyət deməkdir. Bir çox inkişaf etmiş ölkələrin təhsil sisteminə nəzər salsaq, axırıncı beş il ərzində orta və ali təhsil müəssisələrində musiqi menecmenti üzrə xüsusi fakültə və şöbələrin açıldığını müşahidə edə bilərik. Klassik musiqinin inkişafına xidmət edə biləcək peşəkarların nəinki iqtisadiyyat, biznes sahəsində bilikləri, həmçinin klassik musiqi təhsilinin də olması şərtdir. Bu ixtisas (musiqi menecmenti) bir çox ali musiqi təhsil ocaqlarında tətbiq edilir. Bu elm musiqi menecmentinin spesifikasını aşkarlamaq, musiqi təhsili və mədəniyyətinin biznes qanunlarına uyğun qeyri-sabit iqtisadi və sərt rəqabət şəraitində inkişaf etdirə biləcək təşkilatçı və idarəçilərin yeni nəslinin yetişdirilməsinə xidmət edir.

Menecment bilikləri musiqiçiləri xalqının mədəniyyət və dəyərlər toplusunun formalaşmasında öz rolları barədə düşünməyə imkan yaradır.

Fikrimcə, menecer dinləyicilərlə musiqi mədəniyyəti arasında əsas vasitəçidir. Adətən, fəal şəkildə nə isə etməyə çalışanları menecer adlandırırlar.

Mədəniyyət və incəsənət sahəsində mütəxəssis hazırlayan tədris müəssisələrinin müxtəlif tabeçilikdə olmasını da mövcud problemlərin sırasına daxil etmək olar. Mədəniyyət sahəsi üçün kadr hazırlayan bütün tədris müəssisələrinin Mədəniyyət Nazirliyinin tabeliyində olduğu keçmiş sovet respublikalarından fərqli olaraq, Azərbaycanda mədəniyyət və incəsənət sahəsində yalnız ibtidai bədii təhsil verən tədris müəssisələri Mədəniyyət və Turizm Nazirliyi sisteminin tərkibindədir. Belə ki, uşaq musiqi, rəssamlıq, incəsənət məktəbləri və ölkədə yeganə olan xoreoqrafiya məktəbi Mədəniyyət və Turizm Nazirliyinin, orta ixtisas və ali məktəblər - texnikumlar, kolleclər, akademiyalar və universitetlər isə Təhsil Nazirliyinin tabeliyindədir.

1966-cı ildən mədəniyyət işçilərinin respublika hazırlıq və ixtisasartırma kursu fəaliyyət göstərir; bu kursda Mədəniyyət və Turizm Nazirliyi sistemində çalışan işçilər bütün kateqoriyalar üzrə (rayon, şəhər mədəniyyət şöbələrinin müdirləri, teatrların, konsert müəssisələrinin, mərkəzləşdirilmiş kitabxana sistemlərinin, muzeylərin, uşaq musiqi, rəssamlıq, incəsənət məktəblərinin, klubların, mədəniyyət evlərinin, şəkil qalereyalarının və s. rəhbərləri və digər əməkdaşları) öz ixtisaslarını artırırlar.

İldən-ilə kurs dinləyicilərinin kontingenti və kateqoriyaları artır. Milli sənətşünaslıq sahəsində elmi-tədqiqat mərkəzi Azərbaycan Milli Akademiyasının Memarlıq və İncəsənət İnstitutudur. Bu institutun vəzifələrindən biri qədim dövrlərdən bu günə kimi Azərbaycan incəsənətinin tarixi və nəzəriyyəsini öyrənməkdir. Bu vəzifə prinsip etibarilə 1980-cı illərin ortalarında yerinə yetirilib. Həmin dövrdə üççildlik "Azərbaycan incəsənəti tarixi" kitabı çapa hazırlanıb.

Milli mədəniyyət və incəsənətin bundan sonrakı tədqiqi, fikrimcə, iki istiqamətdə aparılmalıdır. Birincisi, bədii yaradıcılığın bütün növ və janrları əhatə edilməklə Azərbaycanın ümumi incəsənət tarixi yaradılmalıdır. İkincisi, Azərbaycan incəsənətinin etnokultur identifikasiyasına, onun mənşəyi probleminin həllinə, qlobal sivilizasiya proseslərində onun rolu və yerinin müəyyən edilməsinə yönəldilən kulturoloji tədqiqatların spektrini genişləndirmək və dərinləşdirmək lazımdır.

Müasir mədəni mühit nə qədər mədəni olarsa, imkanlar diapazonu bir o qədər geniş olur.

Klassik musiqi mədəniyyətinə marağın itməməsi üçün müasir dövrün tələbləri ilə ayaqlaşmaq, onunla həmahəng olmağı zaman diqtə edir.

Yuxarıda sadaladığımız mədəni mühitlə eyni zamanda məişət mədəniyyəti problemlərin həlli yoluna bədii təhsil vasitəsi ilə çatmaq olar.

**Məqalənin aktuallığı:** Müasir dövrdə Azərbaycanın musiqi mədəniyyətinin inkişafına, təbliğinə xidmət etmək, hər bir musiqiçinin qarşısında duran ən ümdə vəzifələrdəndir. Onilliklərdən sonra gələcək nəslin öz mədəniyyətini tanıması, sevməsi və ümumilikdə ona münasibəti bizim bugünkü fəaliyyətimizdən asılıdır.

## ƏDƏBİYYAT


1. Qədimova J.H. Musiqi pedaqoqikası: tarixilik və müasirlik. Bakı, 2012, 222 s.
2. Zamanlı S.A.Təlimdə yeni metodlardan istifadə. Bakı, 2001, 357 s.
3. Rəcəbov O., Miriyev İ. Musiqi və mənəvi tərbiyə. Bakı, 1995
4. Həsənova A. Milli mənəvi dəyərimiz". Bakı, Elm və Təhsil, 2010, 360 s.
5. Əsgərov Ş. Təhsilimiz dünən, bugün, sabah. Bakı: Azərbaycan nəşriyyatı, 2003. 280 s.
6. Ağayev Ə.A. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006
7. Abdullazadə, G.A. Şərq və Qərbin qədim və orta əsr mədəniyyətində cəmiyyət, insan və musiqi / G.A.Abdullazadə. - Bakı: Qartal, 1996. – 288 s.
8. Qurbanov B. "Azərbaycan incəsənəti: təriflər, təhriflər. Bakı: Araz, 2001, 192 s.
9. Elçin "Klassiklər və müasirlər". Bakı: Yazıçı, 1987, 406 s.
10. Hidayətova F. "Musiqi və vətəndaşlıq tərbiyəsi". Bakı: Şirvannəşr, 2009. 188 s.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 28.04.2024**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.06.2024**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.06.2024**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nelli Abutidze**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2024, **s. 57-63**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2024, **с. 57-63**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2024, **p. 57-63**

**UOT 37.01:371.31**

**G.H.Əlixanova**
psixologiya üzrə fəlsəfə doktoru, baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail:* gülnare.alixanova@mail.ru

# İNSANLARI QAVRAMA VƏ ANLAMA PROBLEMİNİN BƏZİ MƏQAMLARI

***Açar sözlər:*** *davranış, mədəniyyət, subyekt, obyekt, empatiya, rabitə, qavrayış*

İnsanın özü ilə bağlı düşüncələri, qiymətləndirmələri, mühakimələri və inancları şəxsiyyətin zahiri, görünən təzahürləri ilə bağlı olduğundan onlar haqqında sakitcə danışa bilir. Əslində bura insanın başqalarından gizlətdiyi, özü üçün əlçatan olan özünəməxsus xüsusiyyətlərinə verdiyi qiymətləndirmələri və tam dərk etmədiyi, lakin onu narahat edən, həyəcanlandıran hisslər də daxildir. Çox vaxt insanın özündən yaxa qurtarmaq, repressiya etmək və ya tamamilə unutmaq istədiyi "mən" obrazının bu elementləri ətrafındakı insanların qavrayışında və dərk edilməsində çətinlik və problemlər mənbəyinə çevrilə bilir. Bunlara həll olunmayan müxtəlif daxili, təmin edilə bilməyən və bəzi mənfi istəklərlə bağlı münaqişələr də daxidir.

Adekvat və dərin özünü tanımağa qarşı ən ciddi maneələrdən biri "mən" in psixoloji müdafiə sistemidir. Çox vaxt bu, real və ya xəyali təhlükə qarşısında şəxsiyyətin təhlükəsizliyini təmin etmək üçün fərd tərəfindən hazırlanmış şüursuz vasitələr toplusudur. Bu, çox vaxt bizə gündəlik çətinliklərin öhdəsindən gəlməyə, reallıqla ağrılı qarşılaşmalardan qaçmağa və s. kömək edir.

**Г.Г.Алиханова**

# НЕКОТОРЫЕ МОМЕНТЫ ПРОБЛЕМЫ ВОСПРИЯТИЯ И ПОНИМАНИЯ ЛЮДЕЙ

***Ключевые слова:*** *поведение, культура, субъект, объект, эмпатия, общение, восприятие*

Поскольку мысли, оценки, суждения и убеждения человека о себе связаны с внешними, видимыми проявлениями личности, он может говорить

о них спокойно. По сути, оно включает в себя оценки, которые человек скрывает от других, придает своим собственным характеристикам, которые ему доступны, а также чувства, которые он не до конца понимает, но которые его тревожат и волнуют. Зачастую эти элементы образа «Я», от которых человек хочет избавиться, подавить или полностью забыть, могут стать источником трудностей и проблем в восприятии и понимании окружающих его людей. К ним относятся конфликты, связанные с различными внутренними, неудовлетворитель-ными и некоторыми негативными желаниями, которые невозможно разрешить.

Одним из самых серьезных препятствий на пути адекватного и глубокого самопознания является система психологической защиты «Я». Зачастую это совокупность бессознательных средств, выработанных личностью для обеспечения безопасности личности перед лицом реальной или воображаемой опасности. Часто это помогает нам справиться с повседневными проблемами, избежать болезненных столкновений с реальностью и т. д.

**G.K.Alikhanova**

## SOME MOMENTS OF THE PROBLEM OF PERCEPTION AND UNDERSTANDING OF PEOPLE

***Key words:*** *behavior, culture, subject, object, empathy, communication, perception*

Since a person's thoughts, evaluations, judgments and beliefs about himself are related to the external, visible manifestations of personality, he can talk about them calmly. In fact, it includes the evaluations that a person hides from others, gives to his own characteristics that are available to him, and also the feelings that he does not fully understand, but which disturb and excite him. Often, these elements of the image of "I" that a person wants to get rid of, repress or completely forget can become a source of difficulties and problems in the perception and understanding of the people around him. These include conflicts related to various internal, unsatisfiable and some negative desires that cannot be resolved.

One of the most serious obstacles to adequate and deep self-knowledge is the psychological defense system of the "I". Often it is a set of unconscious means developed by the individual to ensure the safety of the personality in the face of real or imagined danger. It often helps us cope with everyday challenges, avoid painful encounters with reality, etc. helps.

Gündəlik həyatımızda bir çox insanlarla qarşılaşırıq. Davranışlarını müşahidə edirik, onları dinləyirik və nəticə olaraq həmin insanları anlamağa çalışırıq. Çox vaxt bizə elə gəlir ki, insanın psixi xüsusiyyətləri: onun mövqeyi, istəkləri, hissləri - fiziki xüsusiyyətləri ilə eyni şəkildə tərəfimizdən qəbul edilir. Başqalarını qavramağa və izah etmə prosesinə bir çox amil və şərait təsir edir. Bunun necə baş verdiyini daha yaxşı başa düşmək üçün üç əsas elementə diqqət yetirilməlidir:

1. Qavranılan, baxılan və başa düşülməyə çalışılan insanın şəxsiyyəti;
2. Qavranılan subyektə baxan və dərk edənin şəxsiyyəti;
3. İdrak və qavrayış prosesinin baş verdiyi situasiya.

Çox vaxt qavrayışın subyekti və obyekti kimi ayrı-ayrı insanlar deyil, sosial qruplar çıxış edir. Eyni oyunda qarşılaşan iki idman komandası yalnız qələbə üçün mübarizə aparmırlar, onlar həm də rəqibinin güclü və zəif tərəflərini öyrənməyə çalışırlar. Digər qrup və ya fərdlərin necə qəbul ediləcəyinin xarakteri əsasən qrupun, kollektivin özünün xüsusiyyətlərindən asılıdır. Qavrayış obyekti bütöv bir qrupa çevrildikdə, onun kollektiv "mən"ini dəqiq qurmağa və müəyyən etməyə çalışılır. İnsanların bir-birini qavramasının dörd vəziyyəti ayırd edilir:

- fərd başqa bir fərdi qəbul etdikdə;
- fərd bir qrupu qəbul etdikdə;
- qrup fərdi qəbul etdikdə;
- qrup qrupu qəbul etdikdə [2, s. 330-334].

Çox vaxt bu vəziyyətlər birləşir və bir-birinə bağlı olur. Bu dörd mümkün qavrayış situasiyasının birləşməsi və bir-birinə qarışması: "mən - o", "mən - onlar", "biz - o", "biz - onlar" insanlar haqqında təsəvvürlərin və mühakimələrin təbiətində əks olunur.

Bir insanın başqalarının onu necə qəbul etdiyinə dair fikri əsasən onun davranışını müəyyən edir. D.Nutti "Şəxsiyyətin quruluşu" kitabında qeyd etdiyi kimi, "təkcə fərdlər deyil, bütöv qruplar, təşkilatlar və ya icmalar da onların başqaları tərəfindən necə qəbul edildiyinə və qiymətləndirildiyinə böyük əhəmiyyət verir. Başqalarının bizi necə qəbul etdiyinə dair müxtəlif fərziyyələr və fikirlər, digər insanların geniş miqyaslı yanlış təsəvvürlərinə və anlaşılmazlıqlarına səbəb ola bilər. Xüsusilə, bu, insanın əslində özü üçün etdiyi qiymətləndirmə və mühakimələri başqalarına aid etməkdə ifadə edilə bilər".

İnsanların fikirlərini nə müəyyənləşdirir? Başqalarının qavrayışına və anlayışına təsir edən bir çox amillər varsır: yaş, cins, peşə, fərdi şəxsiyyət xüsusiyyətləri: "mən – obraz" və özünü qəbul etmə səviyyəsi. İnsan nə qədər yaşlı olarsa, başqalarını daha yaxşı başa düşdüyünə dair geniş yayılmış təsəvvür yalnız inanc rolunu oynayır. Çünki bu fikir bir çox eksperimental tədqiqatlarda təsdiqlənməmişdir. Fikrimizcə, fərdi və şəxsiyyət ilə əlaqəli bir sıra xüsusiyyətlər cins və yaşdan daha vacibdir. Məsələn, bu prosesdə "mən - obraz" və

özünüqiymətləndirmə çox mühüm rol oynayır. Onlar insanlarla münasibətlərə təsir edən müxtəlif amillərin əsaslandığı psixoloji təməldir [3, s. 20].

Başqa insanları qavramaq və anlamaq problemi, onlarla əlaqə qurduqda və saxladıqda yaranır. Başqalarının bizi necə başa düşməsi böyük dərəcədə davranışımızdan asılıdır - biz başqalarının bizi düzgün qəbul etməsinə kömək edə və ya mane ola bilərik. Hər kəs özünə bu sualları verə bilər: "Başqa insanlar məni yaxşı tanıyırmı?", "Məni başa düşmək onlar üçün asandırmı?", "Mən özümü tanıyıram və başa düşürəmmi?", "Başqalarına məni daha yaxşı başa düşməyə kömək edirəmmi?". Burada ən yaxşı və ən təcili yardım insanın öz açıqlamasıdır.

Açıqlıq, ilk növbədə, insanlarla münasibətlərdə dürüst və təbii olmaq bacarığıdır. Bu cür davranış, mütləq qarşılıqlı anlaşmanın təminatı olmasa da, başqalarının bizi daha yaxşı başa düşməsinə kömək edir. Özünü dərketmə və açıqlıq arasındakı əlaqə, iki psixoloqun adını daşıyan "Cohari Pəncərəsi" adlı modeldən istifadə etməklə təsvir edilə bilər. Modelə uyğun olaraq, təsəvvür etmək olar ki, hər bir insan öz daxilində, sanki, şəxsiyyətinin dörd "məkanı"nı daşıyır. Şəxsiyyətin açıq və qapalı "məkanları" [1, s. 145].

| **Mənə məlumdur** | **Mənə məlum deyil** |
|---|---|
| I. Mənə və digər insanlar üçün açıqdır. | II. Mənə qapalıdır, amma başqalarına açıqdır. |
| III. Mənə açıqdır, lakin digər insanlar üçün bağlıdır. | IV. Həm mənə, həm də başqalarına bağlı və əlçatmazdır. |

Bir insanla ünsiyyətin başlanğıcında "məkanların" ölçüləri:

| | |
|---|---|
| I. | I I. |
| I I. | I V. |

Yaxın və orijinal əlaqələrin qurulması nəticəsində yaranan "məkanların" ölçüləri:

| | |
|---|---|
| I. | I. |
| I I I. | I. |

Modeldən göründüyü kimi, insanlar arasındakı münasibətlərin möhkəmlənib dərinləşməsi açıq və başa düşülən "məkanların" ölçüsünün artmasına, fərdin qapalı və dərk edilməsi üçün əlçatmaz "məkanların"

ölçüsünün azalmasına səbəb olur. Biz açıq olduğumuz zaman başqalarının bizim haqqımızda daha çox öyrənmək imkanı olur ki, bu da yaxşı qarşılıqlı anlaşma və eyni zamanda özünü daha dərindən tanımaq ehtimalını artırır. Özümüzü başqalarından bağladığımız zaman özümüzdən daha az xəbərdar oluruq. Başqalarına açılmaqla biz onların əvvəllər bizim üçün əlçatmaz olanı özümüzdə görməyə kömək edəcəklərinə müəyyən zəmanət əldə edirik.

Başqalarına təqdim edə biləcəyimiz və onların davranışlarına reaksiyamızı ehtiva edən məlumatın, yəni əks əlaqənin məqsədi, ilk növbədə, başqalarına onların hərəkətlərini necə qəbul etdiyimizi, bizdə hansı hissləri oyatdıqlarını, vəziyyətimizə və davranışımıza necə təsir etdiyini daha çox dərk etmələrinə kömək etməkdir. Tərəfdaşın bizim tərəfimizdən təhlükə hiss etməməsi və onda psixoloji özünümüdafiəyə səbəb olmamaq üçün rəy bildirmək bacarığı son dərəcə vacibdir. Burada əks əlaqənin effektivliyini artıran bəzi məqamları qeyd etmək lazımdır:

- şərhlərdə ilk növbədə tərəfdaşın şəxsiyyətinə deyil, davranışının xüsusiyyətlərinə toxunmaq lazımdır;
- bir şəxs kimi onun fikirləri haqqında deyil, tərəfdaşın konkret hərəkətləri haqqında danışmağa çalışmaq məqsədəuyğundur;
- əldə edilən nəticələrdən daha çox müşahidələr haqqında danışmaq yerinə düşər, müşahidələr gördüklərimiz və ya eşitdiklərimizin təsviridir, nəticələr isə gördüklərimin şərhinin nəticəsidir, real faktlara əsaslanan fərziyyələrdir.
- Mühakimə deyil, təsviri olmağa çalışaq. Təsvir edərkən nə baş verdiyini və ya hazırda baş verənləri qeyd edək.
- Qiymətləndirmələr apararkən yaxşı və pis, doğru və yanlış, xoş və xoşagəlməz sadə kateqoriyalardan istifadə edilməlidir.
- Diqqət uzaq keçmişin bəzi qeyri-müəyyən hekayələrinə deyil, çox yaxınlarda baş verən situasiyalarda tərəfdaşın konkret hərəkətlərinə yönəlilməlidir;
- Davranış adətən müəyyən yer və zamanla əlaqələndirilir. Bu əlaqəni görə bilmək, insan davranışı haqqında çox şey başa düşmək hesabını verir;
- Mümkün qədər az məsləhət vermək lazımdır. Başqası haqqında fikirləri onunla bölüşdükdə, alınan məlumatdan necə istifadə edəcəyinə sərbəst qərar vermək hüququ ona buraxılmalıdır [4, s. 67-69].

İnsanlar həmişə başqalarının davranışlarına öz reaksiyalarını açıq şəkildə nümayiş etdirməyə hazır olmurlar. Onlar daha tez-tez hisslərini gizlədirlər, çünki başqasını incitməkdən, onun qəzəbinə səbəb olmaqdan qorxurlar, lağ edilmək və ya rədd edilmək istəmirlər. Əgər tərəfdaşa incə və bacarıqla rəy bildirilsə bütün bunların qarşısını almaq olar. Bu bacarıq sayəsində başqa insanlarla daha dərin və səmimi əlaqələr qurmaq mümkündür. Ünsiyyət prosesində qarşılıqlı etimad və qarşılıqlı bilik arasında birbaşa

əlaqənin olduğunu görmək çətin deyil. Tərəfdaşlar nə qədər açıq olsalar, bir o qədər yaxşı başa düşüləcəklər. Səmimi reaksiyalara cavab olaraq qəbul edilmiş və heç bir şeyin təhdid etmədiyini başa düşdükdə güvən də güclənir. Bəzi insanlar müəyyən məqamlarda başqasından yalandan şübhələnirlər və təəssüf ki, bəzən buna haqq qazandırılır. Bu, insanın başına gələn ən böyük bəlalardan biridir. Çox vaxt başqalarına qarşı qlobal inamsızlıq özünə inamsızlıqla birləşir [5, s. 77-79].

Ünsiyyət qurulan zaman insanın daxili proseslərini və hallarını dərk etmək bacarığı empatiya adlanır. Empatiya başqa bir insanın daxilində baş verənləri, onun nələr yaşadığını, nəyə can atdığını, özünü və ətrafındakı dünyanı necə qavradığını və qiymətləndirdiyini düzgün təsəvvür etmək bacarığına əsaslanır. İnsanlara baxmaq və hadisələri onların gözü ilə qavramaq bacarığı başqalarını anlamaq üçün son dərəcə vacibdir. Empatiya fenomenini izah edən iki anlayış vardır və onlar bu fenomen üçün iki əsas mexanizmə işarə edir:

Birinci konsepsiyaya görə, empatiya bənzətmə ilə nəticə çıxarmaqla mümkündür. Başqa bir konsepsiyaya görə, empatiya təxəyyüldən istifadə edərək başqa bir insanın həyat vəziyyətini və onun oynadığı rolları hiss etmək bacarığına əsaslanır [6, s. 403].

Hər bir insanıən təxəyyülündə canlandıra biləcəyi az - çox müxtəlif rollar, mövqelər və situasiyalar repertuarı var və aydındır ki, iki fərqli insanın iki eyni repertuarı ola bilməz. Başqalarının dünyasının bu daxili təmsili insanın şəxsiyyətinin bir hissəsi olsa da, bəzən elə hiss olunur ki, biz əslində başqa bir insanın daxili dünyasına daxil oluruq. Bu hiss özünə inamla müşayiət olunur: "Mən ona nə baş verdiyini dəqiq bilirəm." Bu cür fikirlərin formalaşma mexanizminin nədən ibarət olduğu dəqiq bilinmir. Lakin məlumdur ki, onların seçimi sistemli və nizamlı zehni fəaliyyətə deyil, intuisiyaya əsaslanır. Ona görə də insanların münasibətlərdə, qarşılıqlı anlaşmada hər hansı problemi varsa, bu fiqurların hər birinin obrazını, oynadıqları rolları anlamağa çalışmalıdırlar. Bu fiqurların əksəriyyəti insanların təxəyyülündə canlandırılsa da, özünü və başqalarını bu görüntülərə uyğunlaşdırmaq cəhdləri real olduğu üçün onların varlığı da realdır.

**Məqalənin aktuallığı.** İnsanları qavrama və anlama probleminin bəzi məqamları məsələlərində müasir cəmiyyətin qarşısında duran vəzifələrin yerinə yetirilməsi prosesinin səmərəliliyinin təhlilini verməkdən ibarətdir.

**Məqalənin elmi yeniliyi.** İnsanları qavrama və anlama probleminin inkişafı xüsusiyyətlərinin formalaşmasına təsir göstərən cəmiyyətin və ətraf mühitin rolununun müəyyənləşdirməsindən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, psixoloq və pedaqoqlar, eləcə də ali və orta ixtisas məktəblərinin tələbə və magistrləri istifadə edə bilərlər.

## ƏDƏBİYYAT


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. – Bakı, 2003. 356 s.
2. Əmiraslanova S.F. Ünsiyyətdə maneələr və onların aradan qaldırılması haqqında / ADU-nun «Elmi xəbərləri», 2003, №3, s. 330-334.
3. Qədirova R.H. Ünsiyyət psixologiyası. Dərs vəsaiti. Bakı, 2016. 150 s.
4. Ефимова, Н.С. Психология общения. Практикум по психологии: Учебное пособие / М.: ИД ФОРУМ, НИЦ ИНФРА-М, 2013. 288 **с**.
5. Еникеев, М.И. Общая и социальная психология: Учебник / М.И.Еникеев. - М.: Норма, НИЦ ИНФРА-М, 2013. 624 с.
6. Ильин, Е.П. Психология общения и межличностных отношений / СПб.: Питер, 2013. 576 с.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 28.04.2024**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.06.2024**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.06.2024**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Firəngiz Rzayeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2024, **s. 64-69**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2024, **с. 64-69**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2024, **p. 64-69**

**UOT 159.922**

**A.Y.Mahmudova**
müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail:* aynurmahmudova@gmail.com

# YENİYETMƏLİK DÖVRÜNDƏ İNKİŞAFIN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *yeniyetmə, yaşlılarla münasibət, özünüqiymətləndirmə, müstəqillik, özünüdərk, əxlaqi davranış*

Yeniyetməlik dövrünün başlıca inkişaf xüsusiyyəti şəxsiyyətin formalaşmasından ibarətdir. Yeniyetməlik dövrünü çox vaxt "keçid dövrü", "çətin dövr", habelə "böhran dövrü" də adlandırırlar. Əgər dördüncü sinfin şagirdi ilə səkkizinci sinfin şagirdin müqayisə etsək, görərik ki, bu qısa zaman ərzində uşaqlar fiziki, əqli, əxlaqi, həmçinin ictimai-sosial nöqteyi-nəzərdən kifayət qədər dəyişmiş olurlar. Əgər orta uşaqlıq dövrü uşaqlar öz şəxsiyyətlərini formalaşması üçün ətraflarındakı şəxslərdən qeyd-şərtsiz nümunə götürürlərsə, yeniyetməlik dövrü həmin örnəkləri öz düşüncə və dəyərləri ilə əlaqələndirməyə çalışırlar. Eyni zamanda şəxsiyyətin inkişafı və formalaşması zamanı yeniyetmənin keçirdiyi çaşqınlıq hissi həmin dövr üçün normal əlamət hesab olunur.

Yeniyetməlik dövründə yeniyetmələr öz şəxsiyyət struklaına görə bir çox problemlərlə qarşılaşırlar. Yeniyetmənin ətrafı və özü ilə daxili qarşıdurma yaranır. Yeniyetməlik dövründə digər inkişaf dövrlərində meydana çıxan problemlərin bəziləri daha çox mürəkkəbləşir. Təzahür edən problemlər xəstəliklər, genetik və ekoloji faktorlar kimi vəziyyətlərdən meydana gəlir.

**А.Я.Махмудова**

# ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ РАЗВИТИЯ В ПОДРОСТКОВОМ ВОЗРАСТЕ

***Ключевые слова:*** *отношения с подростками, старшими, самооценка, независимость, самосознание, нравственное поведение*

Основной особенностью развития подросткового возраста является формирование личности.Подростковый возраст часто называют «переходным периодом», «трудным периодом», а также «кризисным периодом». Если сравнить ученика четвертого класса с учеником восьмого

класса, то мы увидим, что за это короткое время дети очень изменились с физической, психической, моральной, а также социально-социальной точки зрения. Если дети среднего возраста для формирования своей личности безоговорочно берут примеры с окружающих людей, то в подростковом возрасте они стараются связать эти примеры со своими собственными мыслями и ценностями. При этом нормальным для этого периода признаком считается чувство растерянности, испытываемое подростком в процессе развития и становления личности.

В подростковом возрасте подростки сталкиваются со многими проблемами, связанными со структурой их личности. У подростка возникает внутренний конфликт с окружением и самим собой. В подростковом возрасте некоторые проблемы, возникающие в другие периоды развития, усложняются. Проявления проблем вызваны такими состояниями, как заболевания, генетика и факторы окружающей среды.

**A.Y.Mahmudova**

## PSYCHOLOGICAL FEATURES OF DEVELOPMENT IN ADOLESCENCE

***Key words:*** *relationship with teenagers, elders, self-esteem, independence, self-awareness, moral behavior*

The main developmental feature of adolescence is the formation of personality. Adolescence is often called "transitional period", "difficult period", as well as "crisis period". If we compare the student of the fourth grade with the student of the eighth grade, we will see that during this short time, the children have changed a lot from the physical, mental, moral, as well as social-social point of view. If middle childhood children unconditionally take examples from the people around them to form their personality, then in adolescence they try to connect those examples with their own thoughts and values. At the same time, the feeling of confusion experienced by a teenager during the development and formation of personality is considered a normal sign for that period.

During adolescence, teenagers face many problems due to their personality structure. A teenager has an internal conflict with his surroundings and himself. During adolescence, some of the problems that arise during other developmental periods become more complex. Manifesting problems are caused by conditions such as diseases, genetics and environmental factors.

Yeniyetmə öz şəxsiyyətini formalaşdıranadək bir neçə obrazı sınaqdan keçirir. Bu yaş dövründə öz şəxsiyyətini formalaşdıra bilməyən yeniyetmələrdə çaşqınlıq yaranır, onlarda özünüdərk və özünüqiymətləndirmə düzgün inkişaf

etmir. Bu halda onlarda gələcək həyatları barədə heç bir fikir əmələ gəlmir, həyatı haqda proqnoz formalaşmır. Başqalarına qarşı aqressivlik, dözümsüzlük, səbirsizlik və çılğınlıq yeniyetmələrin özünümüdafiə mexanizminə çevrilir.

A.N.Leontyev "uşaqların psixi inkişaflarının hərəkətverici qüvvəsi onların ictimai münasibətlər sistemi üzrə tutduğu həqiqi yerin dəyişməsidir" müddəası psixoloji mənada böyük önəm kəsb edir. Çünki bu dövrdə uşağın yaşayış tərzi ilə, artıq onun bu yaşayış tərzini qabaqlamış perspektivləri arasında açıq ziddiyyət ortaya çıxmağa başlayır. Buna uyğun olaraq, onun fəaliyyəti isə yenidən qurulur. İlkin olaraq bu şərait yeniyetmədə yaşlılarla münasibət zamanı yeni mövqe tutma, hərəkətlərində sərbəstlik, öz yaşıdı ilə ünsiyyətdə bir sıra yeniliklər yaratmaq meylinin əmələ gəlməsinə səbəb olur.

Məlum olduğu kimi müasir musiqiçi və dinləyici tərbiyə etmək üçün onlara estetik zövqü tərbiyə etmək lazımdır. Musiqinin estetik funksiyalarının vacibliyini qeyd edərkən bununla yanaşı digər aspekt olan – etik aspekti də qeyd etmək vacibdir. Musiqinin etik tərbiyədəki əhəmiyyəti o dərəcədə çoxdur ki onu mədəniyyətin digər aspektləri ilə heç müqayisə etməyə də dəyməz. Ona görə bu funksiyanın öyrənilməsi öz-özlüyündə vacibdir.

Musiqi pedaqogikasının müasir problemlərinin həlli üçün Azərbaycan pedaqogikasının ənənələrinin əsaslarını üzə çıxarıb anlamaq gərəkdir. Musiqi-pedaqoji proqramların quraşdırılması daim artan və yeni-yeni metodik parametrlər üzə çıxaran informasiya spektri ilə sıx baglıdır.

Azərbaycan musiqisi – hər bir elementi ümumi struktura tabe olan tam, dolğun orqanizmdir. Azərbaycan milli mədəniyyətinin problemlərinə aktiv maraq, təkcə sosial-siyasi dəyişikliklərlə xarakterizə olunmur, bu həm də musiqi yaradıcılığın özündə müəyyən dəyişikliklərin baş verməsindən irəli gəlir. Belə ki, musiqinin yeni və ən yeni tarixi, informasiya çoxluğu şəraitində, müasir Azərbaycan musiqisi haqqında müəyyən bilikləri mənimsəmək labüddür. Musiqi tarixi kursları davam etdirməlidir.

Musiqi kurslarında qısa bir müddət ərzində əgər polifoniya, harmoniya öyrənilirsə, onda digər kursların, musiqi mədəniyyətinin tarixi dövrlərinə aid olan, müəyyən üslub formalarını özündə əks etdirənləri də proqrama daxil edilməlidir. Burada söhbət, adekvat olan, bir növ pedaqoji sikllərin təşkilindən, məsələn, "yeni" və "ən yeni" tarixdən gedir. Q.Qarayevin 3-cü simfoniyasından sonra, Azərbaycan musiqi tarixində yeni bir dövr başlamışdır. Bu da uzun bir yol keçərək, Azərbaycan musiqi xəzinasinə lazimi qadər dəyərli əsərlər bəxş etmişdir. Onların bu gün xarakterizə olunması, ən əsas da keçirilən bu yolu təkcə

ayrı-ayrılıqda tədqiqatlar vasitəsilə çatdırmaq kifayət etmir, daha vacibi odur ki, zəngin materialın ali məktəb kurslarında fənn kimi aparılsın. Söhbət müasir Azərbaycan musiqi mədəniyyətinin problemlərinin dərin analizinə yardım etməkdən, həm milli, həm də müasir musiqi mədəniyyəti kontekstlərindən dünya sivilizasiyasının bütün səviyyələri anlamağı öyrətməkdən gedir.

Azərbaycan xalq musiqisinin öyrənilməsi işində, pedaqoji prinsiplərin formalaşdırnılmasında aparıcı rolu müasir metodoloji problemlərin dərindən qavraya bilməsi oynayır. Musiqini anlaya bilməyin inkişaf etdirilməsi problemini üç modelin köməyilə həll etmək olar. Modellərin birinin başında tələbənin reproduktiv fəaliyyəti, yəni, topladığı biliyi, bacarıq və əldə etdiyi vərdişlər durur. Bu zaman, musiqini anlaya bilmək problemi ikinci plana keçir və nəticədə elmi-texnoloji təmayül müşahidə edilməklə, musiqi təhsili metodlarının təşkili tam deyil, ayrı-ayrı elementlər şəklində özüünü büruzə verir.

Musiqi tərbiyəsinin digər modeli illüstrativ-təsviri xarakter daşıyır. Burada, bir qayda olaraq, emosional təsiredici faktora daha çox fikir verilir. Adları çəkilən bu hər iki modeli digərindən fərqləndirən cəhət, onların interpretasiyasına dekorativ-tasviri nöqteyi-nəzərdən yanaşmalarıdır. Təqdim edilən anlamanın inkişafı üsulları, musiqinin özünün anlaşılmasına mane olur. Üçüncü modeldən istifadə zamanı biz, D.Kabalevskinin musiqini anlama metodlarına müraciat etmiş oluruq ki, burada anlamanın inkişafına ümumi şəkildə yanaşmaq məsləhəti verilir. Bu model, əvvəlki iki modeli realizə etməklə, eyni zamanda, tələbənin intonasiyalı yanaşmağını əlavə edir və beləliklə də onun şüurunu intellektual saviyyəyə çatdırır. Pedaqoqun vəzifələrindən biri – səs oriyentirlərinin düzgün istiqamətləndirilməsi, musiqi zövqünü zənginləşdirilməsindən ibarətdir. Ona görə də intonasiya seçimi müasir pedaqoji təcrübədə ən optimal variant kimi hesab edilir. V.M.Belyayev hesab edir ki, xalq musiqisinin mənimsənilməsi zamanı, intonasiyalı yanaşmanın düzgünlüyü onunla şərtlənir ki, bu proses zamanı musıqi "əlifbası" əvvəlcədən ixtira olunmur, əksinə, yaradıcılıq təcrübəsindən, ümumi musiqi dilinin inkişafından doğulur.

Azərbaycan xalq musiqisinin tədqiqatında intonasiyalı yanaşma metodunun şərtləndirilməsinin vacibliyi ilk növbədə musiqinin incəsənətin birinci növü kimi çıxış etməsi xassəsilə bağlıdır. Musiqinin təbiəti – intonasiyadır və musiqinin öyrənilməsi məhz intonasiyadan başlanır. Musiqinin intonasiya “forması” özündə həyatı mənanı və spesifik musiqi təcrübəsini əks etdirir. Məlumdur ki melodiya musiqinin canıdır. Həm Avropa həm də Asiyanın müxtəlif ölkələrini təmsil edən musiqişünasların əsərlərində daim konstatasiya edilir ki individuallıq özünəməxsusluğa baxmayaraq melodik prosesin məntiqi ümumi xassələri insan təbiətindən doğan universallığı özündə cəmləyir. Təsadüfi deyil ki əksər alim – Musiqişünaslar tez – tez melodiya ilə təəssürat həyəcan anlamlarının adlarını bir sırada çəkir.

Musiqi sənətinin müvəqqəti-intonasiya spesifikasına daxil olması, eşitmə

təcrübəsini zənginləşdirir. Müasir musiqi tərbiyəsi, intonasiya- eşitmə təcrübəsinin inkişaf etdirilməsi tendensiyasından və onun paralel izahatindan fərqli olmalıdır. Bu işdə zəncirvariyə adekvat olan – musiqi-pedaqoq-tələbə kimi olan problemin həlli vacibdir. Beləliklə, intonasiyalı musiqiyə analoji olan inteqrasiyalı zəncir yaranır ki, bu da onun təbiətinə zidd çıxmır, əksinə, onu tam şəkildə, bütövlükdə açıqlaya bilir. Spantan, vasitəsiz şəkildə ilk qavrama, pedaqoq tərəfindən aradan götürülməlidir. Tələbə tərəfindən musiqi materialının təcrübə kimi mənimsənilməsi, aləmə emosional dəyərləndirici münasibət kimi qəbul edilməlidir. Bunun nəticəsində, hazırkı musiqi tərbiyəsi üçün vacib olan müəyyən analitik metodika yaranır. Analitik metodika, mədəni, daha daqiq desək, müasir sosial-mədəni kontekstlə sıx bağlıdır.

Problem ondan ibarətdir ki, differensial eşidə bilməni tərbiyə etməkdən əlavə, eyni zamanda onun tam, bütövlüyünü də çatdıra bilmək lazımdır. Təkcə ayrı-ayrı biliklərin cəmindən musiqi mədəniyyəti haqqında ümumi təəssüratı həmişə almaq olmur. Ona görə, musiqini qavrama yalnız o vaxt baş tutur ki, tələbə qavramanı həm özünün konkret xüsusi biliklərinin nəticəsində, həm də "onun stilistikasını anlamaqla" həyata keçirə bilsin.

Musiqini düzgün qavramaq üçün, doğru istiqamət seçmək vacibdir. Bunun üçün, musiqi əsərinin məğzini, intonasiyalı dolğun forma vasitəsilə açıqlamaq lazımdır. Beləliklə, intonasiya şüuru formalaşır ki, bunun da nəticəsində intonasiyanı eşitmə plastik şəkildə hayata keçir.

Musiqi pedaqogikasının müasir təcrübəsində ən aktual sayılan problemlərindən biri, "intonasiya lüğətinin" kristallaşdırılmasıdır. Əgər musiqi eşitmənin müxtəlif istiqamətləri "İntonasiya lüğətinin" dolğunluğuna istinad edərsə, onda real nəticələr əldə etmək olar. "İntonasiya lüğəti" milli musiqi üslubunun əldə olunmasına dəlalət edir. Bu mənada, milli musiqi sənətinin intonasiyaya asas prinsip kimi yanaşması nəticəsində yaranan pedaqoji marağı qanunauyğunluq kimi qiymətləndirmək olar. Musiqiyə maqsədyönlü, özünəməxsus tərzdə yanaşma müəllimlə tələbə, bəstəkarla ifaçı arasinda sağlam dialoqun yaranmasına imkan verir.

Azərbaycan mədəniyyətinin sistemli öyrənilməsi problemi, Azərbaycan humanitar elminin milli xüsusiyyətlərinin öyrənilməsi ilə bağlıdır. Bu sistemə pedaqogikanın daxil olması ona görə vacibdir ki, mədəniyyət insan təfəkkürünün fenomeni kimi özündə mürəkkəb konqlomeratı əks etdirir.

Milli Azərbaycan musiqisinin xüsusiyyətlərini öyrənmək, bu sahəyə dərin yanaşmaq işi, Azərbaycan musiqi pedaqogikasında olan bir sıra problemlərlə bağlıdır. Birinci, bu aspektdə mənimsənilmə Azərbaycan musiqisinin mənşəyini bilməyi tələb edir, çünki Azərbaycan xalqının musiqi dilinin öyrənilməsinin və onu çatdra bilməyin zəruriliyi.

Deyilənlərin mənası ondan ibarətdir ki, pedaqoq təkcə informasiyanı musiqi dilinin aşkar elementlərini çatdırmaqla kifayatlənməməli, həm də açıq-

aydın şəkildə aşılamalıdır. Və nəhayat üçüncü, Azərbaycan musiqi mədəniyyətinin xüsusiyyətlərini öyrənərkən, bununla paralel olaraq onun formalarının qorunub saxlanılması prosesi də aparılmalıdır. Pedaqogika, konkret, özündə elmi bilikləri cəmləyən elm sahəsi olmaqla yalnız ciddi elmi potensiala əsaslanmaqla, milli müstəqillik hisslərini tərbiyə etmək iqtidarındadır.

Milli müstəqilliyi isə etnomusiqişünaslığın asasları kursları kimi qəbul etdikdə əldə etmək olar. Etnomusiqişünaslığı yalnız bu istiqamətdə yönəltməklə, xalq musiqisinin öyrənilməsi üzrə fənni keçməklə, müəyyən metodoloji oriyentləri hasil etmək mümkündür.

“Etnomusiqişünaslığın əsasları" kursunun qarşıya qoyduğu məsələlər tam olaraq konkretdir. Bizim kurs haqqında tərtib etdiyimiz metodik məsləhətlər elə quruluşa malikdir ki, burada müəllim gələcək pedaqoji təcrübəsində biliyindən istifadə edə bilsin va məsələn, solfecio dərslərində məqsədyönlü şəkildə materialları toplamaqla musiqi ədəbiyyatı kurslarında əyani şəkildə nümayiş etdirə və bununla yanaşı tələbələrin fikrini Azərbaycan xalq musiqisi aləminə yönəldə bilsin. Bu kursda həmin materiallardan istifadə zamanı, yaxşı olardı ki, Azərbaycan xalq musiqisinin nəzəri və tarixini Şərqin digər musiqi mədəniyyətləri ilə səciyyələndirilib və ya fərqləndirilsin. "Etnomusiqişünaslığın əsəsları" kursunun praktiki hissəsinin qarşıya qoyduğu vəzifə, xalq musiqisinin yazı dövrünü öyrətməkdən ibarətdir. Kursun özü üç hissədən ibarətdir. Birinci hissə etnomusiqişünaslığa aid, onun elmi yolu kimi ümumi suallara həsr edilib. Əldə edilən elmi biliklərə əsasən tələbə digər kursun ikinci hissəsinə keçə bilər. Burada Azərbaycan xalq musiqisinin xassələri öyrənilir. Üçüncü hissə - xalq musiqisinin toplusu və yazısından təşkil edilmişdir. Kursun əsasını mühazirələr, seminar və praktiki məşğələlər təşkil edir. Mühazirələrdə tələbələr üçün rahat olan bütün növ ədəbiyyatlardan, (rus, ingilis, alman və Azarbaycan dillərində) istifadə üçün zəmin yaradılıb. Onu da qeyd etmək olar ki, məqsədyönlü təşkil edilən praktiki məşğələlər, şəxsi mövqeyin təyin edilməsi və yaradıcılıq fəaliyyətinin yaranmasına gətirib çıxarır.

**Mövzunun aktuallığı.** Azərbaycan mədəniyyətinin qədimliyini, zənginliyini və ən nəhayət unikallığını nəzərə alınması və qarşıda duran bütün problemlər xüsusi aktuallığa malikdir. Burada birinci dərəcəli hal kimi əsas rolu milli-spesifik xarakteristika məsələsi oynayır. Pedaqoji proses zamanı Azərbaycan musiqisinin milli xüsusiyyətlərini tam qavraya bilmək yəni həm xalq musiqisinin yaranması və sonradan məişətdə nə cür qalması məsəslələri həm də mahnı – instrumental, aşıq və ya muğam yaradıcılığı mənimsənilməlidir.

## ƏDƏBİYYAT

1. Abdullazadə, G.A. Şərq və Qərbin qədim və orta əsr mədəniyyətində cəmiyyət, insan və musiqi / G.A.Abdullazadə. - Bakı: Qartal, 1996. – 288 s.
2. Vıqotski L.S. İncəsənətin psixologiyası. Moskva: 1968. - 576 c.
3. Qusev V.E. Folklorun estetikası. Leninqrad: “Nauka”, 2007. - 317 c.
4. Ağayev Ə.Ə. Pedaqoji fikrimiz: dünənimiz, bu günümüz. Bakı: 2000.
5. Ələkbərova N.İ. VIII-XVI əsrlərin Azərbaycan mədəniyyəti kontekstində musiqi. Bakı:1996.
6. Aslanov D.D. İncəsənət və tərbiyə. Bakı: Gənclik, 1967. – 191 s.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 28.04.2024**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.06.2024**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.06.2024**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mədinə Tuayeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2024, **s. 90-94**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2024, **с. 90-94**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2024, **p. 90-94**

**UOT 37.011.31**

**G.İ.Təbibzadə**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail:* tebibzadegunay55@gmail.com

# KİÇİK MƏKTƏB YAŞ DÖVRÜNÜN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *psixoloji xüsusiyyət, hafizə, idrak prosesləri, qavrayış, təfəkkür, diqqət*

Bu məqalədə kiçik məktəb yaşı dövründə psixi hadisələrin inkişafının spesifik xüsusiyyətlərindən bəhs edilir. Burada kiçik məktəb yaşının ayrı-ayrı xüsusiyyətləri və mərhələləri əks olunmuş, psixoloji prosseslərin sözü gedən yaş dövründə inkişafı ilə bağlı məlumatlar öz əksini tapmışdır. Kiçik məktəb yaşı dövründə hafizənin, qavrayışın, diqqətin, təfəkkürün və təxəyyülün inkişaf etdirilməsi metodları ilə bağlı məlmat verilmişdir.

Müasir ümumi təhsilin vəzifələrindən biri idrak, kommunikativ və məktəblilərin tədqiqat bacarıqlarını formalaşdırmaqdan ibarətdir. Problemin həlli təkcə şagirdlərin akademik fənlərin məzmunu üçün minimum tələbləri mənimsəməsini nəzərdə tutmur. Təhsil yaradıcılıq fəaliyyətinin müxtəlif növlərinə yiyələnmək, həm də müstəqil bilik tapmaq, onu dəyişdirmək, təhlil və sintez, ümumiləşdirmə, təsnifat və sistemləşdirmə zehni əməliyyatlarını mənimsəmək bacarığını formalaşdırır.

**Г.И.Табибзаде**

# ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ПЕРИОДА МЛАДШЕГО ШКОЛЬНОГО ВОЗРАСТА

***Ключевые слова:*** *психологическая характеристика, память, когнитивные процессы, восприятие, мышление, внимание*

В данной статье рассматриваются специфические особенности развития психических явлений в младшем школьном возрасте. Здесь отражены отдельные особенности и этапы младшего школьного возраста,

отражены данные о развитии психологических процессов в рассматриваемом возрастном периоде. Приведены сведения о методах развития памяти, восприятия, внимания, мышления и воображения в младшем школьном возрасте.

Одной из задач современного общего образования является формирование познавательных, коммуникативных и исследовательских навыков школьников. Решение проблемы означает не только освоение школьниками минимальных требований к содержанию учебных предметов. Образование формирует способность овладевать различными видами творческой деятельности, а также способность находить самостоятельные знания, изменять их, овладевать мыслительными операциями анализа и синтеза, обобщения, классификации и систематизации.

**G.I.Tabibzade**

## PSYCHOLOGICAL CHARACTERISTICS OF THE PRIMARY SCHOOL PERIOD

***Key words:*** *psychological feature, memory, cognitive processes, perception, thinking, attention*

This article discusses the specific features of the development of mental phenomena in primary school age. It reflects individual features and stages of primary school age, reflects data on the development of psychological processes in the age period under consideration. Information is provided on the methods of developing hafizah, perception, attention, thinking and imagination in primary school age.

One of the tasks of modern general education is the formation of cognitive, communicative and research skills of schoolchildren. The solution to the problem does not only mean that pupils are able to master the minimum requirements for the content of their studies. Education forms the ability to master various types of creative activity, as well as the ability to find independent knowledge, to change them, to master the thought operations of analysis and synthesis, generalization, classification and systematization.

Müasir ümumi təhsilin vəzifələrindən biri idrak, kommunikativ və məktəblilərin tədqiqat bacarıqlarını formalaşdırmaqdan ibarətdir. Problemin həlli təkcə şagirdlərin akademik fənlərin məzmunu üçün minimum tələbləri mənimsəməsini nəzərdə tutmur. Təhsil yaradıcılıq fəaliyyətinin müxtəlif növlərinə yiyələnmək, həm də müstəqil bilik tapmaq, onu dəyişdirmək, təhlil və

sintez, ümumiləşdirmə, təsnifat və sistemləşdirmə zehni əməliyyatlarını mənimsəmək bacarığını formalaşdırır.

Onu da qeyd etməl lazımdır ki, humanitar fənlər şagirdin şəxsiyyətinin inkişafına yönəlmişdir. İncəsənət (musiqi, rəqs, təsviri incəsənət), böyük pedaqoji potensiala malikdir. Musiqi dərslərinin faydalı olduğu məlumdur və koqnitiv inkişafa təsir göstərir, şagirdlərdə yaddaş, qavrayış,hafizə, təfəkkür, təxəyyül formalaşır və inkişaf edir.

Kiçik məktəb yaşı psixoloji prosseslərin inkişafı üçün ən önəmli mərhələlərdən biri sayılır.

**Hafizə.** Kiçik məktəb yaşı dövründə, sistematik xarakter daşıyan təlim və tərbiyənin təsiri altında uşağın hafizəsinin inkişafı davam edir. Kiçik məktəb yaşı dövründə hafizənin inkişafı, bir tərəfdən məntiqi, mənalı yadda saxlamanın rolunun artması ilə, digər tərəfdən isə uşağın öz mənimsəmə fəaliyyətini ixtiyari olaraq idarə etmək imkanlarının mövcud olması ilə xarakterizə olunur. Məhz belə şəraitdə şagird sistematik və şüurlu surətdə özünün hafizə fəaliyyətini ixtiyari olaraq idarə etmək bacarığına tədricən yiyələnməyə başlayır. Kiçik məktəblilərdə hafizə əsasən əyani-obrazlı xarakter daşıyır.

**Qavrayış.** Məktəbə yeni daxil olmuş şagirdin qavrayışı reproduktiv olur. Sonrakı tədris illərində isə onların qavrayışı fərqləndiriciliyi, emosionallığı, nisbətən az məqsədəyönəlmiş olması ilə fərqlənir. Bu dövrdə şagirdlərin cism və hadisələrə olan münasibəti səthi olur. Çünki bu yaş dövrü üçün cism və hadisələrin mahiyyətini dərindən dərk etmək, təhlil etmək nisbətən çətindir. Həmçinin musiqi dərslərində də şagirdlər kiçik musiqi əsərləri, mahnıları emosional şəkildə qavrayırlar. Bu yaşda şagirdlər izah edilən musiqi üzrə təlim materialını əyani vasitələrlə, müəllimin şəxsi ifası ilə daha tez anlayırlar. Musiqi qavrayışı həqiqətin bədii və obrazlı şəkildə əks olunmasıdır.

"Şəxsiyyət musiqi incəsənəti vasitəsi ilə məqsədyönlü formalaşdırılır. Uşaqların musiqiyə marağı, qabiliyyəti, estetik münasibəti məhz bu yolla həyata keçir. Uşaq o zaman musiqini qavraya bilir ki, dinlənilən musiqi nümunəsi onun yaş və fərdi xüsusiyyətlərinə uyğun gəlsin." [3, s.76].

**Diqqət.** Kiçik məktəb yaşlı uşaqların diqqətində də mühüm dəyişikliklər özünü əks etdirir. Psixoloji tədqiqatların nəticəsində məlum olmuşdur ki, kiçik yaşlı məktəblilərin diqqəti seçici xarakter daşımağa başlayır, yəni uşaqların diqqəti onlar üçün əhəmiyyətli olan cisim və hadisələrə yönəlir. Bu həmçinin musiqi dərslərində də eyni formada təzahür edir. Şagirdlər ifa olunan mahnıların melodiyasına, məzmununa görə fərqləndirir, musiqi parçalarının seçiminə də emosional yanaşırlar. Onlar musiqi əsərini xarakterizə edir, musiqidə verilmiş obrazları və müxtəlif musiqi intonasiyalarını ayırd edirlər.

İlk illərdə əsasən qeyri-ixtiyari diqqət nisbətən üsünlük təşkil edir. Artıq zaman keçdikcə isə diqqətin həcmi, mərkəzləşməsi, keçirilməsi də inkişaf etməyə başlayır.

**Təfəkkür.** Bir sıra psixoloji və pedaqoji göstəricilərə görə bu yaş dövrünü musiqi təfəkkürünün inkişafı üçün optimal hesab etmək olar. İlk dövrlərdə əyani-əməli, sonra isə əyani-obrazlı təfəkkür özünü göstərməyə başlayır, bu da sözlü-məntiqi təfəkkürün inkişafına şərait yaradır. Şagirdlərin təfəkkürü emosional-obrazlı təfəkkürdən məntiqi təfəkkürə doğru inkişaf edir.

Kiçik məktəblinin düşüncəsi, onun psixoloji təcrübəsi, emosional, motivasiya və şəxsiyyətin digər sahələri böyüklərin psixikasından bir sıra əhəmiyyətli fərqlərə malikdir. Eksperimental tədqiqatda uşağın psixikasının real xüsusiyyətləri nəzərə alınmalıdır.

Bu yaşda uşaqlarda musiqi təfəkkürünün formalaşması üçün zəruri olan bütün zehni materiallar kompleksi aktivləşir: hissiyyat-perseptual fəaliyyət zəngin eşitmə qavrayışını təmin edir; motor fəaliyyəti müxtəlif növ hərəkətləri inkişaf etdirir, intellektual-iradi fəaliyyət həm daxili motivasiyanın yaranmasına, həm də musiqi təfəkkürünün inkişafına kömək edir.

**Təxəyyül.** Sözü gedən yaş dövründə şagirdin həyat təcrübəsi və biliyinin artması nəticəsində onda təxəyyülün inkişafı üçün əlverişli şərait yaranır. Bu dövr üçün təxəyyülün bərpaedici növü xarakterikdir, bunun da sayəsində şagirdlər təlim materialını daha rahat şəkildə mənimsəyirlər. Bir çox psixoloqların tədqiqatları sübut etmişdir ki, kiçik yaşlı məktəblilərin təxəyyülü emosional xarakter daşıyır. Kiçik yaşlı məktəblilərin təxəyyülü mütləq hər hansısa əyani vasitəyə istinad etməlidir.

Musiqi vasitəsilə yaradıcı təxəyyülün inkişafı şəxsiyyətin harmonik inkişafına səbəb olur [6, s.15].

"Ə.Əlizadə qeyd edir ki, yaradıcı proses üç etapdan ibarətdir. Birinci etap hazırlıq etapıdır. Burada tarixi faktlar, arxiv materialları ilə tanışlıq baş verir və s. Bu mərhələdə yaradıcı məqsəd konkretləşir, digər tərəfdən isə təxəyyülün ilkin obrazları müəyyənləşməyə başlayın. Birinci mərhələdə yaradıcı fəaliyyət tarixi materialların öyrənilməsilə bağlı olduğundan, əsas yeri təfəkkür fəaliyyəti tutur. Yaradıcı təxəyyül isə hələ ki, epizodik xarakter daşıyır.

Ikinci etap (təfəkkür və təxəyyül fəaliyyətlərinin yer dəyişməsilə xarakterizə olunur. Bu mərhələdə yaradıcı təxəyyül fəaliyyəti daha çox inkişaf edir, ona görə ki, elmnən fərqli olaraq, bədii yaradıcılıqda əsas məqsəd obrazın yaradılması prosesi təşkil edir. Məhz buna görə bədii yaradıcılığın ikinci mərhələsi yaradıcı təxəyyülün fəaliyyəti ilə xarakterizə olunur.

## ƏDƏBİYYAT

1. Quliyev E.M. Uşaq psixologiyası. Bakı, 2014, 288 s.
2. Bayramov Ə.S. Psixologiya. Bakı: "ÇİNAR-ÇAP" Nəşriyyat-Poliqrafiya müəssisəsi, 2002, 620 s.

3. Məmmədova İ.A. Musiqi pedaqogikası. Bakı, ABU, 2009, 214 s.
4. Qədimova J.H. Musiqinin tədrisi metodikası. Bakı, ADPU, 2007, 323 s.
5. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2003
6. Dadaşova M. Yaradıcı prosesdə bilik, bacarıq və vərdişlər. Bakı, 2016
7. Çələbiyev N.Z. Uşaq psixologiyası. Bakı: ADPU, 2005, 341 s.
8. Seyidov S.İ., Həmzəyev M.Ə. Psixologiya. Bakı-2007, 642 s.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 28.04.2024**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.06.2024**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.06.2024**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**psixologiya elmləri doktoru, professor Qızxanım Qəhrəmanova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2024, **s. 95-100**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2024, **с. 95-100**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2024, **p. 95-100**

**UOT 78: 372.878**

**N.Ə.Vəliyeva**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail:* veliyevanigar901@gmail.com

# MƏKTƏBLİLƏRİN MUSİQİ DƏRSLƏRİNDƏ EMOSİONAL HİSSLƏRİN TƏRBİYƏSİ

***Açar sözlər:*** *musiqi, emosiya, hisslər, tərbiyə, məktəblilər*

Kiçik yaşlı uşaqların mənəvi-estetik mədəniyyətinin səviyyəsinin yüksəldilməsində musiqi xüsusi yer tutur, çünki o, insanın şüuruna və onun emosional sferasına fəal təsir göstərir, şəxsiyyətin mənəvi inkişafının ən mühüm və əvəzedilməz vasitəsidir. Musiqi dilinin ekspressiv mənasını dərk etmək, əsərin məzmununa nüfuz etmək, onun emosional mənasını öyrənmək yalnız musiqiyə emosional reaksiya vermək qabiliyyəti olduqda mümkündür, buna görə də uşaqlarda musiqini sevmək və empatiya qurmaq qabiliyyəti inkişaf edir. Bu yaşda həmyaşıdları ilə münasibətlərin qurulması xüsusi xarakter alır və şagird üçün vacibdir. Əksər hallarda ibtidai məktəb şagirdlərində emosional həssaslığın formalaşması musiqi və estetik fəaliyyətlə sıx bağlıdır. Musiqi əsərlərini qavrayarkən musiqililiyin əsasını musiqiyə emosional reaksiya təşkil edir. Bu, emosional həssaslığın inkişafı və insanlarla münasibətlərdə xeyirxahlıq və həssaslıq kimi şəxsiyyət keyfiyyətlərinin yetişdirilməsi ilə bağlıdır. Musiqi məzmununu uşaqlar üçün əlçatan və yaddaqalan etmək üçün emosional reaksiya vacibdir.

**Н.А.Велиева**

# ВОСПИТАНИЕ ЭМОЦИОНАЛЬНЫХ ЧУВСТВ ШКОЛЬНИКОВ НА УРОКАХ МУЗЫКИ

***Ключевые слова:*** *музыка, эмоция, чувства, образование, школьники*

В повышении уровня духовно-эстетической культуры детей раннего возраста особое место занимает музыка, которая активно воздействует на сознание человека и его эмоциональную сферу, является важнейшим и незаменимым средством духовного развития личности. Понять выразительный смысл музыкального языка, проникнуть в содержание произведения, его эмоциональный смысл возможно лишь при наличии

способности эмоционально реагировать на музыку, поэтому у детей развивается способность любить и сопереживать музыке. В этом возрасте построение отношений со сверстниками приобретает особый характер и имеет важное значение для школьника. В подавляющем большинстве случаев формирование эмоциональной чувствительности у младших школьников тесно связано с музыкально-эстетической деятельностью. При восприятии музыкальных произведений в основе музыкальности лежит эмоциональный отклик на музыку. Это связано с развитием эмоциональной чувствительности и воспитанием таких качеств личности, как доброта и отзывчивость в отношениях с людьми. Эмоциональный отклик важен для того, чтобы сделать содержание музыки доступным и запоминающимся для детей.

**N.A.Veliyeva**

## EDUCATION OF EMOTIONAL FEELINGS OF SCHOOLCHILDREN ON THE MUSIC LESSONS

***Key words:*** *music, emotion, feelings, education, schoolchildren*

In raising the level of spiritual and aesthetic culture of young children, music, which actively affects the human mind and its emotional sphere, and is the most important and irreplaceable means of spiritual development of the personality, occupies a special place. Understanding the expressive meaning of the musical language, penetrating the content of the work, its emotional meaning is possible only if there is an ability to respond emotionally to music, therefore children develop the ability to love and empathize with music. At this age, building relationships with peers takes on a special character and is important for the student. In most cases, the formation of emotional sensitivity in elementary school students is closely related to musical and aesthetic activities. When perceiving musical works, the basis of musicality is the emotional response to music. This is related to the development of emotional sensitivity and the cultivation of personality qualities such as kindness and sensitivity in relationships with people. Emotional response is essential to make musical content accessible and memorable for children.

Kiçik yaşlı məktəblilərin inkişaf problemlərini öyrənərkən onların musiqiyə emosional reaksiyalarına mütləq diqqət yetirməliyik, bunlar aşağıdakılardır: emosiyalar, hisslər və həssaslıq. Ədəbiyyatı araşdıraraq belə qənaətə gəldik ki, emosiyalar mövcud əlaqələrin, təcrübələrin birbaşa əks olunması, ehtiyacların ödənilməsi və ya qane edilməməsi ilə əlaqədardır. Ümumiyyətlə, emosiyalar

əvvəllər yaşanmış və ya təsəvvür edilən fikirlərlə əlaqədar yaranır.

Belə ki, B.M.Teplov hesab edir ki, "duyğular spesifikdir və insanın ehtiyacları, maraqları, onların məmnuniyyət prosesi ilə, xoş və ya xoşagəlməz rənglərin tonlarıdır. Duyğular insanın psixoloji vəziyyətini ifadə edir, fiziki olaraq özünü necə aparmasından asılı olaraq yaranır və psixoloji olaraq bu anda hiss edilir. Başqa sözlə, duyğularla bağlı olaraq, konkret təcrübələrin həyatı necə xarakterizə etdiyi ümumilikdə və onun qorunub saxlanılması və inkişafı ilə bağlı bir prosesdir."

E.Olshannikovaya görə, emosiyalar və hisslər emosionallığın məzmununu, keyfiyyətini və dinamikasını xarakterizə edən insan xassəsidir. Mövzu üçün xüsusi əhəmiyyət kəsb edən hadisələr və vəziyyətlər emosiyanallığın məzmun aspeklərini əks etdirir. Onlar şəxsiyyətin əsas xüsusiyyətləri ilə ayrılmaz şəkildə bağlıdır, onun mənəvi potensialı: motivasiya sahəsinin istiqaməti, dünyagörüşü, dəyər yönümləri və s. keyfiyyət xassələri fərdin hadisələrə münasibətini xarakterizə edir. Emosionallığın dinamik xüsusiyyətlərinə proseslər və onların xarici ifadəsi, gedişat və dayanma xüsusiyyətləri daxildir.

Duyğular və hisslər həmişə fərdi olur. Bəziləri anadangəlmə, bəziləri isə təlim və tərbiyə nəticəsində qazanılır. Hiss, insanın bir şeyə daha mürəkkəb, müəyyən edilmiş münasibətidir. Bir qayda olaraq, "hiss" bir sıra emosiyaları əhatə edir.

Kiçik məktəblilərin emosional həssaslığını aşağıdakı kimi başa düşmək olar:

- Hadisələrə reaksiya vermək bacarığı kimi,
- İnsanlara, heyvanlara empatiya qurmaq bacarığı kimi,
- Faktları həyat təcrübəsi ilə əlaqələndimək;
- Başqa bir insanın və ya başqa bir canlının ağrısına emosional cavab vermək kimi.

Xarici təzahür kimi emosional reaksiya uşağın daxili aləmində baş verənlərə onun münasibətini müəyyən etməyə imkan verir. Bu vacib məqamı nəzərdən qaçıra bilmərik: təkcə emosional sahə deyil, hisslər də tərbiyə olunur.

İncəsənət şəxsiyyətə təsir etmək üçün böyük potensiala malikdir, xüsusilə də musiqi. Bu, ən parlaq və emosional bir prosesdir. Buna görə də musiqi, uşaqlara təsir edən vacib bir vasitədir. Uşaq təkcə ətrafındakıları deyil, həm də dünyadakı gözəllikləri görə bilir.

Musiqi əsərlərini qəbul edərkən, musiqiyə emosional reaksiya musiqililiyin əsasını təşkil edir. O emosional həssaslığın inkişafı və insanlarla münasibətlərdə mehribanlıq, simpatiya qabiliyyəti kimi şəxsiyyət keyfiyyətlərinin tərbiyəsi ilə bağlıdır. Musiqinin məzmununun uşaqlar üçün əlçatan olması və oyadan olmasında emosional reaksiya vacibdir. Musiqi məzmununun başa düşülən olması təkcə alətlərin və təsvirlərinköməyi ilə deyil, hər şeydən əvvəl uşaqların yaşaya biləcəyi hisslərə uyğun olmalıdır.

Emosional reaksiya musiqi ilə məşğul olmaq üçün ən vacib musiqi

qabiliyyətlərindən biridir. O, həyatda emosional həssaslığın inkişafı ilə, tərbiyəsi ilə, başqa bir insana rəğbət bəsləmək bacarığı kimi şəxsiyyəti xüsusiyyətlər ilə bağlanıb.

E.N.Fyodoroviç və E.V. Tixonovanın “Musiqinin əsasları psixologiya” fikrinə rast gəldik ki, burada o qeyd edir ki, “Emosional idrak ifaçının xarici hərəkətləri ilə sıx bağlıdır. Xarici hərəkətlər təzahür edir və daxili təcrübələr dərinləşir."

Məktəbdə musiqi dərsində emosional reaksiyaya V.P. Anisimovun mövqeyi daha yaxındır. Anisimov iddia edir ki, “bu, xarici təsirlərə emosional reaksiyadır (bu musiqidə həm də eşitmə analizatorunun xarici stimulu hesab edilə bilər). İnsanın duyğu mədəniyyətinin keyfiyyət xüsusiyyətlərini müəyyən edir, onun musiqi və estetik zövqünü, intonasiya təcrübəsini, dünyagörüşünün genişliyini üzə çıxarır. Musiqiyə emosional reaksiya fərdin xüsusiyyətlərindən asılı olaraq başa düşülür, bu da uyğun şəkildə əks etdirmə qabiliyyəti kimi musiqinin məzmununu (ideyalarını və ifadə vasitələrini) yaşamaq kimi başa düşülməlidir. Təcrübələrimiz, duyğularımız, vəziyyətlərimiz vəmusiqinin intonasiya-obrazlı qavranılması prosesində münasibətlər emosional və musiqi cavabdehliyi kimi qəbul edilir” [3]

Uşaqların musiqi həssaslığının inkişafı G.G.Qriqoryeva görə, emosiyaların inkişafı ilə sıx bağlıdır, uşaq şəxsiyyətinin motivasion ehtiyac sahəsi, işlər, hərəkətlər, üz ifadələri, duruşlar, səs intonasiyalarında özünü göstərir. Məktəbəqədər yaşda (3 yaşdan 7 yaşa qədər), M.L. Qrodzenskaya görə, uşaq da böyüklərlə eyni həyatı yaşamaq ehtiyacını hiss edir. Eyni zamanda onlarda insan cəmiyyətinin yaşayış sahəsinə fəal şəkildə daxil olmaq və içində hərəkət etmək ehtiyyacı yaranır. Ancaq bu ehtiyacın mövzusu dəyişir. Uşaqlar, böyüklərin fəaliyyətini mənimsəməyə və xüsusiyyətlərini başa düşməyə çalışır. N.S. Karpinskaya görə, aparıcı münasibət “uşaq-böyüklər “estetik tərbiyədir, fərdə məqsədyönlü, sistemli təsir göstərir. Bunu sənət və onu yaradanlar əmələ gətirir.”

Estetikanın formalaşması hissləri erkən uşaqlıqdan başlayır. Fantastik oyunlar uşaqların tərbiyəsində, onların həyat anlayışının genişləndirilməsində xüsusi rol oynayırlar. Oyunların məqsədi uşağa həyatı yaşamağa kömək etmək, ona münasibətini formalaşdırmaq, mənəvi-əxlaqi tərbiyəsini yerinə yetirməkdir.

L.P. Strelkova yazır ki, “ibtidai məktəb yaşında uşaq hər şeydir daha tez-tez şəxsi keyfiyyətlərini qiymətləndirməyə, həyata keçirməyə başlayır, onun emosional vəziyyətləri fərqləndirilir. Onun qarşılıqlı əlaqəsi ətraf dünya ilə keyfiyyətcə yeni məzmun kəsb edir.

Bu yaşda həmyaşıdları ilə münasibətlərin qurulması xüsusi xarakter alır və tələbə üçün əhəmiyyətlidir. Kiçik məktəblilərdə emosional həssaslığın formalaşmasının böyük əksəriyyəti musiqi-estetik fəaliyyətlərlə sıx bağlıdır.

Əsas və erkən yaş mərhələlərində yeganə növ uşaqların birlikdə və digər insanlar ilə ünsiyyət prosesində hisslərinin inkişafını müəyyən edən praktiki, sensor-obyektiv fəaliyyətlərdir. Bu müddət ərzində onlar nəinki özünü göstərir,

həm də inkişaf edirlər.

V.C. Beloborodova [10] hesab edir ki, ibtidai məktəb yaşında başqa bir vacib neoplazma görünür ki, buda özbaşına davranışdır. Bu yaşda uşaq müstəqil olur, müəyyən vəziyyətlərdə necə davranacağını özü seçir. Davranış bu yaşda formalaşan əxlaqi motivlərə əsaslanır.

Uşaq müəyyən qaydaları və qanunları nəzərə alaraq, əxlaqi dəyərləri mənimsəyir və ona əməl etməyə çalışır. Bu, çox vaxt eqoizmlə əlaqələndirilir. Böyüklər tərəfindən bəyənilmək və ya onları gücləndirmək üçün motivlər və istəklər həmyaşıdlar qrupunda şəxsi mövqe yaranır. Yəni onların davranışı bu və ya digər şəkildə baş verir.

Dəyişən və bəzi digər xüsusi təlim proqramlarında və pedaqoji metodların köməyi ilə uşaqların inkişafı problemi həll edilir, uşağın emosional reaksiyasının formalaşması baş verir. O.P. Radinova əsasında "Musiqi dinləmək" proqramı təqdim olunur, başa düşülən musiqi əsərlərinin yüksək keyfiyyətli seçimi uşaqların emosional sahəsini zənginləşdirmək vəzifələri həyata keçirilir.

Bəzi proqramlarda emosionalın zənginləşdirilməsi və inkişafı sahələri fərdi olaraq uşağın ümumi inkişafının komponenti, rolu daha çox qiymətləndirilir və ya daha az yüksəkdir. Bir çox proqramların müsbət cəhəti ondan ibarətdir ki, bu problemlər silsiləsi həm estetik üsullarla, həm də vasitələrlə həll olunur. Təhsil və uşağın kommunikativ qarşılıqlı əlaqəsi kontekstində böyüklər və həmyaşıdları ilə ünsiyyət qurmağın formalari təklif olunur.

V.V.Meduşevskiya görə "Musiqinin məzmununa insanın duyğuları təsir göstərir və musiqinin "yoluxma" mexanizmləri dinləyicilərə emosiyaların "təlqin edilməsi rolunu oynayir». D.N. Jolaya görə, ibtidai məktəb çağında buna inanılır, ətrafdakı insanlarla yeni münasibət növü formalaşmağa başlayır. Müəyyən əxlaqi ideallar, davranış nümunələri yaranır. Uşaq onları anlamağa başlayır, bu zaman onlarda dəyər və zərurət formalaşır. Ancaq şəxsiyyətin formalaşması üçün uşaq ən məhsuldar obyektdır, bu prosesdə böyüklərin diqqəti və qiymətləndirməsi vacibdir.

A.G.Gogoberidze görə, gənc tələbə üçün emosional yüksəliş xarakterikdir və onun iştirakı zamanı həyəcan hissi tamaşada, bayramda, uşaq orkestrinin və ya xorun ifasında yaranır və uşağın musiqiyə münasibətinin dəyişməsini xarakterizə edir. Bir rolu və ya musiqi əsərini yaxşı ifa etmək istəyi göstərir ki, onun üçün əsas olan iştirak prosesi deyil fəaliyyət, lakin onun nəticəsidir. Nəticələrə, ifadəli obraz yaratmağa diqqət yetirin, birlikdə və digər insanlar ilə ünsiyyət prosesində tamaşaçıların rəğbətini qazanmaq istəyi musiqi fəaliyyətlərində iştirakın olduğunu göstərir. Bu uşaq üçün oyun deyil, bədii yaradıcılıqdır.

Uşağın musiqi ilə ünsiyyətinin emosional və praktiki təcrübəsi, ibtidai və orta məktəb yaşında formalaşır, aktlar uşağın musiqi inkişafı üçün təbii əsasdır. "7-8 yaşında uşaq qavrayış prosesi daha fəal olur və səslə musiqi çalmaq aktuallaşır. Səs diapazonu genişlənir." [3]. Beləliklə, bütün deyilənlərdən belə çıxır ki, əsas şərt uşaqda musiqi emosional reaksiyasının inkişafıdır, sonradan olan hiss təcrübəsinin

toplanması bütöv bədii yaradıcılığın təşkili üçün zəruri şərtdir. Məhz bunda uşaq özünü təsəvvür edə bilir, qavrayış və təfsir prosesində yaranan daxili təəssüratlar bədii obraz və ya həyat hadisələrlə bağlı olur.

## ƏDƏBİYYAT


1. Абдуллин Э.Б., Николаева Е.В. Методика музыкального образования: Учебник для студентов высших педагогических учебных заведений / Под общей редакцией М.И.Ройтерштейна. – М.. Музыка, 2006. – 336 с.
2. Анисимов В.П. Диагностика музыкальных способностей детей: Учебное пособие для студентов высших учебных заведений. – М., Гуманитарный издательский центр ВЛАДОС, 2004. – 128 с.
3. Асафьев Б. Избранные статьи о музыкальном просвещении и образовании.– М.-Л.: СМЫСЛ, 1965.- 512 с.
4. Баренбойм Л.А. Об элементарном музыкальном комплексе // Вопросы фортепианной педагогики и исполнительства. М., 2000. с. 249-258.
5. Безбородова Л.А., Алиев Ю.Б. Методика преподавания музыки в общеобразовательных учреждениях. – М., 2002. – с. 241-243.
6. Борухзон Л., Волчек Л. Азбука музыкальной фантазии. Тетр.1. СПб., 2005. – 72 с.
7. Веселые уроки музыки в школе и дома / Автор-составитель З.Н.Бугаева. – М., ООО «Издательство АСТ»; Донецк, Сталкер, 2002. – 383, [1] с. – (Учимся играя).
8. Вилюнас В.К. Психология эмоциональных явлений. М., 2001. – 142 с.
9. Выготский Л.С. Воображение и творчество в детском возрасте. М., 2003. – 93 с.
10. Выготский Л.С. Игра и ее роль в психическом развитии ребенка / Вопросы психики 2006, №3


**Məqalənin redaksiyaya daxil olma tarixi: 28.04.2024**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.06.2024**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.06.2024**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2024, **s.101-108**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2024, **с.101-108**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2024, **p. 101-108**

# *MUSİQİ SƏNƏTİ*

**UOT 347.78**

**Rüfət Ramazanov**
Aparıcı elmi işçi, bəstəkar,
Azərbaycan Bəstəkarlar İttifaqının
və Kinematoqrafçılar İttifaqının üzvü
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası
AZ 1014, Bakı ş., Ş.Bədəlbəyli küçəsi, 98
*E-mail:* rufatcomposer25@gmail.com

**Əli Əliyev**
tarixçi, böyük elmi işçi
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası
AZ 1014, Bakı ş., Ş. Bədəlbəyli küçəsi, 98
*E-mail:* ali_aliyev51@mail.ru

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİNDƏ MUSİQİ ƏSƏRLƏRİNİN HÜQUQİ MÜHAFİZƏSİNİN BƏZİ ASPEKTLƏRİ

***Açar sözlər:*** *musiqi, müəllif hüququ, musiqi əsərlərinin hüquqi mühafizəsi*

Məqalədə musiqi əsərlərinin hüquqi mühafizəsinin spesifik xüsusiyyəti gözdən keçirilir. *“Müəllif və bitişik hüquqlarına dair”* Azərbaycan Respublikasının Qanununun (1 fevral 2008-ci il tarixinə olan dəyişiklik və əlavələri nəzərə almaqla) əsas müddəaları təhlil edilir və onların həyata keçirilməsi musiqi əsərlər misalında göstərilir. Müəlliflər, musiqi sənətinin spesifik xüsusiyyətlərinin, onun janr qanunlarının əsaslarını nəzərə almaqla, mühafizə olunması qaydalarını təhlil etmişdır. Burada, musiqi ilə bağlı olan səhnə əsərlərinin (müxtəlif janrlarda) eləcədə, audio-vizual və kino sahəsində istifadə olunan əsərlərdə bəstəkarın fəaliyyəti qanun əsasında göstərilmişdir. Məqalədə, əsərin mətnli (şeirli) və ya mətnsiz musiqinin də sfesifik xüsusiyyəti araşdırılaraq, mühafizə qanunu çərçivəsində təhlil edilmişdir. Tədqiqatda hər bir musiqi əsərinin, janr baxımından fərqli cəhətlərinin mühafizəsi, qanun tərəfindən qorunması qeyd olunmuşdur. Musiqidə özünü göstərən fonoqram, audio-səs yazılarının istifadə praktikası, onun əsasında bəlli olan müəllif hüququnun mühafizəsi təhlil olunmuşdur. Bu kimi fəaliyyət növünün, müasir

dövrümüadə geniş yayılması, xüsusilə müəllif hüquqları haqda qanunda əks olunması, xüsusi olaraq araşdırılmışdır. Məqalədə, musiqi terminlərinin və ya onun janr anlayışlarının qanun əsasında əksi, araşdırılmışdır. Müəllif hüquqlarını mühafizə edən qanunda, bəstəkarın musiqisinin televiziya kanallarında istifadə olunması da, öz əksini tapmışdır. Burada, istifadə olunan musiqinin lent yazısının, ancaq müəllifin icazəsi olmaqla efirdə verilməsi, qanun əsasında öz həllini tapmalıdır. Məqalədə, müəllif hüquqlarının musiqi ilə əlaqədar ali məktəblərdə tədris olunması üzərində bəzi təkliflər irəli sürülür. Burada, ixtisasdan asılı olaraq, hər bir incəsənət növünün spesifik xüsusiyyətlərini nəzərə alaraq, onun müəllif hüquqları gənc nəslin professional inkişafında böyük rol oynaması qeyd olunmuşdur. Qanun əsasında, musiqi əsərinin müəllifinə, əsərin janrına uyğun olaraq ödənilən qonorar, məqalədə qeyd olunmuşdur. Xüsusi olaraq, elmi məqalədə musiqinin qanun əsasında professionallığının nəzərə alınması əsas məqsəd kimi qeyd olunmuşdur.

**Elmi yeniliyi.** Məqalədə ilk dəfə olaraq, musiqi əsərlərinin hüquqi mühafizəsi mövzusu, tarixi, hüquqi və eyni zamanda yaradıcılıq nöqteyi-nəzərdən araşdırılmış və ona elmi qiymət verilmişdir. Məqalədə, yaradıcı şəxsin (bəstəkarın) əsər üzərində işinin, qanunvericiliyə əsaslanaraq aldlğı qonorarın janra uyğun olaraq ödənilməsi və onun hüquqi mühafizəsinin bəzi müddəaları araşdırılmışdır. Hazırki tədqiqat əsasında, musiqi əsərlərinin müxtəlif janrlarına individual yanaşılaraq, onun qanun çərçivəsində mühafizəsinə müasir dövrün tələblərinə uyğun olaraq təhlili yerinə yetirilmişdir.

**Р.Рамазанов, А.Алиев**

## НЕКОТОРЫЕ АСПЕКТЫ ПРАВОВОЙ ОХРАНЫ МУЗЫКАЛЬНЫХ ПРОИЗВЕДЕНИЙ В ЗАКОНОДАТЕЛЬСТВЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

***Ключевые слова:*** *музыка, авторское право, правовая охрана музыкальных произведений*

В статье рассматривается специфика правовой охраны музыкальных произведений. Дается анализ основных положений Закона Азербайджанской Республики «Об авторских и смежных правах (с изменениями и дополнениями на 1 февраля 2008 г.), их реализация на примерах музыкальных произведений. Авторы проанализировали правила правовой охраны специфических особенностей музыкального искусства, учитывая основы его жанровых закономерностей. Здесь на основании закона указана деятельность композитора в сценических произведениях, связанных с музыкой (в различных жанрах), а также произведениях, используемых в

аудиовизуальной и кинематографической сферах. В статье исследована и проанализирована в рамках охранного права специфика музыки с текстом (поэтической) или без текста. В исследовании была упомянута правовая охрана каждого музыкального произведения и его различные жанры. Проанализирована практика использования фонограмм, аудиозаписей, проявляющаяся в музыке, и основанная на ней защита авторских прав. Специально исследовано широкое распространение этого вида деятельности в наше время и его отражение в законодательстве об авторском праве. В статье исследовано отражение музыкального термина или его жанровых понятий на основе закона. Использование музыки композитора на телеканалах также отражено в законе об авторском праве. При этом трансляция магнитофонной записи, использованной музыки, только с разрешения автора, должна быть решена на основании закона. В статье выдвигаются некоторые предложения по преподаванию авторского права на музыку в музыкальных вузах. При этом, учитывая специфические особенности каждого вида искусства, в зависимости от специальности, его авторское право играет большую роль в профессиональном становлении молодого поколения. Согласно закону, в статье упоминаются гонорары, выплачиваемые автору музыкального произведения в зависимости от жанра произведения. В частности, в качестве основной цели в научной статье было также рассмотрение профессионализма музыки на основе закона.

**Научная новизна.** Впервые в статье тема правовой охраны музыкальных произведений исследована с исторической, правовой и в то же время творческой точки зрения и дана ей научная оценка. В статье рассматриваются некоторые положения работы творческого человека (композитора) над произведением, выплата гонорара на основании законодательства по жанрам и его правовая охрана. На основе настоящего исследования осуществлен индивидуальный подход к различным жанрам музыкальных произведений, а также проведен анализ в соответствии с требованиями современной эпохи по их охране в рамках закона.

**R.Ramazanov, A.Aliyev**

## SOME ASPECTS OF LEGAL PROTECTION OF MUSICAL WORKS IN THE LEGISLATION OF THE REPUBLIC OF AZERBAIJAN

***Key words:*** *music, author rights, legal security of musical work*

The article depicts the specifics of legal security of musical compositions, the analysis of main provisions of author and related rights in Azerbaijan Republic Lows (with changes and additions from 1 February 2008) their

realization on examples of musical compositions. The authors analyzed the rules for legal protection of specific features of musical art, taking into account the basics of its genre patterns. Here, on the basis of the law, the activities of the composer are indicated in stage works related to music (in various genres), as well as works used in the audiovisual and cinematographic spheres. The article explores and analyzes the specifics of music with text (poetic) or without text within the framework of copyright law. The study mentioned the legal protection of each musical work and its different genres. The practice of using phonograms, audio recordings, manifested in music, and copyright protection based on it are analyzed. The wide distribution of this type of activity in our time and its reflection in copyright legislation has been specially studied. The article examines the reflection of a musical term or its genre concepts based on the law. The use of the composer's music on television channels is also reflected in copyright law. At the same time, the broadcast of a tape recording of the music used, only with the permission of the author, must be decided on the basis of the law. The article puts forward some proposals for teaching music copyright in music universities. At the same time, taking into account the specific features of each type of art, depending on the specialty, its copyright plays a big role in the professional development of the younger generation. According to the law, the article mentions royalties paid to the author of a musical work depending on the genre of the work. In particular, the main goal of the scientific article was also to consider the professionalism of music based on the law.

**Scientific novelty.** For the first time in the article, the topic of legal protection of musical works is studied from a historical, legal and at the same time creative point of view and a scientific assessment is given to it. The article discusses some provisions of the work of a creative person (composer) on a work, payment of royalties on the basis of legislation on genres and its legal protection. Based on this study, an individual approach to various genres of musical works was carried out, and an analysis was carried out in accordance with the requirements of the modern era for their protection within the framework of the law.

Yaradıcı şəxsin müəlliflik hüququ, müvafiq qanunvericiliklə qorunur. Burada, konkret məqamlar üzrə bütün əsas müddəalar müəyyən edilir. Tədqiq olunan problemin əsas tərəflərini aydınlaşdırmadan öncə, musiqi əsərlərinin öz spesifikası və xüsusiyyətlərinə görə digər ədəbi-bədii əsər növlərindən köklü şəkildə fərqləndiyini nəzərə çatdırmağı özümüzə borc bilirik. Musiqi, *“səslərin ardıcıl və ahəngdar birləşmə sənəti”* [1] kimi müxtəlif variantlarda, yəni “canlı səsin” ənənəvi not yazısı formasından tutmuş, müasir dövrdə analoq və rəqəmsal

səs yazısının çeşidli variantlarına qədər müxtəlif versiyalarda təcəssüm (ifadə) edilə bilər. Bununla bərabər, musiqi əsərlərinin müəyyən növləri təyinatına, xarakterinə və ifadə üsullarına, səslənmə müddətinə və digər tərkib xüsusiyyətlərinə görə bir-birindən köklü şəkildə fərqlənə bilər [2]. Belə ki, məsələn musiqili-dramatik əsərlərin mətnli və ya mətnsiz, kiçik ölçülü variantları (mahnılar, ariyalar və s.), iri həcmli əsərlər (opera, operetta, müzikl, ədəbi-musiqi səhnəciklər kimi) və digər janrları, "ciddi" və "yüngül" musiqi kompozisiyası anlayışları da mövcuddur. Bundan əlavə, musiqi əsərləri digər əsər növlərinin, ilk növbədə audiovizual əsərlərin (yəni müxtəlif film və slaydların) əhəmiyyətli tərkib hissəsi kimi də çıxış edə bilər. Həmçinin digər sahələrdə — radio və televiziyada, konsert salonlarında, kütləvi mədəni tədbirlərdə istifadə olunan müxtəlif multimedia məhsullarının da bir hissəsi ola bilər. Qeyd edək ki, bu siyahını davam etmək də olar. Azərbaycan Respublikasının Qanunvericiliyinin 1996-cı il 5 iyun tarixli "müəllif hüquqları və əlaqəli huquqlar haqqında" ("daha sonralar "müəllif hüquqları haqqında qanun") qanunun 6-cı maddəsinə əsasən, mətnli və mətnsiz musiqi əsərləri, həmçinin musiqi-dramatik əsərləri müəllif hüquqlarının obyektidir [3].

Qeyd etməyi özümüzə borc bilirik ki, musiqi əsərlərinin mühafizəsi ilə bağlı problemlər, bir çox cəhətdən obyektiv hadisə olmaqla yanaşı, fikrimizcə musiqi əsərlərinin özünün spesifik mahiyyəti, onların xüsusiyyətləri və istifadəsi, hüquqi müdafiə tələbləri kimi anlayışların nəticəsini ehtiva edir.

Musiqi əsərlərinin mühafizəsinin bir sıra xüsusiyyətləri beynəlxalq hüquqda öz əksini tapmış və təsbit edilmişdir. Belə ki, 1886-cı il tarixli (düzəliş və əlavələrlə 1971 ildə), Ədəbiyyat və İncəsənət əsərlərin Mühafizəsi haqqında Bern Konvensiyasının (daha sonralar "Bern Konvensiyası") 11-ci maddəsinə əsasən musiqi və musiqi-dramatik əsərlərin ictimaiyyətə təqdim edilməsinə huquqların verilməsi zərurəti məsələsi xüsusi olaraq müəyyən edilmişdir. 13-cü maddənin 1-ci bəndi, musiqi əsərlərini yazmaq hüququ ilə bağlı məcburi lisenziyaların müəyyən edilməsi imkanını nəzərdə tutur. Buna görə : müəyyən bir hərəkəti yerinə yetirmək üçün icazə vermək, müstəsna hüquqi mükafat almaq hüququ ilə dəyişilə bilər [4, s.437]. Eyni zamanda, Bern Konvensiyasının 2-ci maddəsinin 1-ci bəndinə əsasən, "ədəbiyyat və incəsənət əsərləri" ümumi termin kimi (digər əsər növləri ilə yanaşı), "musiqili-dramatik əsərləri"; xoreoqrafik əsərlər və pantomimləri; bütün mətnli və mətnsiz musiqi əsərlərini əhatə edir və bu, beləliklə Konvensiyanın bütün əsas müddəaları bu əsərlərə şamil olur [4, s. 435].

Azərbaycan Respublikasının qanunvericiliyi, musiqi əsərlərinin müəlliflərinə Bern konvensiyası tərəfindən müəyyən ediləndən daha yüksək səviyyədə qorunma təmin edir, xüsusən də, bu əsərlərə münasibətdə yuxarıda göstərilən və konvensiyanın 13-cü maddəsinin 1-ci bəndi ilə təyin edilmiş hüquqların məhdudlaşdırılmasının mümkünlüyündən istifadə etmir. Belə ki, Azərbaycan

Respubikasının "müəlliflik hüququ haqqında" qanununun 12-ci maddəsinə əsasən audiovizual əsər üçün xüsusi olaraq yaradılmış musiqi əsərinin (mətnli və mətnsiz) müəllifi olan bəstəkar (rejissor və ssenari müəllifi ilə birlikdə) bu audiovizual əsərin müəlliflərindən biri kimi də tanınır. Bundan əlavə, nəinki audiovizual əsər üçün xüsusi olaraq yaradılmış musiqi əsərinin müəllifləri, həm də, bu audiovizual əsərdə musiqisindən istifadə olunan hər hansı digər bəstəkar (audiovizual əsərin tərkib hissəsi olan, öz musiqi əsərinin hüquqlarının ötürülməsindən asılı olmayaraq) audiovizual əsərin istənilən ifasında, yaxud efir və ya kabellə ötürülməsinə görə mükafat almaq hüququnu qorumuş olur. Beləliklə, bu halda yalnız bəstəkar mükafat almaq hüququna malikdir (söz və ya libretto müəllifiləri bu haqdan yararlana bilməz).Hüquqi imkanların genişlənməsi, bəstəkarın haqqı ödənilməli olduğu audiovizual əsərin istifadə üsulları sırasına nəinki ictimai ifa hallarının, o cümlədən kinoteatrda nümayiş hallarının, həmçinin audiovizual əsərin efir və ya kabel vasitəsi ilə ötürülməsi hallarının da daxil edilməsi hesabına baş vermişdir. Bəstəkarlar həmçinin "müəllif haqqında qanunun" 17-ci maddəsində nəzərdə tutulan *"fonoqramların və audiovizual əsərlərin şəxsi məqsədlər üçün azad istifadəsi hallarında kompensasiya"*-nın əsas alıcılarından biridir. Azərbaycan Respublikasının "müəllif hüquqları haqqında" qanununun 25-ci maddəsinə əsasən müəllif hüququnun müddəti əsərin yaradılmasından başlayaraq müəllifin bütün həyatı boyunca və ölümündən sonra 50 ilə qədər müddətdə keçərli olur.

Azərbaycan Respublikasının mülki qanunvericiliyində musiqi əsərlərinə hüquqların kollektiv əsaslarla həyata keçirilməsinə böyük diqqət yetirilir. Bu bağlantı onunla əlaqədardır ki, əsərlərin publika qarşısında ifası ilə məşqul olan təşkilatlar, ilk növbədə, televiziya və radio yayımı şirkətləri istər-istəməz geniş repertuarlardan istifadədə və *"onlara aid hüquqların təmizlənməsi üçün"* sadələşdirilmiş sistemlərin istifadə imkanlarında maraqlıdırlar [5; s. 45-53]. Sözsüz ki, bəstəkarların (və digər mülkiyyətçilərin) musiqi əsərlərinə hüquqlarının həyata keçirilməsi, nəşr olunan musiqi əsərinə müstəsna hüquqların verilməsi, onların kütləvi ifa, yayım və kabel istifadəsi ilə ötürülməsi zamanı idarə edilməsi halları ilə bilavasitə bağlıdır. Bundan əlavə musiqi əsərlərinin hüquq sahibləri, şəxsi məqsədlərlə fonoqramm və audiovizual əsərlərin istehsalçılarından toplanmalı olan mükafatların əsas potensial alıcıları sırasındadırlar. Musiqi əsərlərinin bu hüquqlara münasibətdə, bütün növ əsərlər üçün müəyyən edilmiş ümumi müəllif hüquqları məhdudiyyətləri, və musiqi əsərlərindən istifadənin müəyyən hallarını müəllif hüquqlarının müdafiəsi çərçivəsindən çıxaran çox az xüsusi müddəalar mövcuddur. Sonunculara, Azərbaycan Respublikasının *"müəlliflik hüququ haqqında"* qanunun 21-ci maddəsinə aid olan, müəllifin və digər müəllif hüquqları sahibinin razılığı olmadan rəsmi və digər mərasimlər zamanı əsərin kütləvi ifa edilməsinin mümkünlüyünü nəzərdə tutan bənd daxildir.

Əsərləri müəllifin və müəllif hüquqlarına malik digər şəxslərin razılıqları olmadan məhkəmə və inzibati məqsədlər üçün səsləndirilməsinə icazə verən 22-ci maddəni də nəzərə çatdırmaq istərdik. Qeyd olunan qanunun 7-ci maddəsinə əsasən dövlət rəmzləri olan musiqi əsərləri (məsələn Azərbaycan Respublikasının Dövlət himni), bu əsəri himn kimi (publik hüquqi şəxs kimi) tanıyan normativ aktın quvvəyə mindiyi andan müəllif hüquqlarının müdafiəsi sahəsindən çıxarılmış olur. Konkret müəllifləri bəlli olmayan xalq yaradıcılığı (folklor) əsərləri də, müəlliflik hüququ obyekti deyildir.

Fikrimizcə, ayrıca musiqi əsərlərinə aid reallaşan müəllif haqlarının, bir çox halda həmin əsərləri dinləyicilərə çatdıran (not yazısı şəklində təqdim olunan əsərləri və yayılma hallarını çıxmaq şərti ilə) ifaçıların, fonoqram istehsalçılarının və yayım təşkilatlarının haqları ilə qarşılıqlı əlaqəsi məsələsi də diqqətə layiqdir.

Yuxarıda göstərilən müddəalar, bir neçə nəticəyə gəlmək üçün imkan yaradır. Müəllif hüquqları sahəsində Azərbaycan Respubikasının qanunvericiliyində musiqi əsərləri üçün, müəllif haqları və əlaqəli haqların bütün obyektləri üçün eyni olan haqlar təmin edilir və bu da, beynəlxalq standartlara və beynəlxalaq səviyyədə məsələyə yanaşmaya tam uyğundur. Azərbaycan Respublikası qanunvericiliyində musiqi əsərlərinin hüquq sahiblərinə əlavə haqqların ödənilməsinin xüsusi halları, habelə musiqi əsərlərindən istifadəyə görə, hüquqların idarə edilməsi və haqqın toplanması sistemini müəyyən edən xüsusi müddəalar nəzərdə tutulur. Bəzi hallarda, bu, bəstəkarları və musiqi əsərlərini (başqa hüquq sahiblərini) digər müəllif kateqoriyalarını, xüsusən də, ədəbi yazarlar ilə müqayisədə daha “imtiyazlı” vəziyyətə qoyur; - musiqi əsərlərinə şamil olunan hüquqlarla bağlı məhdudiyyətlər azdır ki, bəzi halarda, bu da, məsuliyyətsiz şəxslər tərəfindən sui- istifadəyə səbəb olur. Eyni zamanda, müasir texnoloqiyaların inkişafı şəraitində musiqi əsərləri müəllif hüquqları obyektlərinin ən həssas növlərindən birinə çevrilir və ondan qeyri-qanuni istifadə halları getdikcə daha da yayılmaqdadır. Musiqi əsərlərinin müəllif hüquqları pozuntuları ilə mübarizədə, həm qanunvericiliyin, həm də, hüquq-mühafizə təcrübəsinin sonrakı zamanda daha da uyğunlaşdırılması tələb olunur. Onu da qeyd edək ki, müasir dövrdə, respublikamızın musiqi-tədris ocaqlarının heç birində müəllif hüquqları fənni keçilmir. Zənnimizcə, bu fənn sayəsində professional musiqiçilər (istər bəstəkar, pianoçu və b.) müasir dövrdə, yaradıcı insanların həyatında önəmli yer tutan və yeni musiqi əsərinin yaradılması və təbliğatı ilə bilavasitə bağlı olan *müəllif hüquqları haqqında* biliklərin toplanmasında və musiqiçilərin bu önəmli sahədə püxtələşməsində əhəmiyyətli rolu oynayacaqdır.

# ƏDƏBİYYAT


1. Даль В. Толковый словарь живого великорусского языка. В четырех томах / В.Даль - Москва, “Русский язык”, 1978.
2. Зильберштейн Н.Л. Авторское право на музыкальные произведения. / Н.Л.Зильберштейн - Москва, «Советский композитор». 1960. 188 с.
3. Закон Азербайджанской Республики «Об авторских и смежных правах (с изменениями и дополнениями на 1 февраля 2008 г.) – Баку, Qanun. 2009.
4. Бернская конвенция по охране литературных и художественных произведений (в ред. 1971) в кн. Судариков С.А. Авторское право. /С.А. Судариков- Москва, Проспект, 2014.- 464 с.
5. İmanov K. Azərbaycanda müəlliflik hüququ; imkanlar və perspektivlər./ K.İmanov // Musiqi dünyası, 2011, №2/47, s.45-53.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 28.04.2024**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.06.2024**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.06.2024**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq doktoru, professor Ülkər Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2024, **s.109-119**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2024, **с. 109-119**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2024, **p. 109-119**

**UOT 785**

**F.İ.Nəsirova-Əhmədova**
elmi işçisi, dissertant
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası
AZ 1014, Bakı ş., Ş.Bədəlbəyli küçəsi, 98
*E-mail:* fidan.nasirli@mail.ru

# BƏSTƏKAR İLAHƏ QİSMƏTİN “RƏNGLİ LÖVHƏLƏR” ADLI FORTEPİANO MƏCMUƏSİ

***Açar sözlər:*** *Azərbaycan bəstəkarlıq məktəbi, rəngli lövhələr, pyeslər, cəsus, ritm, metr, temp, ölçü, ifaçılıq məktəbi, məcmuə*

Azərbaycan bəstəkarlıq məktəbinin yeni gənc nəslinin yetirməsi olan İlahə Qismətin təqdim etdiyi “Rəngli lövhələr” adlı fortepiano məcmuəsi ifaçılar tərəfindən böyük məhəbbətlə ifa olunaraq pedaqoji ifaçılıq proqramına daxil edilib. Belə ki, bu məcmuə 2 bölmədən ibarətdir. I bölmədə 9, II bölmədə isə 14 pyeslər təqdim edilir. Məcmuənin I bölmədəki pyesləri uşaq məktəblərinin şagirdlərinin ifası üçün, II bölmədəki pyeslər öz mürəkkəbliyi, ifa texnikasına görə ali məktəb tələbələri üçün nəzərdə tutulub. İfadə vasitələri – temp, ölçü, ritm, metr, ifa texnikasına görə müxtəlif olan pyeslərin bəziləri artıq Azərbaycanda deyil, onun hüdudlarından uzaqlarda da geniş dinləyici kütləsi əhatəsində müvəffəqiyyətlə ifa olunub. Bunlardan “The World of Nasimi”, “Cəsus” pyeslərini misal göstərmək olar.

Məcmuədəki bu bölmədəki pyesləri uşaqların daxili aləmini, ovqatını açır. Əslində uşaqlar üçün əsərlər bəstələmək çətin, mürəkkəb bir işdir. Belə pyeslər imkan dairəsində çox qəliz olmamalı, bədii cəhətdən uşaq təfəkkürünə və təxəyyülünə yaxın olub, musiqidə ilk addımlarını atan musiqiçinin xoşuna gəlməlidir.

**Ф.И.Насирова-Ахмедова**

# ФОРТЕПИАННЫЙ СБОРНИК КОМПОЗИТОРА ИЛАХИ ГИСМЕТ «RƏNGLİ LÖVHƏLƏR» («КРАСОЧНЫЕ КАРТИНКИ»)

***Ключевые слова:*** *азербайджанская композиторская школа, «Rəngli lövhələr» («Красочные картинки»), пьесы, шпион, ритм, метр, темп, размер, исполнительская школа, сборник*

Фортепианный сборник «Rəngli lövhələr» («Красочные картинки»), принадлежащий представительнице молодого поколения азербайджанской композиторской школы Илахе Гисмет, исполняется учащимися с большой любовью и включен в программу педагогического репертуара. Этот сборник состоит из 2 разделов. В I разделе представлены 9 пьес, во II разделе – 14 пьес. Пьесы I раздела сборника рассчитаны на учащихся детских музыкальных школ, а пьесы II раздела – в силу сложности исполнения - на студентов высших учебных заведений. Некоторые из пьес этого сборника (различные по средствам выражения - темпу, размеру, ритму, метру, технике исполнения) с успехом исполнялись перед широкой публикой не только в Азербайджане, но и далеко за его пределами. Среди них в качестве примера можно привести пьесы «The World of Nasimi» («Мир Насими») «Cəsus» («Шпион»).

Пьесы этого сборника раскрывают внутренний мир детей. В действительности писать произведение для детей – трудная, комплексная задача. Такие пьесы с художественный точки зрения должны быть близки детскому мышлению и воображению, нравиться музыканту, делающему свои первые шаги в музыке.

**F.I.Nasirova-Ahmedova**

## A PIANO COLLECTION BY COMPOSER ILAHA GISMET "RƏNGLİ LÖVHƏLƏR" ("COLORFUL PICTURES")

***Key words:*** *Azerbaijani school of composition, "Rəngli lövhələr" ("Colorful pictures"), plays, spy, rhythm, meter, tempo, size, performing school, collection*

The piano collection "Rəngli lövhələr" ("Colorful Pictures"), owned by the representative of the younger generation of the Azerbaijani school of composition Ilaha Gismet, is performed by students with great love and is included in the pedagogical repertoire program. This collection consists of 2 sections. Section I presents 9 plays, Section II – 14 plays. The plays in Section I of the collection are intended for students of children's music schools, and the plays in Section II, due to the complexity of their performance, are intended for students of higher educational institutions. Some of the plays in this collection (different in terms of means of expression - tempo, size, rhythm, meter, performance technique) were successfully performed in front of a wide public not only in Azerbaijan, but also far beyond its borders. Among them, examples include the plays "The World of Nasimi" and "Cəsus" ("Spy").

The plays in this collection reveal the inner world of children. In reality, writing a work for children is a difficult, complex task. From an artistic point of

view, such plays should be close to children's thinking and imagination, and should appeal to a musician taking his first steps in music.

Azərbaycan fortepiano musiqisində uşaqlar üçün yazılmış fortepiano məcmuələr çoxdur. Asəf Zeynallının "Uşaq süitası", Fikrət Əmirovun "Uşaq lövhələri", "12 miniatür", Tofiq Quliyevin "Cəmilənin albomu", Qara Qarayevin "Altı uşaq pyesi", "Orta çətinlikdə pyeslər", Əşrəf Abasovun "Uşaq pyesləri", Cövdət Hacıyevin "Musiqi lövhələri", Xəyyam Mirzəzadənin "Uşaq pyesləri", Ramiz Mirişlinin "Altı miniatür", Cavanşir Quliyevin "Günəşin musiqi dəftəri" – bu siyahıya bir çox əlavələr etmək olar. Qeyd etdiyimiz məcmuələrin hər birinin Azərbaycan fortepaino musiqisində öz rolu, əhəmiyyəti olmuş, onların hər birinin özəlliyi və gözəlliyi vardır. Bütün sadaladığımız məcmuələr pedaqoji mühit, ifaçılıq sənəti üçün böyük mənbədir.

Gənc bəstəkar İlahə Qismət bu gün Azərbaycan bəstəkarlıq məktəbinin yeni nəslinin istedadlı nümayəndələrindəndir. Bəstəkarın təqdim etdiyi məcmuədəki uşaq pyesləri çox kiçik yaşlarından öz uşaq dünyasında yaşadığı dövrdə yazılıb. Bu illərdə hələ Bülbül adına orta ixtisas musiqi məktəbində bəstəkarlıqdan müəllimi Nərgiz Şəfiyevanın məsləhəti ilə sənətdə ilk addımlarını atan bəstəkarın kiçik janrda yazılmış pyesləri meydana gəlir. Bununla yanaşı bəstəkarlıqdan dərs almaqla yanaşı, fortepiano və xanəndəlik sinfində də təhsil alır. Təbiidir ki, artıq Ü.Hacıbəyli adına BMA-nın "Bəstəkarlıq" fakultəsində gözəl pedaqoq, istedadlı əfsanəvi bəstəkar Arif Məlikovun sinfində təhsil alarkən bu əsərlərin üzərində gənc bəstəkar müəyyən dərəcədə yenidən işləmişdir. Bununla belə pyesləri ifa etdikdə burada uşaq aləminin "izlərini", uşaq təxəyyülünün müxtəlif təzahürlərini görürük. Diqqətçəkən məqamlardan biri də məcmuənin birinci bölməsinə daxil olan pyeslərin pianoçuluq effektlərinin sadə olmasına baxmayaraq, onların konsert səslənməsinə malik olmasıdır, çünki bəstəkar az yaşlı ifaçının ifadə imkanlarını gözəl duya bilir. Bunlardan ən başlıca cəhət pyeslərin melodikliyi və tematizmin heyrətamiz dərəcədə yaddaqalan olmasıdır. Kamera yazı dəst-xəttini istifadə edən bəstəkarın pyesləri intonasiya ifadəliyinə görə çox rəngarəngdir.

Gənc bəstəkar sevdiyi sənət sahəsində çox məhsuldar işləyərək daim öz üzərində çalışır və püxtələşir. Bəstəkar İlahə Qismətin bəstələdiyi "Rəngli lövhələr" adlı fortepiano üçün əsərlərdən ibarət məcmuə 2023-cü ildə işıq üzü görmüşdür. İki bölmədən ibarət olan bu məcmuənin pyesləri uşaq musiqi məktəblərinin başlanğıc və orta sinifləri üçün nəzərdə tutulmuşdur. Buraya daxil olan 9 pyesi İlahə Qismət 2005-2008-ci illərdə hələ Bülbül adına orta ixtisas musiqi məktəbində təhsil aldığı illərdə, məcmuənin ikinci bölməsindəki pyeslər isə bəstəkarın yaradıcılığının müxtəlif illərinə, əsasən nisbətən son dövrlərə aiddir. Buna misal olaraq "Casus" adlı sirli və vahiməli, iri həcmli, texniki baxımdan çox mürəkkəb olan, "The World of Nasimi" ("Nəsimi dünyası") kompozisiyasını göstərmək olar.

Respublikanın Xalq artisti, professor, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadə əsəri çox yüksək dəyərləndirmiş və bu kompozisiyanı sevdiyini öz çıxışlarında dəfələrlə vurğulamışdır. İlahə Qismətin "Rəngli lövhələr" məcmuəsi haqda Firəngiz xanımın təqdim etdiyi ön sözündə bəstəkar haqda öz fikirləri qeyd olunmuşdur: **"Bu əsər tədbirdə səsləndikdə deyə bilərəm ki, zövq almışdım. Təbii ki, əsərin ilk dəfə istedadlı pianoçu Fəqan Həsənlinin ifasından parlaq təqdimatı, bəstəkar və ifaçının səmərəli yaradıcı məşqlərinin nəticəsidir. Burada İlahənin ifaçı ilə düzgün yaradıcı münasibət qurmaq kimi daha bir önəmli xüsusiyyəti ortaya çıxır. Bəstəkarın tələbkarlığı, ifaçı ilə ciddi məsuliyyətli formada işləməsi əsərin uğurlu təqdimatına da dəlalət edir"** [1, s. 3-4].

İlahə Qismətin "Rəngli lövhələr" məcmuəsinin birinci bölməsində 9, ikinci bölməsində 14 pyes yerləşdirilmişdir. Hər iki bölmədəki pyeslər proqramlıdır. Bəzi pyeslər "İnvensiya" – polifonik, "Etüd" texniki pyes, "Vals" isə rəqs janrını təmsil edir. Bu bölmədəki sonuncudan əvvəlki pyesin adı sıra sayı ilə "Altıncı" kimi qeyd olunmuşdur. İkinci bölmədəki pyeslərin bəziləri I bölmədəki pyeslərdən məzmun və ifa texnikası baxımından bir qədər mürəkkəb pyeslərdir. I böğlmədəki "Şəfəq", "Aşıqsayağı", "Vals", "Meh" – bu pyeslər uşaq musiqi məktəblərinin orta siniflərində ifa olunaraq, repertuarda da yer tuta bilər. İkinci bölmədəki "Təlaş", "Mistika", "İnvensiya", "Venera", "Casus", "Zaman", "İntro" pyesləri peşəkar pianoçular üçün nəzərdə tutulmuşdur. Bu pyeslər onbirillik musiqi məktəblərinin yuxarı sinifləri, ali təhsil ocaqlarında təhsil alan tələbələr tərəfindən ifa proqramına daxil edilə bilər.

Əvvəldə qeyd etdiyimiz kimi I bölməyə 9 pyeslər - "Ekspress", "Kəpənəklərin rəqsi", "Düşüncə", "Payız nəğməsi", "Şirin yuxu", "İntro", Renessans", "Dalğalar", "Zərlər" daxildir. Buradakı pyeslər obraz, məzmun və xarakter baxımından həqiqətən rəngli lövhələrdir və musiqi məktəbinin aşağı sinif şagirdlərinin ifası üçün nəzərdə tutulmuşdur. Tonallıqlara nəzər yetirdikdə əsasən az işarəli tonallıqların tətbiq olunduğunu görürük. Əsasən re minor (d-moll) – "Kəpənəklərin rəqsi", "Düşüncə", "Payız nəğməsi", Do major (C-dur) - "Sarkazm", si minor (h-moll) - "Duyğular". Yalnız "Renessans" pyesi 4 işarəli fa minor (f-moll) tonallığındadır. Birinci bölməyə daxil olan pyeslərin əksəriyyəti ağır və orta tempdədir ki, bu da məzmundan, obrazdan irəli gəlir: "Düşücə" – Adajio, "Payız nəğməsi" – Lento, "Şirin yuxu" – Moderato, "Renessans" – Andante, "Dalğalar"- Moderato (dolce). İncə, zərif ruhlu bir pyes olan "Kəpənəklərin rəqsi" isə vals tempindədir. Pyeslərin əvəzlənmə sırasında temp təzadı verilmir. Bəzən bir neçə ağır, orta templi pyeslər növbələşərək ardıcıl verilir.

Məcmuədəki bu bölmədəki pyesləri uşaqların daxili aləmini, ovqatını açır. Əslində uşaqlar üçün əsərlər bəstələmək çətin, mürəkkəb bir işdir. Belə pyeslər imkan dairəsində çox qəliz olmamalı, bədii cəhətdən uşaq təfəkkürünə və

təxəyyülünə yaxın olub, musiqidə ilk addımlarını atan musiqiçinin xoşuna gəlməlidir.

Məcmuəni açan ilk pyes “Ekspress” – adından məlum olduğu kimi şən, oynaq, canlı əhval-ruhiyyə daşıyır. Bu, məcmuədə birinci bölmənin ən cəld templi pyesidir, vivo tempində ifa olunur, oyun-skerso xarakteri daşıyır. Bir qədər ruhən Sergey Prokofyevin pyeslərinə yaxın olub, tokkatanı xatırladır, çox dinamikdir. Sanki kaleydoskop şəklində faktura formulaları bir-birini əvəzləyir. Çox maraqlı 5/8 ölçüsü çərçivəsində 2/8 və 3/8 ölçülərinin növbələşməsi nəzərə çarpır. “Şur” məqamı üzərində qurulan melodiya ostinat ritmik formula donunda fasiləsiz inkişaf edir.

**NÜMUNƏ 1**




İkinci pyes “Kəpənəklərin rəqsi” – lirik mahnıvari üslubdadır. “Bayatı-Şiraz” məqamına əsaslanır, vals tempindədir. “Ekspress” pyesində fakturada aşağı registrə üstünlük verilirdisə, “Kəpənəklərin rəqsi”ndə zərif təbiət obrazını yaratmaqdan ötrü yuxarı registrin səslənməsi tətbiq olunur. Lirik xarakterli rəqs sanki gül-çiçəklərin üzərində uçuşan kəpənəkləri təsvir edir. Təravətli melodiyada sinkopa xüsusiyyəti heç də səlisliyi pozmur, əksinə ona xüsusi gözəllik, yeni bir ştrix gətirir.

**NÜMUNƏ 2**

Kəpənəklərin rəqsi




Növbəti – “Düşüncə” pyesi “Kəpənəklərin rəqsi”nin lirik ovqatını davam etdirir. Ağır templi 6/8 ölçülü bu pyesdə melodiyanın inkişafı basın ostinat ritmik formulu fonunda keçir. Tonallıq “Kəpənəklərin rəqsi” ilə eynidir (d-moll, “re” mayəli “Bayatı-Şiraz”).

“Düşüncə” pyesi bir növ “Elegiya”ya bənzəyir. Bu, uşaq aləmi, uşaq duyğuları ilə bağlı olan bir elegiyadır.

**NÜMUNƏ 3**

Düşüncə



"Düşüncə"nin melodiyası işıqlı və eyni zamanda həm də qəmgindir, getdikcə dramatik xarakter alır, sonra isə yenə sakitləşir, melodiyanı sanki violin ifa edir.

Növbəti pyes yenə ağır, Lento tempində ifa olunan "Payız nəğməsi"dir. Onun məqam əsası və tonallığı əvvəlki pyeslə eynidir: "re" mayəli "Bayatı-Şiraz". "Payız nəğməsi" adlandırılan bu pyesdə təbiət lövhəsi verilir. Pyesi dinləyərkən sanki payızın nəfəsi duyulur, yağış damcılarının səsi, yarpaqların pıqqıltısı yağışa məxsus sükut eşidilir.

Məcmuənin təbiət mövzusunda daha bir pyesi "Dalğalar" – orta templidir – Moderato-dolce. Ostinat ritmik formulanın müşayiətində səslənən melodiya sanki ləpədöyənin səsini xatırladır.

Uşaq aləmi ilə bağlı "Şirin yuxu" pyesi "Sarkazm", "Renessans", "Zərlər" pyesləri isə obraz baxımından təzadlıdır. "Sarkazm" – Sergey Prokofyev üslubundadır. Moderato marcato tempində olan bu pyesdə daha çox zarafatyana ruh, uşaq gülüşü, uşaq təbəssümü duyulur. Ritmin kəskinliyi, registr təzadları, dissonans üçtonlu intervala gedişlər, xromatizm bəzən isə üçüncü passajlar – bütün bunlar sarkastik obrazı yaratmağa xidmət edir. Pyesdə sanki küskün, incik insan rolunu oynayan, uşaqların çox sevdiyi klounun obrazı yaradılır. O, öz atmacaları, bəzən kinayə və istehzaları ilə uşaqları əyləndirir, qaçır, atılıb-düşür, nəhayət bütün bunlardan bezərək, yorulub uşaqları əyləndirmək üçün qəfildən yıxılır.

"İntro"dan sonrakı pyes – "Renessans" isə əvvəlki ilə tam təzad təşkil edir. Bu, əsl barokko üslubunda yazılmış pyesdir. Həzin, elegik "Bayatı-Şiraz" məqamına əsaslanan "Renessans" Andante tempində ifa olunur. Çox poetik ovqatlı, bir qədər improvizasiya üslublu melodiya üzərində qurulan bu pyesdə İ.S.Baxın violin əsərlərinə yaxınlıq duyulur. Əslində "Renessans" neoklassik üslubda pyes sayıla bilər. Maraqlı cəhət odur ki, ikisəsli faktura üzərində qurulan bu pyes sanki violin və violonçelin duetidir.

**NÜMUNƏ 4**



Məcmuənin sonuncu pyesi “Zərlər” – tokkata üslubundadır. İfa baxımından bu pyesin əsas çətinliyi üçhissəli formanın kənar hissələrində Alleqretto tempində dəyişkən ölçünün verilməsi – 5/8 və 7/8 ölçülərinin hər növbəti xanədə bir-birini əvəzləməsidir. Pyesin orta hissəsində isə 7/8 ölçüdə ostinat ritmik formula fonunda basda, aşağı registrdə melodiya səslənir. Ümumiyyətlə, “Zərlər” pyesi ruhən, ovqatı baxımından bir qədər Arif Məlikovun fortepiano pyeslərini xatırladır.

Əvvəldə qeyd etdiyimiz kimi “Rəngli lövhələr” məcmuəsinin ikinci bölməsində - (“Təlaş”, “Mistika”, “Şəfəq”, “Aşıqsayağı”, “İnvensiya”, “Vals”, “Venera”, “Casus”, “The Word of Nasimi”) proqramlı pyeslər ali təhsil ocaqlarında təhsil alan tələbələr üçün tədris oluna bilər.

“Şəfəq” pyesi Lento tempindədir, lakin pyesin ortasındakı qəfil poco a poco accelerando sanki günəş şüalarının, göyün üzünü işıqlandırmasını təsvir edən impressionist ruhlu bir tablodur.

İkinci bölmədəki “Cəsus” və “The World of Nasimi” pyesləri məzmun və ifa baxımından çox mürəkkəb olub, müəyyən texniki hazırlığı tələb edir. **“THE WORLD OF NASIMI”** *(Nəsimi dünyası)*- solo fortepiano üçün yazılmış kompozisiya 2019-cu il “Nəsimi ili” çərçivəsində yazılmışdır. Bu pyes Nyu-York, Qazaxıstan, Rusiya, Estoniyada böyük müvəffəqiyyətlə səslənmişdir. Buna misal olaraq – 2019-cu il sentyabr ayının 28-i Amerikanın New York şəhərində keçirilən Nəsiminin 650 illik yubileyinə həsr olunmuş konsertdə istedadlı pianoçu Fəqan Həsənlinin ifasında əsərin premyerası baş tutmuşdur. Əsər auditoriya tərəfindən fasiləsiz alqışlarla qarşılanmışdır. Bəstəkar musiqi əsərində dahi Azərbaycan şairi İ.Nəsiminin fəlsəfi dünyasının təcəssümünü yaratmağı qarşısına məqsəd qoymuşdur.

“Nəsimi dünyası” əsəri Azərbaycan musiqisinə ən yaxın forma olan rondoda bəstələnib. Burada girişdə royalın simləri üzərində ifa olunan, dərvişliyi təsvir edən ritmlər insanı sanki qədim dövrə, virtual səyahətə aparır. Sanki ritmlərin yaratdığı uğultulu mistik abu-hava ilə Nəsimi dünyasına daxil oluruq. İfaçı bir əllə royalın simlərini tutduğu məqamda digər əllə “Nəsiminin leyitmotivi”ni, yəni əsas olan refreni dinləyiciyə təqdim edir. Leytmotiv ud alətinin səs effekti ilə ifa edilir. Bu yaddaqalan leytmotiv əsər boyu bütün hissələri birləşdirici rola malikdir. Musiqi atonal olsa da “Çahargah” ladının intonasiyaları aydın eşidilir.

**NÜMUNƏ 5**




Müasir yazı texnikası, müasir ifa üsullarının tətbiq edildiyi, royalın həm də zərb aləti kimi şərh edildiyi bu mürəkkəb əsərdəki mühüm yeniliklərdən biri də ondan ibarətdir ki, pyesdə Nəsiminin qəzəlinin beytinin uyğun əruz ritmi musiqidə öz əksini tapmışdır.

**Fəzlinə bel bağladım ya Vahidü fərdü Əhəd!**
**NÜMUNƏ 6**



Bəstəkar gərgin atonal xaosdan rəngarəng modulyasiyalar edərək aydınlıq major tonallıqlara gəlir və dinləyicilərə parlaq kulminasiya yaşadır. Əsərin sonunda birinci leytintonasiya, daha sonra isə əsərin əvvəlindəki ritmik üsul səslənir və yenidən refrenə güzgülü şəkildə geri dönülür. Pyesdə bir çox müəllif remarkaları verilmişdir ki, bu da, ifa üsullarına aiddir.

Çətinlik səviyyəsinə görə çox mürəkkəb olan daha sonrakı "Cəsus" pyesində fortepianonun müxtəlif registrlərinin qarşılaşması, ritmik çətinliklər, klaster ahənglər, mürəkkəb harmoniyalar – bu xüsusiyyətlər artıq ifaçıdan yüksək peşəkarlıq səviyyədə hazırlıq tələb edir.

Növbəti aşıq musiqisi ruhlu "Aşıqsayağı" pyesində xalq ifaçılığının, saz çalğısının xüsusiyyətləri əks olunur. Bəstəkar aşıq musiqisinin ən səciyyəvi cəhətlərini canlandırır. Maraqlı 5/8 və 6/8 ölçülərinin növbələşməsi sadə üçhissəli formalı kompozisiyanın kənar hissələrində verilir. Orta hissə eyni ölçüdə (5/8) ifa edilir. Pyesdə aşıq musiqisinin səciyyəvi rutmi və interval quruluşu (kvarta) istifadə olunur. Aşıq musiqisi üçün səciyyəvi olan kvarta-kvinta quruluşlu akkordlar eşidilir. Pyesin başlanğıcındakı mövzudan, onun ritmik enerjisindən bütün pyesin tematizmi doğulur.

**NÜMUNƏ 7**




Məcuənin ikinci bölməsindəki "Vals" bir qədər qeyri-ənənəvidir. Ənənəvi 3/4 ölçüsü bu valsda, 6/8 ilə əvəzlənmişdir. Sadə üçhissəli formada şərh olunan bu lirik miniatürün orta hissəsi sanki hərlənən cütlüyü təsvir edir. Reprazada isə mövzu və müşayiət bir oktava aşağı köçürülür və yeni ahənglər kəsb edir.

"Meh" adlandırılan pyes təbiət lövhəsidir. Pyesdə zərif melodiya sakit küləyi, yüngül yeli canlandırır. Dinamika baxımından da proqramlı sərlövhə öz əksini tapır. Pyesin kənar hissələri mp – mehin əzməsini, orta hissədə qəfil forte sanki küləyin güclənməsini təsvir edir. Reprizada yenə başlanğıc sakit obraz verilir. Pyes pianissimo ilə yuxarı registrdə tamamlanır. "Meh" pyesinin Andante rubato tempi onun ovqatını əks etdirir. Əsəri dinlədikdə Abbas Səhhətin bu misraları yada düşür.

*Yumşaq göy çəmənin üstə düşüb şeh gecədən,*
*İsti yoxdur, hələ var bir balaca meh gecədən.*

***(Abbas Səhhət "Yay səhəri" şeiri)***

İlahə Qismətin fortepiano üçün "Rəngli lövhələr" məcmuəsi haqqında çox söz demək olar. Çünki İlahə Qismət daim axtarışlarda olan bir bəstəkardır. Fortepiano miniatürü janrı əsasən bəstəkarlar üçün bir növ "yaradıcılıq laboratoriyası" olsa da, İlahə Qismət bu janrda öz tapıntılarını etmiş, obrazlı şəkildə desək, öz naxışlarını vurmuşdur.

**Məqalənin aktuallığı.** Yenə də Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadənin İlahə Qismətin məcmuəsinə yazdığı ön sözdən sitatla bitirmək yerinə düşərdi: "Düşünürəm ki, təqdim olunan bu məcmuə gənc pianoçuların marağına səbəb olacaq. Buradakı pyeslər texniki baxımdan, həm də yaradıcı təfəkkür istiqamətindən ifaçının daxili dünyasının açılmasına imkan yaradır. Əsərlər xarakter etibarilə olduqca rəngarəngdir. Məcmuə pianoçuların yeni nəsil Azərbaycan bəstəkarının fəaliyyəti və əsərləri ilə daha yaxından tanış olması üçün olduqca dəyərli vəsaitlərdən biridir".

Bəli ümidvarıq, bu məcmuə uşaqlar üçün yazılmış bir çox bəstəkarlarımızın pyeslər məcmuəsi silsiləsinin davamı olacaq. Təbii ki, bu pyeslərin bir çoxu artıq peşəkar ifaçılar tərəfindən ifa olunur və əminik ki, məcmuə tədris proqramına daxil olaraq ifaçıların repertuarında yer alacaq.

## ƏDƏBİYYAT


1. Hacıbəyli Ü. Azərbaycan xalq musiqisinin əsasları. Bakı, 2014.
2. Əlizadə F. Ön söz – İlahə Qismət. "Rəngli lövhələr". Bakı. Class Print. 2023. səh. 3-4.
3. Seyidov T. XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: pedaqogika, ifaçılıq və bəstəkarlıq yaradıcılığı. Bakı: Təhsil 2016, 336 s.
4. Allahverdiyev C. Fortepiano üçün seçilmiş əsərlərin ifaçılıq xüsusiyyətləri Dərs vəsaiti. Bakı, 2016. 148 s.
5. Musiqi və onun tədrisi metodikası. Sumqayıt. 2020. 99 s.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 28.04.2024**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.06.2024**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.06.2024**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Zemfira Abdullayeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

# QAYDALAR

Azərbaycan Dövlət Pedaqoji Universitetinin «Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri» jurnalında məqalələr Azərbaycan, rus və ingilis dillərində çap olunur. Məqalənin əlyazmasını kompüterdə Microsoft Word redaktorunda Azərbaycan, rus və ingilis dillərində, Times New Roman şrifti ilə, 12 ölçüdə, 1 intervalla, A4 formatlı ağ vərəqdə tərtib etmək lazımdır. Məqalənin həcmi 4-5 səhifədən az olmamalıdır.

Məqalənin başlanğıcında məqalənin UOT indeksi, müəllifin soyadı, adı, atasının adı, işlədiyi müəssisə və onun ünvanı, vəzifəsi, elmi adı, elmi dərəcəsi və ya fəxri adı, e-mail ünvanı, daha sonra, məqalənin adı, məqalə hansı dildə yazılmışsa həmin dildə qısa xülasəsi (120-150 söz) və açar sözlər (6-10 söz) verilməlidir. Məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və sair aydın şəkildə verilməlidir.

Daha sonra digər iki dildə xülasə (müəllifin adı və məqalənin adı həmin dillərdə göstərilməklə) («Резюме» və «Summary») və həmin dillərdə açar sözləri («Ключевые слова» və «Keywords») verilməlidir. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır. Xülasələr elmi və qrammatik baxımından ciddi hazırlanmalıdır.

Məqalədə verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllığı ilə nömrələnməli və məsələn, [1] və ya [1, s. 119] kimi işarə olunmalıdır.

**Kitab və jurnallara istinad aşağıdakı qaydada verilməlidir:**

1. Müəllifin soyadı və inisialı. Kitabın adı. Cildin nömrəsi. Şəhər: nəşriyyat, nəşr ili, ümumi səhifələrin sayı;
2. Müəllifin soyadı və inisialı. Məqalənin adı // Jurnalın adı, nəşr ili, buraxılış nömrəsi, başlanğıc-son səhifələr.

**Məqalənin quruluşu:**

- Məqalənin UOT indeksi;
- Müəllifin soyadı, adı, atasının adı;
- İşlədiyi müəssisənin adı, vəzifəsi, elmi adı və elmi dərəcəsi, fəxri adı (və ya doktorant və ya dissertant olduğu təşkilatın adı, təhsilin forması);
- İşlədiyi müəssisənin (və ya doktorant olduğu təşkilatın) ünvanı (poçt nömrəsi göstərilməklə);
- Müəllifin e-mail ünvanı;
- Məqalənin yazıldığı dildə qısa xülasəsi (120-150 söz) və açar sözlər

(6-10 söz);

- Baş hərflərlə məqalənin adı;
- Məqalənin mətni;
- İstinad olunmuş ədəbiyyat siyahısı;
- Digər iki dildə məqalənin adı və müəllifin adı və soyadı göstərilməklə qısa xülasəsi və açar sözlər (6-10 söz).

**Məqalə aşağıdakı hissələrdən ibarət olmalıdır:**

- Giriş;
- Məsələnin qoyuluşu;
- Məsələnin həlli;
- Nəticə (elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və sair);
- Ədəbiyyat.

**Məqalənin redaksiyaya təqdim olunması:**

- Məqalənin çap olunmuş əlyazması (1 nüsxədə) və onun elektron variantı Compact Diskdə (CD və ya CD-RW) və məqalənin çap olunması üçün müəssisə tərəfindən təsdiq olunmuş müvafiq sənədlərlə (məqaləyə 2 rəy və təşkilatın (kafedranın) iclas protokolundan çıxarış) birlikdə jurnalın məsul katibinə (AZ 1000, Bakı, Üzeyir Hacıbəyli küçəsi 68, ADPU) təqdim edilməlidir.
- Ayrıca vərəqdə müəllif haqqında anket-məlumat əlavə olunmalıdır. Məlumatda müəllifin soyadı, adı, atasının adı, elmi dərəcəsi, elmi adı, müəssisənin adı, müəssisənin ünvanı, ev ünvanı, e-mail ünvanı və telefon nömrəsi göstərilməlidir.
- Məqalə n_s_q@mail.ru elektron ünvanına göndərilə bilər.
- Lazım gəldikdə jurnalın redaksiyası məqalənin nəşri üçün əlavə sənədlər tələb edə bilər.
- Məqalənin əlyazması və CD geri qaytarılmır.

***Qeyd: Qaydalar Ali Attestasiya Komissiyasının tələblərinə uyğun tərtib olunub.***

# ПРАВИЛА ОФОРМЛЕНИЯ СТАТЕЙ

В журнале «Актуальные проблемы музыкальной науки, культуры и образования» Азербайджанского Государственного Педагогического Университета статьи публикуются на азербайджанском, русском и английском языках. Рукопись статьи должна быть набрана на компьютере в программе Microsoft Word на азербайджанском, русском и английском языках шрифтом Times New Roman, размером 12, интервалом 1, форматом А4. Объём статьи должен быть не менее 4-5 страниц.

В начале статьи даётся индекс УДК, фамилия, имя, отчество автора, место работы (адрес учреждения), должность, учёное звание, учёная степень или почётное звание, e-mail, затем даётся название статьи, краткое резюме (120-150 слов) и ключевые слова (6-10 слов) на том языке, на котором написана статья. В конце нужно четко и ясно показать новизну, практическую значимость и эффективность работы в соответствующей области науки.

Далее даётся краткая аннотация на двух других языках (указать автора и название статьи) («Резюме» и «Summary») и ключевые слова («Ключевые слова» и «Key words») на этих языках. Все резюме должны отражать содержание и подготовлены очень строго с научной и грамматической точки зрения.

В статье список литературы даётся не по алфавитному порядку, а по порядку цитат, например, [1] или [1, с.119].

**Цитаты из книг и журналов даются в следующем порядке:**

1. Фамилия и инициалы автора. Название книги. Том. Город: издательство, год издания, количество страниц.
2. Фамилия и инициалы автора. Название статьи // Название журнала, год издания, номер издания, начальная и последняя страницы.

**Последовательность оформления (структура) статьи:**

- Индекс УДК;
- Фамилия, имя, отчество автора;
- Название учреждения, место работы, должность, учёное звание, учёная степень или почётное звание (или название организации докторанта или диссертанта, форма учебы) адрес учреждения (или организации докторанта), где работает (указать почтовый номер);
- e-mail автора;

- Краткое резюме (120-150 слов) и ключевые слова (6-10 слов) на том языке, на котором написана статья;
- Название статьи прописными буквами;
- Текст статьи;
- Список использованной литературы;
- Краткое резюме на двух других языках (с указанием автора и названия статьи) и ключевые слова (6-10 слов) на этих языках.

**Статья должна состоять из следующих частей:**

- Введение;
- Постановка проблемы;
- Решение проблемы;
- Выводы (новизна, практическая значимость и эффективность работы в соответствующей области науки);
- Литература.
- **Представление статьи в редакцию:**
- Рукопись статьи (1 экземпляр) и её электронный вариант на Compact Disk (CD или CD-RW) и соответствующие документы для публикации статьи, утвержденные учреждением (2 рецензии и выписка из протокола заседания организации (кафедры)) должны быть представлены ответственному секретарю журнала (AZ 1000, г. Баку, ул. Узеира Гаджибейли 68, АГПУ).
- Анкета-справка об авторе представляется отдельно. В справке нужно указать фамилию, имя, отчество автора, ученое звание, ученую степень, название и адрес учреждения, домашний адрес, e-mail и номер телефона.
- Статью можно послать на e-mail: n_s_q@mail.ru
- В случае необходимости редакция журнала может потребовать дополнительные документы для публикации статьи.
- Рукопись статьи и CD не возвращаются.

***Примечание: Правила сставлены в соответствии с требованиями Высшей Аттестационной Комиссии.***

# RULES

In the journal of «Actual problems of the science, culture and education of music» of Azerbaijan State Pedagogical University articles are published in Azerbaijani, Russian and English languages. Articles must be written on the computer in Microsoft Word with Times New Roman type of 12 size, l interval and on a white paper of A4 format. Pages of the article must be not less than 4-5.

At the top of the article it must be noted UOT index of article, name and surname of the author, his place of work and post address, scientific degree, honorary title, e-mail, title of the article, its short summary (120-150 words) and key words (6-10). At the end of the article it must be clearly written about scientific novelty of the article, importance of its research, economical benefit etc.

At the end of the article it must be noted list of references, in two languages title of the article, name of the author summary and keywords.

Content of the summaries in two languages must be same and suit to the content of the article. Summaries must be written grammatically and scientifically. List of references must not be given in alphabetical order but in the order of their place in the article, for example, [1] or [1, p. 119].

**Reference to books and journals must be given as below:**

1. Surname and initials of the author. Title of the book. Number of the volume. City: edition, publication year, number of pages.
2. Surname and initials of the author. Title of the article// Name of the journal, publication year, issue number, the first and the last pages.

**Structure of the article:**

- UDC index of the article;
- Name and surname of the author;
- Place of work and post, scientific degree, honorary title (it must be noted name of the institution where one is a candidate for a degree or a doctor for a degree);
- Address of work (or institution where one is a doctor for a degree);
- E-mail of the author;
- A short summary (120-150 words) and key words (6-10 words) of the article in the same language that was the article written in;
- Title of the article in capital letters;
- Text of the article;
- List of references;
- Short summary (120-150 words) and key words by indicating the

name of article, name and surname of author in other two languages (6-10 words).

**The article must consist of the following parts:**

- Introduction;
- Putting of task;
- Solution of task;
- Conclusion (scientific innovation, applied significance, economic benefit of the work conforming to character of the scientific field and article, etc.);
- Literature.

**Submission of the article to revision:**

- The printed manuscript of the article (in 1 copy) and its electron variant is to be submitted to the responsible secretary of the journal in Compact Disc (CD or CD-RW) together with proper documents certified by institution for printing of the article (2 references to the article and extract from meeting protocol of the organization (department)) (68, Uzeyir Hajibayli str., Baku, AZ 1000, ASPU).
- Information form about author is to be attached in separate sheet. Surname, name, father's name, scientific degree, scientific title of author, name of institution, address of institution, home address, e-mail address and phone number is to be indicated in the information.
- The article may be sent to e-mail: n_s_q@mail.ru.
- If necessary, revision of the journal may require further documents for publication of the article.
- Manuscript of the article and CD is not returned.

***Note: The rules framed in accordance with the requirements of the Higher Attestation Commission.***

| | |
|---|---|
| *Nəşriyyatın direktoru:* | Hüseyn Hacıyev |
| *Texniki redaktor:* | Mustafa Şəfiyev |
| *Korrektor:* | Sevinc Mamoyeva |

Çapa imzalanmış: 15.06.2024.
Kağız formatı $70 \times 100^{1/16}$. 7,875 ç.v.
Sifariş 217. Sayı 200.

---

**ADPU-nun mətbəəsi**
Bakı, Ü.Hacıbəyli küçəsi, 68
Tel.: 493-74-10